RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 243 (8266) CÜMƏ, 1 noyabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# İlham Əliyevin növbəti siyasi qələbəsi



## Beynəlxalq Astronavtika Konqresinin yarıməsrlik fasilədən sonra yenidən Bakıda keçirilməsi haqqında qərar Azərbaycanın yüksələn nüfuzunun təzahürüdür

**1973-cü il 7-13 oktyabr, Bakı şəhəri.** Azərbaycan tarixinə qızıl hərflərlə yazılan həmin günün böyük rəmzi mənası var. Beynəlxalq Astronavtika Konqresi növbəti iclasının hansı ölkədə keçirilməsi ilə bağlı qərar qəbul edərkən məkan keçmiş Sovet İttifaqının ərazisi seçilir. O zaman uzaqgörən şəxsiyyət, Ulu Öndər Heydər Əliyev bu toplantının məhz Azərbaycanda, Bakı şəhərində baş tutması üçün böyük təşəbbüs göstərir və dahi liderin istəyi reallaşır.

Keçmiş Sovetlər birliyində yalnız bir dəfə və məhz Bakı şəhərində dünyanın 17 ölkəsindən gələn 1500-dən çox nümayəndə, eləcə də kosmonavtlar 7 gün paytaxtımızda geniş müzakirələr aparırlar. Konqresdə Beynəlxalq Astronavtika Federasiyasının prezidenti Luici Gerardo Napolitano, Beynəlxalq Astronavtika Akademiyasının prezidenti Çarlz Stark Draper, amerikalı astronavt Tomas Stafford, iki dəfə Sovet İttifaqı Qəhrəmanı adını almış kosmonavtlar Vladimir Şatalov, Vitali Sevastyanov, Georgi Bereqovoy və həmin dövrün kosmik sahədə fəaliyyət göstərən bir çox tanınmış simaları iştirak edib, kosmosun elmi və ümumbəşəri əhəmiyyəti barədə bəyanatlar verirlər.

### 50 ildən sonra yenidən Azərbaycanda

Bu tarixi hadisədən 46 il sonra, 25 oktyabr 2019-cu ildə ABŞ-ın paytaxtı Vaşinqtonda Beynəlxalq Astronavtika Federasiyasının Baş Assambleyasında keçirilmiş seçkilər zamanı 2022-ci ildə keçiriləcək konqresə evsahibliyi etmək istəyən şəhərlər sırasında Bakı şəhərinin də namizədliyi irəli sürüldü.

Bu mötəbər tədbirə evsahibliyi etməyə namizəd olan şəhərlər arasında Sinqapur, Rio-de-Janeyro və Nyu Dehli şəhərləri də yer alırdı və Azərbaycan paytaxtı adları çəkilən həmin şəhərləri geridə qoyaraq Beynəlxalq Astronavtika Konqresinə evsahibliyi etmək hüququnu qazandı.

Əlbəttə ki, növbəti konqresin Azərbaycanda keçirilməsi haqqında qərarın dəstəklənməsi ölkəmizin siyasi nüfuzunun təzahürü, etibarlı tərəfdaş kimi tanınan Azərbaycana olan inamın nəticəsidir. Bu qərar həm də islahatçı lider kimi tanınan Prezident İlham Əliyevin son 16 ildə həyata keçirdiyi müstəqil siyasətinin növbəti təntənəsidir.

Ardı 5-ci səh.

# Prezident İlham ƏLİYEV: "İcra orqanlarının rəhbərləri vətəndaşların qayğıları ilə yaşamalıdırlar"

## Dövlət başçısı Anar Tağıyevi Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı, Elnur Rzayevi Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Anar Tağıyevi Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı, Elnur Rzayevi Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunması ilə əlaqədar qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən **Prezident İlham ƏLİYEV** dedi:

- Mən sizi icra başçısı vəzifəsinə təyin edirəm. Siz bu günə qədər icra başçısının müavini vəzifəsində işləmisiniz, müəyyən təcrübə toplamısınız. İndi isə sizə böyük etimad göstərərək Xaçmaz və Yevlax rayonlarına icra başçısı vəzifəsinə təyin edirəm. Bu, böyük etimaddır və siz bu etimadı doğrultmalısınız.

Xaçmaz rayonunda uzun illərdir ki, Şəmsəddin Xanbabayev işləyir. Şəmsəddin Xanbabayev Naxçıvanda Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında Baş Nazir vəzifəsində işləmişdir. Ondan sonra Azərbaycanın Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini vəzifəsində işləmişdir. Əvvəlki nazir onu işdən çıxarmaq istəmişdi, mən qoymadım. Çünki Şəmsəddin Xanbabayev həm təcrübəli insandır, eyni zamanda, ən ağır dövrdə Heydər Əliyevə öz dəstəyini göstərmişdi və Heydər Əliyev onu Naxçıvanın Baş Naziri vəzifəsinə təyin etmişdi.

Son illər ərzində Xaçmaz rayonunda abadlıq işləri aparılıbdır, böyük infrastruktur layihələri icra edilibdir. Mənim təşəbbüsümlə modul tipli elektrik stansiyası tikilib, aqroparklar işə başlayıb, həm Bakıdan Xaçmaza qədər, eyni zamanda, kənd yolları çəkilib. Xaçmaz rayonunun çox böyük turizm potensialı var və hesab edirəm ki, gələcəkdə biz bu imkanlardan daha geniş şəkildə istifadə etməliyik. Şimal zonasının turizm imkanları doğrudan da çox genişdir. Bildiyiniz kimi, Qusar rayonunda, MDB məkanında ən yüksək səviyyəli dağ-xizək mərkəzlərindən biri fəaliyyət göstərir - Şahdağ kurortu. O da mənim təşəbbüsümlə yaradılmışdır. İlk dəfə mən o dağlara gələndə orada heç bir yaşayış, heç bir infrastruktur yox idi. Biz yollar çəkdik. Quba və Qusar rayonlarının sərhədində müasir elektrik stansiyası yaradıldı, qazlaşdırma aparıldı, elektrik enerjisi, su təchizatı təmin edildi. Yəni, bir sözlə, Qusar rayonunun çox böyük inkişaf layihəsi icra edilmişdir. Bir daha demək istəyirəm ki, Şahdağ kurortu bu gün nəinki MDB-də, dünya miqyasında ən gözəl dağ-xizək kurortlarından biridir.



Xaçmaz rayonunun da özünəməxsus gözəl təbii şəraiti vardır. Təkcə Nabran bölgəsini qeyd etmək kifayətdir. Doğrudan da nadir təbii məkandır. Əlbəttə ki, orada turizm infrastrukturu müasir standartlara cavab verməlidir. Əfsuslar olsun ki, hazırda bu, belə deyil. Mən Xaçmaz rayonuna son səfərim zamanı oradakı turizm imkanları ilə tanış oldum, gördüm ki, indiki Azərbaycanın inkişaf səviyyəsinə uyğun gəlmir. Bir sıra istirahət zonaları çox primitivdir, xidmət səviyyəsi də çox aşağıdır. Ona görə bu məsələyə çox böyük diqqət göstərilməlidir. Dövlət xətti ilə lazımi kömək göstəriləcək. Ancaq yerli icra orqanları da bu sahəyə böyük diqqət göstərməlidirlər. O cümlədən Xaçmaz rayonunun böyük kənd təsərrüfatı potensialı vardır və orada yaradılmış Yalama aqroparkı çox böyük investisiya tutumlu layihədir. Digər sahələr üzrə də işlər düzgün aparılmalıdır. Yerli vətəndaşların müraciətlərini nəzərə alaraq orada böyük suvarma layihələri icra edildi. Yəni rayonun çox böyük potensialı var. İnfrastruktura gəldikdə, həm olimpiya mərkəzi, eyni zamanda, xəstəxana yaradılmışdır, abadlıq işləri aparılmışdır. Bu işlər davam etdirilməlidir, ancaq müasir səviyyədə, müasir tələblərə uyğun şəkildə.

Yevlax rayonunun da çox böyük potensialı vardır. Orada da böyük infrastruktur layihələri icra edilmişdir. Düzdür, içməli su və kanalizasiya layihələri hələ ki, başlamamışdır. Xaçmaz rayonunda bu layihələr başa çatıb. Bir neçə gün bundan əvvəl "Azərsu" Səhmdar Cəmiyyətinə göstəriş verildi ki, Yevlax rayonunun içməli su və kanalizasiya layihəsinə start verilsin.

Ardı 2-ci səh.

# Paytaxt yolları genişləndirilir və abadlaşdırılır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 31-də paytaxtın Yasamal rayonunda Şəfayət Mehdiyev küçəsinin Tbilisi prospektindən Landau küçəsinədək olan hissəsində yenidənqurmadan sonra görülən işlərlə tanış olub.

AZƏRTAC xəbər verir ki, görülən işlər barədə Prezident İlham Əliyevə məlumat verən Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri **Saleh MƏMMƏDOV** dedi:

- Möhtərəm cənab Prezident, xoş gəlmisiniz. Yasamal rayonundakı Şəfayət Mehdiyev küçəsi 2,4 kilometr uzunluğundadır.

Ardı 2-ci səh.




# Prezident kiçik və orta sahibkarlara dəstəyini davam etdirir

Həyata keçirilən islahatlar yeni mərhələyə qədəm qoyur. Belə ki, iqtisadi və sosial sahələrdə aparılan islahatlar indi kadrlar sahəsini də əhatə edir. Prezident tərəfindən bir çox vəzifələrə gənc və enerjili kadrların təyin olunması bunu təsdiq edir. Dövlət başçısı çıxışlarında qeyd edir ki, müasir dövrün yeni çağırışlarına cavab verən kadrların irəli çəkilməsi vacibdir.

Bugünə kimi aparılan islahatlar sayəsində ölkə iqtisadiyyatı 3,3 dəfə, islahatların əsas hədəflərindən biri olan qeyri-neft sektoru 2,8 dəfə artıb. Həmin dövrdə maaş və pensiyalar dəfələrlə artıb, inflyasiya 2 faizdən çoxdur. Bütün bunlar ölkənin ümumi inkişafı ilə yanaşı, əhalinin sosial rifahının da yaxşılaşmasına xidmət edir. Təkcə əhalinin sosial rifahının yaxşılaşdırılmasına yönəldilən iki paketin qəbulundan 4 milyon 200 min insan faydalanıb, minimum əməkhaqqı təxminən 2 dəfə, minimum pensiya 70 faizdən çox artırılıb. Minimum pensiyanın alıcılıq qabiliyyətinə görə ölkəmiz MDB məkanında birinci yerdədir, orta pensiyanın səviyyəsinə görə üçüncü yerdə qərarlaşıb.

Ardı 5-ci səh.

# 9 ayda ölkə üzrə 6,2 milyard manatlıqdan çox kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur

Dövlət Statistika Komitəsi (DSK) cari ilin 9 ayı üzrə ölkənin aqrar sektorunda istehsal olunan məhsullar və görülmüş işlər barədə hesabat açıqlayıb.

Hesabatda bildirilir ki, oktyabrın 1-i vəziyyətinə dənlilərin və dənli-paxlalı bitkilərin (qarğıdalısız) 1 milyon 39,5 min hektar əkin sahəsinin 1 milyon 34,3 min hektarı biçilmiş və həmin sahələrdən 3 milyon 236,1 min ton (əvvəlki ilin eyni dövründəkindən 6,1 faiz çox) məhsul toplanmışdır. Məhsuldarlıq orta hesabla 31,3 sentner olmuşdur.

Bundan əlavə, 23,5 min hektar dən üçün qarğıdalı sahəsindən 149,8 min ton məhsul yığılmış, hər hektardan orta hesabla 63,8 sentner qarğıdalı dəni götürülmüşdür.

Ardı 8-ci səh.

# Ermənistanda siyasi terror güclənir

Ermənistanda cərəyan edən son hadisələr bu ölkənin sosial-iqtisadi sahəsində olduğu kimi, siyasi həyatında da problemlərin artdığından xəbər verir. Belə görünür ki, Paşinyan hakimiyyəti ilə sabiq iqtidar təmsilçiləri arasında kəskinləşən qarşıdurma ölkədə yeni xaosun formalaşmasına zəmin yaradır, ictimai-siyasi proseslərin daha gərgin mərhələyə qədəm qoyduğunu göstərir.

Bu da ondan irəli gəlir ki, Robert Koçaryana və Serj Sarkisyana yaxın olan keçmiş hakimiyyət təmsilçiləri tədricən sıradan çıxarılır.

Ötən ay Ermənistanın sabiq nəqliyyat və rabitə naziri Qurgen Sarkisyanın da həbs olunması əsas gündəm mövzularından birinə çevrilmişdi. Yerli mətbuatın verdiyi xəbərə görə, sabiq nazir "Şimal-Cənub Nəqliyyat Dəhlizi" proqramının hazırlanması və həyata keçirilməsində sui-istifadə hallarına yol verilməsinə dair Ermənistan İstintaq Komitəsinin müvafiq idarəsi tərəfindən aparılan araşdırma nəticəsində həbs edilib.

Xatırladaq ki, daha əvvəl məhkəmə girov müqabilində Qurgen Sarkisyana qarşı həbs qətimkan tədbiri seçməkdən imtina edərək onu sərbəst buraxmışdı. Bu günlərdə isə Apelyasiya Məhkəməsi prokurorluğun şikayətini təmin edib Sarkisyan barəsində həbs qərarı çıxarb.

Ermənistanın parlament aparatı rəhbərinin keçmiş müavini Arsen Babayana qarşı da ittiham irəli sürülüb.

Ardı 11-ci səh.

# Prezident İlham ƏLİYEV: “İcra orqanlarının rəhbərləri vətəndaşların qayğıları ilə yaşamalıdırlar”

Əvvəli 1-ci səh.

Hazırda Azərbaycanda cəmi beş şəhərdə bu layihələr başlamayıb. Ancaq müvafiq göstərişlər verilib və bu işlər də davam etdirilməlidir.

Əlbəttə ki, kənd təsərrüfatı sahəsində böyük imkanlar var. Sənaye baxımından çox böyük potensial var. Yəni icra başçıları bütün bu işlərdə fəal olmalıdırlar. Düzdür, əsas işi dövlət qurumları görür. Yol çəkilişi, elektrik enerjisi təchizatı, qaz təchizatı - bütün bunlar dövlət investisiya proqramı çərçivəsində həll olunan məsələlərdir. Yerli icra orqanları, sadəcə, burada çox fəal olmalıdırlar və bütün bu layihələrin icrası üçün öz səylərini göstərməlidirlər.

Sizin qarşınızda duran əsas vəzifələr rəhbərlik edəcəyiniz rayonların sosial-iqtisadi inkişafını təmin etməkdir. Siz vətəndaşlarla daim təmasda olmalısınız, bütün kəndləri gəzməlisiniz, kənd camaatı ilə görüşməlisiniz. Sizin işiniz kabinet işi olmamalıdır. Düzdür, əlbəttə ki, hər bir rəhbərin işi, o cümlədən qəbul edilən qərarlar, görülən işlər, keçirilən müşavirələr - bütün bunlar hər bir rəhbər işçinin gündəlik həyat tərzidir. Ancaq siz çox mobil başçılar kimi fəaliyyət göstərməlisiniz.

Mən bir neçə dəfə demişəm, əgər ölkəmizin bütün kəndlərinin problemləri həll olunarsa, deməli, bütün problemlər də həll olunacaq. Xüsusilə nəzərə alsaq ki, hazırda regionların sosial-iqtisadi inkişafı üzrə IV dövlət proqramı icra edilir. Hesab edirəm ki, dördüncü proqramın icrası nəticəsində bu günə qədər həll olunmamış məsələlər tam şəkildə öz həllini tapacaqdır. Bu proqramın icrası Xaçmaz və Yevlax rayonlarını da əhatə edir. Siz vətəndaşların qayğıları ilə yaşamalısınız, onların problemlərini öyrənməlisiniz, düzgün təhlil aparmalısınız. Hansı məsələ rayon səviyyəsində həll oluna bilərsə, onları həll etməlisiniz. Əgər gücünüz çatmasa, onda mərkəzi icra orqanlarına müraciət etməlisiniz, o cümlədən Prezident Administrasiyasına ki, biz mövcud olan problemləri həll edək.

Eyni zamanda, siz vətəndaşlarla daim ünsiyyət əsnasında rayonun problemlərini və vətəndaşları narahat edən məsələləri daha dərindən öyrənib adekvat tədbirlər görməlisiniz. Bütün xoşagəlməz hallara son qoyulmalıdır, rüşvətxorluq, korrupsiya tamamilə yığışdırılmalıdır. Mən sizə şəxsən bu göstərişi verirəm. Əgər eşitsəm, bilsəm ki, əyri yola gedirsiniz, onda siz çox ciddi cəzalandırılacaqsınız. Bunu bəri başdan bilin və bütün başqa yerli icra orqanlarının nümayəndələri, rəhbərləri məni yaxşı eşitsinlər. Korrupsiyaya, rüşvətxorluğa qarşı Azərbaycanda amansız mübarizə aparılmalıdır. Bu yara bizim inkişafımızı ləngidir və gələcəyə olan planlarımızı sarsıda bilər. Düzdür, bu bəla hər bir ölkədə var. Amma əsas məsələ ondadır ki, rəhbərlik bu məsələyə necə münasibət göstərir. Azərbaycanda şəffaflıq, dürüstlük hər bir dövlət məmuru üçün həyat tərzi olmalıdır. Ona görə bu məsələ ilə bağlı aidiyyəti dövlət qurumları ilə birlikdə çox ciddi fəaliyyət göstərməlisiniz, tamamilə şəffaf vəziyyət yaradılmalıdır.

Rayonların abadlıq-quruculuq işlərinə diqqət yetirilməlidir, mövcud obyektlərin işlək vəziyyətdə olması da çox önəmlidir. Mənə verilən məlumatlara görə, bir neçə rayonda mənim iştirakımla açılmış Gənclər Mərkəzi indi bağlıdır, qapıya qıfıl vurulub və sadəcə olaraq görüntü naminə fəaliyyət göstərir. Bu, dözülməzdir, buna vəsait xərclənib. Gənclər mərkəzlərində gənclər öz asudə vaxtlarını keçirməlidirlər, orada maraqlı tədbirlər, intellektual oyunlar, vətənpərvərliklə bağlı tədbirlər təşkil olunmalıdır. Bu mərkəzlər tikilir, bir çox hallarda istifadə olunmur. Heydər Əliyev mərkəzləri demək olar ki, hər bir rayon mərkəzində vardır. Nədir bu mərkəzlərin məqsədi? Odur ki, o mərkəzlərə vətəndaşlar gəlib öz asudə vaxtlarını keçirsinlər, o mərkəzlərdə dərnəklər fəaliyyət göstərməlidir, o mərkəzlərdə sərgilər keçirilməlidir. O mərkəzlər rayonun mədəni həyatının ayrılmaz hissəsi olmalıdır. Ancaq mənə verilən məlumata görə, bəzi hallarda açılışdan sonra yenə də qapıları qıfıllanır və faktiki olaraq bu mərkəzlər işləmir. Siz bu məsələ ilə çox ciddi məşğul olun. Yəni rayonlarda həyat daha da dinamik xarakter almalıdır. Əlbəttə ki, rayonlarla böyük şəhərlər arasında fərq var, hər bir ölkədə. Ancaq biz bu fərqi azaltmalıyıq. Rayon yerində elə şərait yaradılmalıdır ki, oradakı vətəndaşlar elə orada yaşasınlar. İş yerləri olmalıdır. İndi dövlət xətti ilə bu proqram icra olunur, o cümlədən ödənişli ictimai işlər yaradılıbdır. Bu il 40 minə yaxın ödənişli ictimai iş yeri yaradılıb. Ancaq əvvəlki mənzərə necə idi? Bəzi icra başçıları saxta adamların adlarını siyahıya yazdırırdılar, onlara düşən vəsaiti mənimsəyirdilər və beləliklə talançılıqla məşğul idilər. Onların artıq cəzası verilibdir. Ona görə bu sahədə də tam şəffaflıq təmin edilməlidir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birlikdə siz ən kasıb təbəqəni bu işlərə cəlb etməlisiniz ki, onlar işsiz qalmasın. Mən demək istəyirəm ki, bu ödənişli iş yerlərinin böyük əksəriyyəti bizə lazım deyil. Ancaq biz bunu ona görə edirik ki, işsizlik aşağı səviyyədə olsun və rayonlarda iş axtaran işlə təmin olunsun. Yenə də demək istəyirəm ki, bu işlərdə artıq 40 minə yaxın vətəndaş işləyir və eyni zamanda, onların arasında bağbanlar, binaları təmir edənlər də var. O da bizə lazımdır. Ona görə bu sahəyə çox ciddi diqqət göstərilməlidir və elə etməlisiniz ki, vətəndaşlar sizin fəaliyyətinizdən razı qalsınlar.

İctimai nəzarət rayonlarda daha güclü olmalıdır. Buna nail olmaq üçün müvafiq təkliflər hazırlayın. İctimaiyyəti bizim ümumi işimizə cəlb etməliyik. Həm ictimaiyyət nümayəndələri öz səylərini göstərsinlər, həm də sizin işinizə, dövlət orqanlarının işinə nəzarət etsinlər. Əgər biz buna nail olsaq, onda hər hansı bir xoşagəlməz hadisə baş verərsə, biz dərhal ondan xəbər tutub lazımi tədbirləri görəcəyik. Bir çox hallarda rayonlardan gələn məlumat belədir ki, hər şey əladır, hər şey yaxşıdır, biz burada bütün işləri ən yüksək səviyyədə qururuq. Amma dərindən baxanda görürsən belə deyil, bəzi icra başçıları tərəfindən yalan məlumatlar ötürülür. Özlərini göstərmək, yaxud da ki, nöqsanlarını ört-basdır etmək üçün yalan raportlar verilir, rayonların inkişafı ilə bağlı, mövcud problemlərlə bağlı həqiqəti əks etdirməyən məlumatlar verilir. Ona görə mən də rayonlara tez-tez gedirəm ki, o problemləri xalqın dilindən eşidim. Biz bu problemləri həll etməliyik. Əgər kimsə problemləri malalamaq istəyirsə, səhv yoldadır. Sizə də tapşırıram, hər bir ölkədə problem var, biz o problemləri ört-basdır etməməliyik. Əksinə, üzə çıxarmalıyıq. O cümlədən mən media nümayəndələrinə də dəfələrlə müraciət etmişəm, demişəm ki, siz mənim köməkçilərimsiniz. Bəzi hallarda mən dözülməz vəziyyətlə bağlı mediadan xəbər tuturam. Bax, son hadisəni demək istəyirəm ki, Şamaxı rayonunda zəlzələ olub, oraya böyük vəsait ayrılıb. Mən oraya getmişəm, yeni tikilmiş evlərin açarlarını vətəndaşlara təqdim etmişəm. Ancaq o günləri televizorda baxıram ki, məktəb binasının yarısı uçubdur, çatlar var, uşaqlar qorxudan orada otura bilmirlər. Bəs yaxşı, bunun üstündən səkkiz ay keçibdir, bunu etmək mümkün deyilmi? Vəsait ayrılıb, göstəriş verilib, bir çox evlər tikilib, bu məktəb belə yararsız vəziyyətdə ola-ola bununla necə barışmaq olar? İndi əgər mediada, televizorda bu reportaj getməsəydi, mən bilməyəcəkdim. Mən bilən kimi dərhal göstəriş verdim. İndi orada işlər başlayacaq və o məktəb binası ya sökülüb yenidən tikiləcək, ya da ki, əsaslı təmir olunacaq. Ona görə ictimai nəzarət olmalıdır. Siz də bundan qorxmamalısınız, əksinə, ictimaiyyət sizə dəstək verməlidir.

Siz gəncsiniz, birinizin 37, digərinizin 38 yaşı var. İndi Azərbaycanda gəncləşmə siyasəti aparılır. Bu, təbiidir, nəsillər dəyişir, yeni təfəkkürlü insanlar irəli çəkilir. Bu, təbii prosesdir və biz bu prosesdən kənarda qala bilmərik. Ancaq onu da bildirməliyəm ki, bu, kampaniya xarakteri almamalıdır. Çünki mənə məlumat gəlir ki, bəziləri bunu kampaniyaya çevirmək istəyirlər və sınanmış, təcrübəli, bir qədər yaşlı insanlara qarşı bu kampaniyanı təşkil etmək istəyirlər. Mən buna yol verməyəcəyəm. Mən bilirəm kim nəyə qadirdir, kimin hansı xidmətləri olub əvvəlki dövrdə və bu gün. Ona görə Azərbaycanda təcrübə ilə gənclərin dinamizmi arasında vəhdət yaradılmalıdır. Bunun sintezi sayəsində biz gözəl nəticələrə çata bilərik. Bir də ki, yaşlı nəsil öz təcrübəsini bölüşməlidir. Ona görə hər kəs bilsin ki, mən bu kampaniyaya yol verə bilmərəm. Müəyyən dərəcədə xidmət göstərmiş insanlar, əlbəttə ki, dövlət tərəfindən də qiymətləndirilir və biz kampaniyaya yol verməyəcəyik. Eyni zamanda, təbii ki, gəncləşmə prosesi getməlidir və burada söhbət təkcə yaşda deyil, təfəkkürdədir, işə yanaşmadadır. Siz indi mənim təyin etdiyim kadrlar kimi, elə işləməlisiniz ki, həm Yevlax camaatı, həm Xaçmaz camaatı minnətdarlıq bildirsin. Əgər siz bu etimadı doğrultmasanız, mən sizi işdən çıxaracağam və cəzalandıracağam.

Gedin işə başlayın və bir daha deyirəm ki, Prezidentin və xalqın yüksək etimadını doğruldun.

## “Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 1876 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 1876 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 12, maddə 1134; 2012, № 2, maddə 117; 2014, № 2, maddə 112, № 6, maddə 644, № 9, maddə 1027; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2017, № 8, maddə 1521; 2018, № 6, maddə 1285) 1-ci hissəsi ilə yaradılmış Komissiyanın tərkibi aşağıdakı redaksiyada verilsin:

**“Komissiyanın həmsədri**

Şahin Mustafayev - Azərbaycan Respublikası Baş nazirinin müavini

**Komissiyanın üzvləri:**

Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri
Azərbaycan Respublikası xarici işlər nazirinin müavini
Azərbaycan Respublikası energetika nazirinin müavini
Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini
Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini
Azərbaycan Respublikası səhiyyə nazirinin müavini
Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini
Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini
Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini
Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri
Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədri
“Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin sədri
“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin sədri
“Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinin prezidenti
“Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” Qapalı Səhmdar Cəmiyyətinin Baş direktoru
Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti
Azərbaycan Respublikasının Çin Xalq Respublikasında fövqəladə və səlahiyyətli səfiri.”.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə edilən dəyişiklik barədə Çin Xalq Respublikası tərəfinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 oktyabr 2019-cu il*

# Paytaxt yolları genişləndirilir və abadlaşdırılır

Əvvəli 1-ci səh.



Bu küçənin Bəxtiyar Vahabzadə küçəsi ilə Əbdürrəhim bəy Haqverdiyev küçəsinin kəsişməsində 800 metr ərazi tam yaşayış və qeyri-yaşayış obyektləri ilə zəbt olunmuşdu.

**Prezident İlham ƏLİYEV:** Bu hissə?

**Saleh MƏMMƏDOV:** Bəli, bu hissə, cənab Prezident. Bu maşınlar dayanan hissədən o yanan işığa qədər tam yaşayış evləri idi. Hamısı köçürüldü və Sizin göstərişinizlə kompensasiya ödənildi.

**Prezident İlham ƏLİYEV:** Lazımi səviyyədə verildi kompensasiya?

**Saleh MƏMMƏDOV:** Kompensasiyaları tam ödənildi, heç bir şikayət olmadı. Küçənin 800 metrlik bu hissəsi tam yenidən quruldu. İndi 18 metr enində 4 cərgəli avtomobil yoludur. Əvvəllər Cavid prospekti ilə gələn avtomobillər Cavid parkının ətrafını dolanıb Tbilisi prospektinə gedirdilər. Bakıda nəqliyyatın hərəkətinin yaxşılaşdırılması ilə bağlı Sizin göstərişinizə əsasən görülən işlər nəticəsində indi həmin nəqliyyat vasitələri birbaşa Şəfayət Mehdiyev küçəsi ilə Tbilisi prospektinə çıxacaq.

**Prezident İlham ƏLİYEV:** Əvvəllər çıxış yox idi?

**Saleh MƏMMƏDOV:** Xeyr, əvvəllər çıxış yox idi. Yalnız 5 metr enində məhəllədaxili yol var idi. Bunlar sökülən evlərin şəkilləridir. Sizin ayırdığınız vəsait hesabına həmin evlərin hamısı köçürüldü.

**Prezident İlham ƏLİYEV:** Bu yol çox ensiz idi, burada qurtarırdı, bu tərəfə yol yox idi?

**Saleh MƏMMƏDOV:** Bəli, ancaq bu məhəllədəki binalara girmək üçün 5 metr enində yol var idi.

**Prezident İlham ƏLİYEV:** Yaxşı layihədir.

**Saleh MƏMMƏDOV:** Sizin göstərişinizlə həyata keçirilib. Tıxaclar tam aradan qalxıb. Cənab Prezident, bu yol olmayanda, bütün avtomobil axını metronun Elmlər Akademiyası stansiyasının qarşısından keçirdi. Bu şəkillərdə göründüyü kimi, pik saatlarda burada tıxaclar yaranırdı. Artıq bu hissədən axın götürüləcək. İndi tam 4 cərgəli yoldur. Həm də Tbilisi prospekti ilə birbaşa əlaqələndirilir. Gözəl bir yol sistemi yarandı.

**Prezident İlham ƏLİYEV:** Burada yaşayan vətəndaşlara lazımi şərait yaradıldı?

**Saleh MƏMMƏDOV:** Bəli, cənab Prezident, istədikləri vəsait tam ödənildi, hamısı da razı qaldı.

**Prezident İlham ƏLİYEV:** Ancaq bu evlərə gedə bilərdilər də?

**Saleh MƏMMƏDOV:** Ancaq bu evlərə. Məhəllədaxili küçələr idi. İndi artıq 2,4 kilometr uzunluqda gözəl bir prospekt yaranıb. Bundan əlavə, cənab Prezident, 2019-cu ilin investisiya proqramlarında nəzərdə tutulan, həmçinin büdcə fondundan ayırdığınız vəsait hesabına Bakı şəhərində və qəsəbələrində bir neçə yol tam çəkilib və istismara hazırdır. Bu yollardan biri Xocasən-Lökbatan yoludur, hansı ki, başlanğıcını Sədərək ticarət mərkəzindən götürür və Bakı-Şamaxı yolunun 9,5-ci kilometrliyinədək, “Coca-Cola” deyilən dairəyədək uzanır. Bu yol da indi tam hazırdır. Əvvəllər bu şəkillərdəki vəziyyətdə olub. İndi tam 4 cərgəli yoldur. Yolun ortasında ayırıcı beton zolaqlar qoymuşuq, 11,2 kilometrlik bu hissə istifadəyə tam hazırdır. Bundan əlavə, investisiya proqramından ayrılmış vəsait hesabına Sabunçu rayonunun Bakıxanov stansiyasından Suraxanı rayonunun Qaraçuxur qəsəbəsinə gedən 5,4 kilometrlik yolu bu il təmir etmişik, istismara tam hazırdır.

**Prezident İlham ƏLİYEV:** Bu, əvvəlki vəziyyətidir?

**Saleh MƏMMƏDOV:** Bəli, əvvəlki vəziyyətidir. İndi bu yolu bu vəziyyətə gətirmişik.

**Prezident İlham ƏLİYEV:** Genişləndirmə aparıldı?

**Saleh MƏMMƏDOV:** Bəli, genişləndirmə aparıldı və yeni səkilər, piyada keçidləri yaradıldı. Bakı şəhərinin Azadlıq prospektindən Yeni Avtovağzala qədər olan yolun 6 kilometrlik hissəsi genişləndirildi. Ensiz bir yol idi. Nəqliyyat axınını yaxşılaşdırmaq üçün bu yol da Sizin göstərişinizlə 4 cərgəyə genişləndirildi. Burada qovşaqlar yaradıldı, Yeni Avtovağzal Binəqədi şosesi ilə birləşdirildi.

Cənab Prezident, Əhmədli qəsəbəsində, Zığ şosesindən Neapol dairəsinədək olan küçə də ikigedişli idi. Uzunluğu 3,2 kilometr olan bu yolu da Sizin göstərişinizlə 4 cərgəli etmişik, istismara tam hazırdır.

**Prezident İlham ƏLİYEV:** Çox yaxşı işlər görmüsünüz. Bakı şəhərinin bütün küçələri ən yüksək standartlara cavab verməlidir. Ona görə harada ki, problemli yerlər var, onların da siyahısını tutun və biz həm bu il, həm də gələn il onları da təmir edəcəyik. Mənə məlumat verilir ki, Bakı-Sumqayıt yolunda tez-tez tıxaclar olur.

**Saleh MƏMMƏDOV:** Bəli, böyük tıxaclar olur.

**Prezident İlham ƏLİYEV:** Baxmayaraq ki, indi qatar da işləyir və vətəndaşların bir hissəsi qatardan istifadə edir, yenə də tıxaclar var. Ona görə baxın, bu yolu genişləndirmək üçün texniki imkan olmalıdır, layihə hazırlayın.

**Saleh MƏMMƏDOV:** Cənab Prezident, layihə hazırlayıb Sizə təqdim edərik.

**Prezident İlham ƏLİYEV:** Biz o yolu genişləndirməliyik, lazımi vəsait ayırarıq. Bir də mən sizə göstəriş vermişdim ki, qəsəbədaxili yollar, Bakıətrafı qəsəbələrin yolları da abadlaşdırılmalıdır. Siz ilkin təklifləri göndərmisiniz, baxılacaq və müvafiq göstərişlər veriləcək, sərmayə ayrılacaq ki, biz Bakı qəsəbələrində bütün daxili yolları abadlaşdıraq. Torpaq yollar asfaltlanmalıdır. Bakı şəhərində, o cümlədən onun qəsəbələrində torpaq yol olmamalıdır.

**Saleh MƏMMƏDOV:** Cənab Prezident, Sizin göstərişinizlə elə də olacaq. Qəbulunuzda olarkən verdiyiniz tapşırığa əsasən biz bəzi qəsəbələrdə yolların torpaq əsaslarının tikintisinə başlamışıq.

**Prezident İlham ƏLİYEV:** Bilirəm, siz başlamısınız. Əvvəl Kürdəxanı qəsəbəsinin yollarını abadlaşdırdınız. İndi digər qəsəbələr növbədədir.

**Saleh MƏMMƏDOV:** Pirşağı, Zabrat, ondan əlavə, Xəzər rayonunda, Binə qəsəbəsində...

**Prezident İlham ƏLİYEV:** Xəzər rayonunda Mərdəkan, Şüvəlan və digər qəsəbələrdə biz yolların hamısını bərpa edəcəyik.

**Saleh MƏMMƏDOV:** Sizin göstərişinizə bütün torpaq yolların hamısını mərhələlərlə asfaltlayacağıq.

## E.Ş.Rzayevin Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Elnur Şahbaz oğlu Rzayev Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 oktyabr 2019-cu il*

## A.A.Tağıyevin Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Anar Aqil oğlu Tağıyev Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 oktyabr 2019-cu il*

## Ş.H.Xanbabayevin Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Şəmsəddin Hüseynqulu oğlu Xanbabayev Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 oktyabr 2019-cu il*

## Q.Ç.Səmədovun Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Qoca Çərkəz oğlu Səmədov Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 oktyabr 2019-cu il*

## Kənd təsərrüfatı işçilərinə “Əməkdar kənd təsərrüfatı işçisi” fəxri adının verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Kənd təsərrüfatının inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə “Əməkdar kənd təsərrüfatı işçisi” fəxri adı verilsin:

Əzimov İlham Müqbil oğlu
Hacıyev Rahət Tofiq oğlu
Quliyev Babakişi Orucəli oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 oktyabr 2019-cu il*

## Kənd təsərrüfatı işçilərinin təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Kənd təsərrüfatının inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli “Əmək” ordeni ilə**

Əsgərova Zəhraxanım Balamirzə qızı
İmanov Vilayət Yəhya oğlu
İsmayılov Hadı Seyid oğlu

**“Tərəqqi” medalı ilə**

Abasov Rafət Firudin oğlu
Babayev Nizami Məmməd oğlu
Bayramov İlham Müzəffər oğlu
Bazarov Məhəmməd Heybullah oğlu
Əliyev Hikmət Yusif oğlu
Əmirov Rəşadət Vasif oğlu
Əskərov Tərlan Yusif oğlu
Gülalıyev Səlimxan Musa oğlu
Həsənov Rufulla Fayaz oğlu
Həsənov Yusif Həsən oğlu
Hüseynov Tahir İslam oğlu
Hüseynov Yenibar Sevindik oğlu
İbrahimov Habil Qəməddin oğlu
Kamalov Əsəd Qəzənfər oğlu
Kazakov İvan Vasilyeviç
Kazımova Cəmilə Cümşüd qızı
Qasımov Elman Umud oğlu
Mehdiyev Valeh Seyfulla oğlu
Mənəfov Novruz Şəmil oğlu
Orucov Rəcəb Əhməd oğlu
Ramazanov Sahib Nemət oğlu
Sadıqov Ələddin Nemət oğlu
Sərdarov İlyas Abbasəli oğlu
Yusifov Maarif Əlmədət oğlu
Ziyadov İkram Paşa oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 oktyabr 2019-cu il*

## M.M.Hüseynova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və “Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Atçılığın inkişafında xidmətlərinə görə Maarif Məmməd oğlu Hüseynova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 oktyabr 2019-cu il*

## Birinci vitse-prezident Mehriban Əliyeva Bakının UNESKO-nun “Yaradıcı şəhərlər şəbəkəsi” siyahısına daxil edilməsi münasibətilə xalqımızı təbrik edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Bakı şəhərinin 31 oktyabr - Dünya Şəhərlər Günündə “dizayn” tematikası üzrə UNESKO-nun “Yaradıcı şəhərlər şəbəkəsi” siyahısına daxil edilməsi ilə əlaqədar rəsmi “Instagram” səhifəsində paylaşım edib.



AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: “Təkrarsız tarixi siması qorunaraq müasir memarlıq inciləri ilə daim gözəlləşən Bakı şəhəri 31 oktyabr - Dünya Şəhərlər Günündə “dizayn” tematikası üzrə UNESKO-nun “Yaradıcı şəhərlər şəbəkəsi” siyahısına daxil edilib. Paytaxtımızın tarixi üçün əlamətdar olan bu hadisə münasibətilə həmvətənlərimi təbrik edirəm, ölkəmizin bütün şəhərlərinə sülh, inkişaf, tərəqqi, mehriban, qonaqpərvər sakinlərinə isə xoşbəxtlik və firavanlıq arzulayıram!”

## Azərbaycanda qeyri-neft sektorunda Böyük Britaniya şirkətləri üçün yeni imkanlar açılır

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva oktyabrın 31-də Böyük Britaniya Baş Nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında həm ənənəvi enerji sahəsində, həm də qeyri-neft sektorunda əməkdaşlığın geniş spektri müzakirə edildi. Ölkəmizin BP şirkəti ilə 25 ildən çoxdur ki, səmərəli əməkdaşlıq etdiyi qeyd olundu. Vurğulandı ki, hazırda Azərbaycanda qeyri-neft sektorunda Böyük Britaniya şirkətləri üçün yeni imkanlar açılır.

Birinci vitse-prezident Mehriban Əliyeva ölkələrimiz arasında müxtəlif sahələrdə, xüsusilə də humanitar sahədə əlaqələrin inkişafında Böyük Britaniya Baş Nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolsonun rolunu yüksək qiymətləndirdi.



Baronessa Emma Nikolson Azərbaycan ilə Böyük Britaniya arasında uğurlu əməkdaşlığın qurulduğunu bildirərək, bundan sonra da əlaqələrimizin inkişafına töhfə vermək üçün səylərini davam etdirəcəyini vurğuladı. Dünyanın aparıcı neft şirkətlərindən biri olan BP-nin humanitar, o cümlədən təhsil, səhiyyə, ətraf mühitin mühafizəsi sahələrində də əməkdaşlıq etməkdə maraqlı olduğunu bildirdi.

Böyük Britaniya Baş Nazirinin Azərbaycan üzrə ticarət elçisi ölkəmizin inkişafında Birinci vitse-prezident Mehriban Əliyevanın xüsusi rolu olduğunu vurğuladı.

## Dövlət xüsusi qayğıya ehtiyacı olan uşaqların sosial müdafiəsinin gücləndirilməsinə böyük diqqət göstərir





Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva oktyabrın 31-də Bakının Sabunçu rayonunun Pirşağı qəsəbəsindəki 10 saylı sanatoriya tipli internat məktəbində əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub.

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyeva internat məktəbinin təmirdən əvvəlki və sonrakı vəziyyətini əks etdirən fotostendə baxdı.

Təhsil naziri Ceyhun Bayramov Birinci vitse-prezident Mehriban Əliyevaya məlumat verdi ki, 10 saylı sanatoriya tipli internat məktəbi 1961-ci ildən fəaliyyət göstərir. Binada sonuncu dəfə əsaslı təmir işləri 2005-ci ildə aparılıb. Mövcud vəziyyət nəzərə alınaraq Heydər Əliyev Fondunun təşəbbüsü ilə binada 2018-ci ildə Təhsil Nazirliyi tərəfindən əsaslı təmir və tikinti işlərinə başlanılıb.





Sanatoriya tipli internat məktəbi tədris, yataqxana və istirahət-dərs hazırlığı korpuslarından ibarətdir. Tədris korpusunda müasir avadanlıqla təchiz edilmiş fizika, kimya, biologiya laboratoriyaları, 2 informatika otağı, 2 texnologiya otağı və sinif otaqları fəaliyyət göstərir. Yeni tikilmiş 320 nəfərlik akt zalı, idman zalı və 320 yerlik yeməkxana korpusu da müvafiq avadanlıqla təchiz olunub.

Qeyd edildi ki, hazırda internat məktəbində Azərbaycan və rus bölmələrində iki növbədə 746 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 97 pedaqoji heyət məşğul olur.

Azərbaycanda xüsusi qayğıya ehtiyacı olan uşaqların sosial müdafiəsinin gücləndirilməsi, onların təlim-tərbiyəsinin yüksək səviyyədə təşkili işinə dövlət tərəfindən böyük diqqət göstərilir. Azərbaycan dövlətinin bu istiqamətdə atdığı addımlara Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da olduqca böyük töhfələr verir. Fondun təşəbbüsü ilə bu təhsil müəssisəsinin əsaslı şəkildə yenidən qurulması bunu bir daha göstərir.

## Birinci vitse-prezident Mehriban Əliyeva Nərimanov rayonundakı 64 saylı körpələr evi-uşaq bağçasında yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olub



Oktyabrın 31-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Nərimanov rayonundakı 64 saylı körpələr evi-uşaq bağçasında həyata keçirilən əsaslı təmir və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olub.

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezidentə məlumat verilib ki, körpələr evi-uşaq bağçası 1963-cü ildə inşa olunub. Binada 2018-ci ildə Heydər Əliyev Fondu tərəfindən əsaslı təmir işləri həyata keçirilib. 2 mərtəbə və 2 korpusdan ibarət körpələr evi-uşaq bağçası 95 yerlikdir və 5 qrupdan ibarətdir. Binada təmir işləri zamanı infrastruktur yenidən qurulub, həyətyanı sahə abadlaşdırılıb, yaşıllıq salınıb. Uşaqların əylənməsi məqsədilə bağçanın həyətində müxtəlif yelləncəklər qurulub.





## Autizm sindromlu uşaqlar üçün reabilitasiya Mərkəzi Heydər Əliyev Fondunun dəstəyi ilə fəaliyyətdədir

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva oktyabrın 31-də paytaxtın Nərimanov rayonundakı “Birgə və Sağlam” İctimai Birliyinin nəzdində fəaliyyət göstərən Autizm sindromlu uşaqlar üçün reabilitasiya Mərkəzini ziyarət edib. Autizm sindromlu uşaqlar üçün reabilitasiya Mərkəzi Heydər Əliyev Fondunun dəstəyi ilə fəaliyyət göstərir.

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyeva uşaqlarla görüşdü, onların yaşayış şəraiti, göstərilən sosial və reabilitasiyayönümlü xidmətlərlə tanış oldu.

İctimai Birliyin sədri Aytən Eynalova məlumat verdi ki, burada autizm sindromlu uşaqların qayğısı ilə müvafiq təlim keçən mütəxəssislər məşğul olur.







“Birgə və Sağlam” İctimai Birliyi Azərbaycanda autizmspektr pozğunluqları olan uşaqlar və onların ailələri ilə işləyən qeyri-hökumət təşkilatıdır. 2013-cü ildən fəaliyyət göstərən təşkilatın məqsədi autizmspektr pozğunluqları ilə üzləşən uşaqlara zəruri ünsiyyət və həyat bacarıqlarını öyrətmək, onları müstəqil həyata hazırlamaq üzrə ailələrlə işləmək, ölkə və beynəlxalq səviyyədə autizm sahəsində maarifləndirici layihələr həyata keçirməkdir.

Qeyd olundu ki, hazırda Mərkəzdə 70-dək uşaq intensiv terapiyadan faydalanır. Autizmli uşaqlar öz istedadlarını nümayiş etdirdilər.

Mərkəzin yetirməsi olan, hazırda Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin ikinci kursunda təhsil alan Əlisahib Bayramov da öz məharətini göstərdi.

Uşaqlar Birinci vitse-prezidentə əl işlərindən ibarət hədiyyələr təqdim etdilər.

## Bakı UNESKO-nun “Yaradıcı şəhərlər şəbəkəsi” siyahısına daxil edilib

AZƏRTAC xəbər verir ki, Mədəniyyət və Xarici İşlər nazirliklərinin, Azərbaycan Respublikasının UNESKO yanındakı daimi nümayəndəliyinin səyləri nəticəsində Bakı şəhəri şəbəkənin “dizayn” tematikası üzrə siyahıya salınıb.

Bu il 31 oktyabr - Dünya Şəhərlər Günü münasibətilə UNESKO 48 ölkədən 66 şəhəri “yaradıcı şəhərlər şəbəkəsi”nə daxil edib.

Bu şəbəkə inkişafını yaradıcılıq - musiqi, sənət və sənətkarlıq, dizayn, kino, ədəbiyyat, rəqəmsal incəsənət və qastronomiya üzərində quran şəhərləri bir araya gətirir. Şəbəkə innovasiya və yaradıcılığı yeni şəhər strategiyasının davamlı və daha inklüziv inkişafının əsas faktoru hesab edir.



UNESKO-nun yaradıcı şəhərləri mədəniyyəti inkişaf strategiyalarının əsas qayəsi kimi götürərək ən yaxşı təcrübələrini bölüşürlər. 2004-cü ildən bəri şəbəkə üzvlərinin yaradıcı potensialı yeddi tematika üzrə müəyyən olunur: incəsənət və sənətkarlıq, xalq sənəti, dizayn, kinematoqrafiya, qastronomiya, ədəbiyyat, media və musiqi. Hazırda şəbəkəyə 246 şəhər daxildir.

Qeyd edək ki, Şəki şəhəri “sənət və sənətkarlıq” tematikası üzrə 2017-ci ildən şəbəkənin üzvüdür.

# Ankarada Azərbaycan, Türkiyə və Gürcüstanın liderliyi ilə gerçəkləşən layihələr yüksək dəyərləndirilib

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Gürcüstanın Baş Naziri Giorgi Qaxariya Ankarada birgə mətbuat konfransı keçiriblər.



AZƏRTAC xəbər verir ki, konfransda Türkiyə-Gürcüstan münasibətlərinin dinamik inkişafı yüksək dəyərləndirilib. Qeyd olunub ki, iki ölkə arasında strateji əməkdaşlıq yalnız iqtisadi sferanı deyil, bütün sahələri əhatə edir. Azərbaycan, Türkiyə və Gürcüstanın liderliyi ilə Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum və Trans-Anadolu (TANAP) qaz boru kəmərlərinin gerçəkləşməsinin beynəlxalq əhəmiyyətli iqtisadi nailiyyət olduğu diqqətə çatdırılıb.

Prezident Rəcəb Tayyib Ərdoğan bildirib ki, Türkiyə Gürcüstanın siyasi müstəqilliyini və ərazi bütövlüyünü bundan sonra da dəstəkləyəcək. Tərəflər terrorla mübarizədə ortaq mövqe sərgiləyirlər.

Baş Nazir Giorgi Qaxariya Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı Gürcüstana səfərə dəvət edib.

# Şahbuz rayonunda icbari tibbi sığortanın tətbiqinə başlanmışdır

Oktyabrın 31-də Şahbuz rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı tədbir keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə iştirak edib.



Naxçıvan Muxtar Respublikasının Səhiyyə naziri Niyazi Novruzov çıxış edərək deyib ki, muxtar respublikada səhiyyənin inkişafı istiqamətində həyata keçirilən tədbirlər əhaliyə göstərilən tibbi xidmətin səviyyəsini xeyli yüksəldib. Muxtar respublikanın bütün yaşayış məntəqələrində aparılan quruculuq işləri səhiyyə müəssisələrini də əhatə edib. Mərkəzi və sahə xəstəxanaları, həkim ambulatoriyaları, feldşer-mama məntəqələri müasir tələblər səviyyəsində qurulub, yeni tibbi avadanlıqlarla təchiz ediliblər. Səhiyyə islahatlarının ən mühüm cəhətlərindən biri də muxtar respublikada icbari tibbi sığortanın tətbiqidir. Bu ilin iyul ayından etibarən Şahbuz rayonunda icbari tibbi sığortaya keçidlə bağlı işlərə başlanılıb.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin direktoru Samiq Sadıxov deyib ki, muxtar respublikada icbari tibbi sığortanın tətbiqi səhiyyə xidmətinin keyfiyyətinin daha da artırılmasına töhfə verir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq fərman və sərəncamlarına əsasən muxtar respublikada icbari tibbi sığortanın tətbiqi təkamül yolu ilə aparılıb, tələb olunan kadr, avadanlıq, təlim, resurs və infrastruktur təminatı uğurla həyata keçirilib. Artıq muxtar respublikanın Sədərək, Şərur və Kəngərli rayonlarında bu iş başa çatdırılıb. 2019-cu ilin ötən 9 ayında həmin rayonlarda yaşayan əhali tərəfindən, ümumilikdə, tibb müəssisələrinə 14 min 346 müraciət edilib. Müraciət edənlərə 35 min 605 adda tibbi xidmət göstərilib.

Tibb bacısı Tərlan Kazımova minnətdarlıq edərək deyib ki, muxtar respublikada səhiyyə sahəsinə göstərilən qayğı göz önündədir. Bu gün Şahbuz rayonunda icbari tibbi sığortanın tətbiqi rayon əhalisinə nümunəvi tibbi xidmət göstərməyə imkan verəcək.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Şahbuz rayonunda icbari tibbi sığortanın tətbiqi münasibətilə rayon əhalisini və tədbir iştirakçılarını təbrik edib, Ümummilli Lider Heydər Əliyevin "Azərbaycan Respublikasının ən qiymətli sərvəti onun insanlarıdır", - fikrini xatırladaraq deyib: "İnsanların sağlamlığının qorunması ölkədə səhiyyə sisteminin müasir tələblər səviyyəsində qurulmasını zəruri edir. Bu gün Azərbaycanda müasir tibbi avadanlıqlarla təmin olunmuş səhiyyə müəssisələri istifadəyə verilir, kadr hazırlığı diqqətdə saxlanılır, həkimlər ölkəmizdə və xaricdə təkmilləşdirmə kurslarında da iştirak edirlər. Görülən işlərin nəticəsidir ki, Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında səhiyyə xidmətinin səviyyəsi yüksəlmişdir".

Ali Məclis Sədri deyib: "Əhaliyə keyfiyyətli səhiyyə xidməti göstərilməsinin müasir yolu icbari tibbi sığortanın tətbiqidir. Lakin lazımi səhiyyə infrastrukturu yaratmadan bu işi həyata keçirmək olmaz. Ona görə də muxtar respublikada bütün səhiyyə müəssisələri, rayon mərkəzi xəstəxanaları, sahə xəstəxanaları, həkim ambulatoriyaları və feldşer mama məntəqələri yenidən qurulmuş, müasir tibbi avadanlıqlarla təmin olunmuşdur. Eyni zamanda muxtar respublikada həkim hazırlığı işi də uğurla həyata keçirilir. Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsi və Naxçıvan Tibb Kolleci muxtar respublikanın səhiyyə müəssisələrinin həkim və orta tibb işçilərinə olan tələbatını ödəyir. Müasir səhiyyə müəssisələrinin qurulması və həkim hazırlığı işin bir tərəfidirsə, digər əsas məsələ isə yaradılan şəraitdən səmərəli istifadə etmək və səhiyyə xidmətini günün tələbləri səviyyəsində qurmaqdır. Nəzərə almaq lazımdır ki, tibbi avadanlıqlardan düzgün istifadə diaqnoz və müayinənin əsasını təşkil edir. Ona görə də həkim və tibb işçiləri alınan avadanlıqları öyrənməli, onları düzgün tətbiq etməli, əhaliyə nümunəvi səhiyyə xidməti göstərilməlidir.

"İcbari tibbi sığortanın tətbiqi ilə Şahbuz Rayon Mərkəzi Xəstəxanasının həkim və tibb işçilərinin əməkhaqları 50 faiz artırılacaqdır. Yeni tibbi avadanlıqların alınması və əməkhaqların artırılması kollektiv qarşısında da bir vəzifə qoyur: o da sakinlərə keyfiyyətli səhiyyə xidməti göstərməkdən ibarətdir", - deyən Ali Məclisin Sədri kollektivə fəaliyyətlərində uğurlar arzulayıb, icbari tibbi sığortanın tətbiqi sahəsində görülən işlərlə maraqlanıb.

Məlumat verilib ki, icbari tibbi sığortanın tətbiqi məqsədi ilə Şahbuz Rayon Mərkəzi Xəstəxanasında yenidənqurma işləri aparılıb, xəstəxananın təcili tibbi yardım, laboratoriya və doğum şöbəsi yenidən təşkil edilib, ilkin səhiyyə xidməti müasir tələblərə uyğunlaşdırılaraq qəbul həkiminin fəaliyyəti təmin olunub. Poliklinika şöbəsində, burun-qulaq-boğaz, oftalmoloji və stomatoloji kabinələrdə, Təcili və təxirəsalınmaz tibbi yardım şöbəsində, laboratoriyada, ginekoloji və doğuş bölməsində 52 adda yeni tibbi avadanlıq və ləvazimatlar quraşdırılıb, palatalar mərkəzi oksigen sistemi ilə təmin edilib.

* * *

Oktyabrın 31-də Şahbuz rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı müşavirə keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək deyib ki, səhiyyənin inkişafı müasir infrastruktur təminatı və kadr hazırlığından başlanır. Ötən əsrin 90-cı illərinin acı nəticələri muxtar respublikanın səhiyyə sistemində də çətinliklərin yaranmasına səbəb olmuşdur. Lakin ötən dövrdə muxtar respublikada səhiyyə müəssisələrinin yenidən qurulması, müasir tibbi avadanlıqların alınması və kadr hazırlığı sahəsində görülən işlər öz nəticəsini vermişdir. Artıq muxtar respublikada infeksion xəstəliklərin, eləcə də ana və uşaq ölümlərinin qarşısı alınmışdır. Səhiyyənin inkişafı sahəsində görülən işlər muxtar respublikada icbari tibbi sığortanın uğurla tətbiq olunmasına imkan verir.

Naxçıvan Muxtar Respublikasının Səhiyyə naziri Niyazi Novruzov, Naxçıvan Muxtar Respublikası Baş Nazirinin müavini-maliyyə naziri Səbuhi Məmmədov, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin direktoru Samiq Sadıxov və Naxçıvan Muxtar Respublikasının Baş Naziri Əlövsət Baxşıyev aidiyyəti üzrə məlumat veriblər.

Ali Məclisin Sədri noyabrın 1-dən etibarən Şahbuz rayonunda icbari tibbi sığortanın tətbiq olunması, Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən muxtar respublikada icbari tibbi sığortanın tətbiqi sahəsində görülən işlərin birgə nəzarətdə saxlanılması, monitorinqlərin aparılması, bu sahədəki yeniliklərin öyrənilərək tətbiq edilməsi, Ordubad, Culfa və Babək rayonlarında da icbari tibbi sığortanın tətbiqi sahəsində işlərə başlanılması və qısa müddətdə başa çatdırılması barədə aidiyyəti qurumlara tapşırıqlar verib.

Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Rəfael Babayev icbari tibbi sığortanın tətbiqi və səhiyyə xidmətinin səviyyəsinin yüksəldilməsi sahəsində görülən işlərə görə rayon sakinləri adından Ali Məclisin Sədrinə minnətdarlıq edib.

# Moskvada dahi Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin heykəlinin açılışı olub









Oktyabrın 30-da Heydər Əliyev Fondunun dəstəyi ilə Moskvadakı M.İ.Rudomino adına Ümumrusiya Dövlət Xarici Ədəbiyyat Kitabxanasının Atriumunda dahi Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin heykəli açılıb.

AZƏRTAC xəbər verir ki, Nəsiminin 650 illik yubileyi münasibətilə keçirilən silsilə tədbirlər çərçivəsində ucaldılan abidənin açılış mərasimində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Rusiyanın Mədəniyyət nazirinin müavini Pavel Stepanov, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu, M.İ.Rudomino adına Ümumrusiya Xarici Ədəbiyyat Kitabxanasının baş direktoru Mixail Şepel çıxış ediblər.

B.Şyukin adına Teatr İnstitutunun azərbaycanlı tələbələri İmadəddin Nəsiminin şeirlərini səsləndiriblər.

Abidənin müəllifi Rusiya Rəssamlıq Akademiyasının akademiki, heykəltəraş Aydın Zeynalovdur.

Ümumrusiya Dövlət Xarici Ədəbiyyat Kitabxanasının Atriumu 1994-cü ildə yaradılıb. Hazırda burada dünyanın tanınmış şair, ədib və mütəfəkkirlərinin 30-dan çox heykəli var. 2012-ci ildə Heydər Əliyev Fondunun dəstəyi ilə Atriumda Azərbaycan ədibi və filosofu Mirzə Fətəli Axundovun da abidəsi ucaldılıb.

* * *

Həmin gün Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Botanika bağında Rusiya Azərbaycanlı Gənclər Birliyinin (RAGB) üzvləri ilə görüşüb. Görüş çərçivəsində "Nar" adlı rəsm sərgisi təşkil olunub, Botanika bağına iki nar tingi hədiyyə edilib.

Tədbir gənclərin konsert proqramı ilə davam edib.

# İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə Bərdədə 8 min ağac əkiləcək

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın dahi şair və mütəfəkkir İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə respublikamızda bir gündə 650 min ağacın əkilməsi təşəbbüsünü rəğbətlə qarşılayan bərdəlilər bu genişmiqyaslı kampaniyaya ciddi hazırlaşırlar. Kampaniya çərçivəsində rayon ərazisində bir gündə 8 min ağac tinginin əkilməsi nəzərdə tutulur.



Hazırlıq işlərinin gedişi barədə məlumat verən Bərdə Rayon İcra Hakimiyyətinin nümayəndəsi Damət Ələkbərov AZƏRTAC-a bildirib ki, bu xeyirxah və nəcib təşəbbüslə əlaqədar respublikamızın hər yerində olduğu kimi, Bərdə rayonunda da hazırlıq işləri aparılır. Bunun üçün Mingəçevir-Bəhrəmtəpə magistral yolunun kənarında və Mirzəcəfərli, Alpout, Nazırlı, Güloğullar kəndləri ərazisində yerlər ayrılıb, torpaq-iqlim şəraitinə uyğun ağaclar əkiləcək. Hazırda ağacların əkilməsi üçün ayrılmış sahələrdə təmizlik işləri görülür, çalalar qazılır.

Həmsöhbət olduğumuz Cəyirli kənd sakini Şahin Qasımov ağac əkmək, yol çəkmək, körpü salmağın dədə-babadan ən savab işlər sayıldığını bildirib: "Əkilən ağaclar, salınan yaşıllıqlar həm ətraf mühiti gözəlləşdirir, həm də gələcək nəsillərin sağlamlığı baxımından əhəmiyyətlidir. Odur ki, biz bərdəlilər Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın bu təşəbbüsünü alqışlayırıq. Görürsünüz, necə həvəslə ağacəkməyə hazırlaşırıq. Ağac əkiləcək sahədə təmizlik işləri aparır, çalaları indidən qazırıq ki, noyabrda tinglər gələndə işimiz asan olsun. Ağac əkini zamanı da bu böyük kampaniyada həvəslə iştirak edəcək, ölkəmizin, rayonumuzun yaşıllaşdırılmasına öz töhfəmizi verəcəyik".

## Üç qanun layihəsinə Hesablama Palatasının rəyləri təsdiqlənib

Hesablama Palatasının kollegiya iclasında "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında", "Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2020-ci il büdcəsi haqqında" və "İşsizlikdən sığorta fondunun 2020-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının qanun layihələrinə palatanın rəyləri ətraflı müzakirə olunaraq təsdiq edilib.

Palatanın mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, kollegiyada "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında", "Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2020-ci il büdcəsi haqqında" və "İşsizlikdən sığorta fondunun 2020-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının qanun layihələrinin Milli Məclisdə müzakirə edilməsi tövsiyə olunub.

Kollegiya iclasında həyata keçirilmiş dövlət büdcəsinin əsaslı vəsait qoyuluşundan "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə ayrılan vəsaitlərin istifadəsinə dair nəzarət tədbiri üzrə auditor hesabatı müzakirə olunub, kollegiya qərarının layihəsi müzakirə edilərək təsdiqlənib. Həmin qərarın icrasını təmin etmək məqsədilə aidiyyəti dövlət qurumlarına təqdimatın göndərilməsi və audit tədbirinin nəticələri barədə məlumatın Milli Məclisə təqdim olunması qərara alınıb.

İclasda, həmçinin Hesablama Palatasının İş planında nəzərdə tutulmuş nəzarət tədbiri ilə bağlı proqram təsdiq olunub.

## Atəşkəs rejimi 20 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə atəşkəs rejimini 20 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Noyemberyan rayonunun Şavarşavan kəndində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Azərbaycan Respublikasının Qazax rayonunun Qaymaqlı kəndində və adsız yüksəkliklərdə, Gədəbəy rayonunun Göyəli, Zamanlı kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Baş Qərvənd, Yusifcanlı, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

# Səfirlik "V.B.O.N" səhifəsinin guya milliyyətçi fəaliyyəti ilə bağlı müzakirələrlə əlaqədar bəyanat yayıb

Azərbaycanın Rusiyadakı səfirliyi "VKontakte" sosial şəbəkəsində yaradılmış "V.B.O.N" səhifəsi ətrafında yaranmış vəziyyətlə bağlı bəyanat yayıb.

Səfirlikdən AZƏRTAC-a daxil olan məktubda deyilir: "VKontakte" sosial şəbəkəsində yaradılmış "V.B.O.N" səhifəsinin guya milliyyətçi və hətta terrorçuluq fəaliyyəti ilə bağlı sosial şəbəkələrdə və mətbuatda qərəzli müzakirələrlə əlaqədar səfirlik bəyan edir ki, anti-Azərbaycan qüvvələrin bu kampaniyası Rusiya azərbaycanlılarını gözdən salmağa və millətlərarası münaqişənin, konkret olaraq, ruslarla azərbaycanlılar arasında münaqişənin qızışdırılmasına yönəldilib.

Baş verənlərin xronologiyası göstərir ki, bu kampaniyaya məhz Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu il oktyabrın 3-də "Valday" Beynəlxalq Diskussiya Klubunun Soçidə keçirilmiş XVI illik iclasının plenar sessiyasında, eləcə də MDB Dövlət Başçıları Şurasının 2019-cu il oktyabrın 11-də Aşqabadda keçirilmiş iclasında məlum çıxışlarından sonra start verilib. MDB Dövlət Başçıları Şurasının iclasında Azərbaycan Prezidenti İlham Əliyev Qaregin Njdeni misal gətirərək, faşizmin qəhrəmanlıq kimi qələmə verilməsinin və faşizm ardıcıllarının xatirəsinin əbədiləşdirilməsinin yolverilməzliyini qeyd edib.

Biz hamımız milliyyətçi əhvali-ruhiyyə və baxışların nəticələrinin, eləcə də bu nəticələrin dünya miqyaslı faciələrə gətirib çıxarmasının şahidiyik. Buna görə də çoxmillətli dövlətlər olan Azərbaycan və Rusiya bu cür təzahürlərə olduqca ehtiyatla yanaşır və onları kökündən kəsməyə çalışır. Bizim ölkələrdə milliyyətçi baxışlara yer yoxdur. Hər iki ölkədə müxtəlif millətlərin və konfessiyaların nümayəndələri yüzilliklərboyu sülh şəraitində dinc yaşayıblar.

Bu gün Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında münasibətlər strateji səviyyəyə qalxıb. Bütün sahələrdə əlaqələrimiz fəal inkişaf edir. Əlbəttə ki, bu, Rusiya-Azərbaycan münasibətlərinə xələl gətirməyə, rus və Azərbaycan xalqlarını küsdürməyə çalışan üçüncü qüvvələri razı salmır.

Rusiya Federasiyasının hüquq mühafizə orqanları artıq həmin qüvvələr barədə araşdırmaya başlayıb və biz də o qüvvələrin diqqətinə çatdırırıq ki, canfəşanlıqları əbəsdir. Tolerantlıq azərbaycanlıların və rusların həyat tərzidir. Biz bu kampaniyanın mahiyyətini anlaya biləcək və onun çox zərərli təsiri altına düşməyəcək qədər müdrikik. Onsuz da gərgin vəziyyəti daha da gərginləşdirməyə çalışan ekstremallara isə öz düşünülməmiş addımlarının nəticələri barədə düşünməyi məsləhət görürük.

Naməlum müəlliflərin sosial şəbəkələrdə yaydıqları ayrı-ayrı videolara gəldikdə isə hesab edirik ki, onların həqiqiliyi müvafiq hüquq mühafizə orqanları tərəfindən yoxlanılmalı, təqsirkarlar Rusiya qanunvericiliyi çərçivəsində cəzalarını almalıdırlar. Eyni zamanda, Rusiya cəmiyyətində guya azərbaycanlıların ruslara qarşı milli dözülməzliyinin olduğu fikrini formalaşdırmaq məqsədilə bu cür videoların yayılması təcrübəsini kəskin pisləyirik.

Səfirlik həmvətənlərimizi diqqətli olmağa, Rusiyada yaşayan azərbaycanlıların imicinə xələl gətirə, habelə Azərbaycana qarşı istifadə oluna biləcək hər hansı təxribatlara uymamağa çağırır".

# İlham Əliyevin növbəti siyasi qələbəsi

## Beynəlxalq Astronavtika Konqresinin yarıməsrlik fasilədən sonra yenidən Bakıda keçirilməsi haqqında qərar Azərbaycanın yüksələn nüfuzunun təzahürüdür

Əvvəli 1-ci səh.

Xatırladaq ki, məhz həmin mötəbər konqresin Bakıda keçirilməsindən 6 ay sonra Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə ölkəmizdə kosmik sənayenin əsasları qoyuldu və Azərbaycan mütəxəssisləri bu sahədə tədqiqatlara, kosmik cihazlar hazırlamağa başladılar. Sonradan o cihazlardan "Salyut" və "Soyuz" kimi peyklərdə istifadə olundu.

Bu uğurlu yolu davam etdirən cənab İlham Əliyev isə müstəqil Azərbaycanı dünyanın kosmik üzvü olan ölkələr sırasına çıxardı. Azərbaycanın müasir kosmik sənayesinin inkişafının keyfiyyətcə ikinci mərhələsinə dövlət başçısının 4 noyabr 2008-ci ildə ölkədə kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması haqqında imzaladığı sərəncamı ilə start verildi. 2013-cü ildə "Azerspace-1" telekommunikasiya peyki, 2014-ci ildə "Azersky" Yerin məsafədən müşahidəsi peyki, 2018-ci ildə isə "Azerspace-2" telekommunikasiya peyki orbitə çıxarılıb. Bu gün Azərbaycan dünyanın kosmik klubunun məhdud sayda olan üzvlərindən biridir. Oktyabrın 25-də Vaşinqtonda verilən qərar isə bu uğurların davamıdır.

### 68 ölkənin, 398 təşkilatın üzv olduğu federasiya, 6 mindən çox nümayəndə

Beləliklə, 3 ildən sonra Bakıda növbəti möhtəşəm konfrans keçiriləcək. 68 ölkəni təmsil edən 398 təşkilatın üzv olduğu həmin federasiya kosmik sahədə fəaliyyət göstərən ən mötəbər beynəlxalq təşkilatdır.

1950-ci ildən bəri fərqli ölkələrdə keçirilən Beynəlxalq Astronavtika Konqresi təşkilatın əsas tədbiridir. Bu konqres dünyanın kosmik sahədə aparıcı agentlikləri, elm mərkəzləri və beynəlxalq təşkilatlarının rəhbərləri, eləcə də məşhur alimlər, özəl sektordan olan yüksək səviyyəli peşəkarlar, gənc tədqiqatçılar və tələbələr də daxil olmaqla dünya kosmos ictimaiyyətinin 6000-dən çox nümayəndəsini bir araya gətirən qlobal platformadır. Konqres zamanı iştirakçılar kosmos sahəsinə aid olan aktual trendləri və ən son innovasiyaları izləmək fürsəti əldə edir.

Oktyabrın 29-da Prezident İlham Əliyev bu böyük uğurla əlaqədar olaraq "Azərkosmos" ASC-nin sədri Rəşad Nəbiyevi qəbul edib. Azərbaycana göstərilən həmin yüksək etimadı dəyərləndirən dövlət başçısı bunu böyük qələbə adlandırıb: "Bu konqres yeni, müasir texnologiyalar sahəsində dünya miqyasında ən mötəbər beynəlxalq tədbirdir. Növbəti konqresin Azərbaycanda keçirilməsi haqqında qərarın dəstəklənməsi, əlbəttə ki, ölkəmizin siyasi nüfuzunun təzahürüdür, Azərbaycana olan inamın nəticəsidir".

Prezident bildirdi ki, 2022-ci ildə - təxminən 50 ildən sonra müstəqil Azərbaycanda bu konqresin keçirilməsi böyük rəmzi məna daşıyır. O vaxt Azərbaycan müstəqil olmasa da, Ulu Öndər Heydər Əliyevin böyük səyləri nəticəsində keçmiş Sovet İttifaqında məhz Bakı Astronavtika Konqresinin məkanı kimi seçilib. İndi isə Azərbaycan müstəqil dövlət kimi bu böyük tədbirə evsahibliyi edəcək.

Son illər ərzində ölkəmizdə müasir texnologiyaları, kosmik sənaye sahələrində əldə edilmiş uğurları gənc müstəqil dövlət üçün böyük nailiyyət hesab edən cənab İlham Əliyev vurğuladı ki, Azərbaycan artıq bir neçə ildir kosmik klubun üzvüdür və ölkəmizdə müasir texnologiyaların inkişafı qarşıda duran əsas məsələlərdən biridir. Çünki bu gün dünyanın inkişafı müasir texnologiyaların imkanından asılıdır: "O ölkələr ki bu texnologiyaları icad edir, yaxud da ki onları tətbiq edir, o ölkələr daim uğur qazanacaqlar. XXI əsr texnoloji mübarizə əsridir və bizim kadr potensialımız, texniki imkanlarımız buna hazır olmalıdır. Məhz buna görə Azərbaycan yüksək texnologiyaları inkişaf etdirən ölkələrdən biridir. Bundan sonra da kadr hazırlığı, texnoloji inkişaf, müasir texnologiyaların Azərbaycana gətirilməsi istiqamətində əlavə addımlar atılacaq".

### Nədən məhz Bakı?

Öncə onu vurğulayaq ki, bu konqresin Bakıda keçirilməsi ilə bağlı verilmiş qərar ölkəmizdə mövcud olan siyasi və iqtisadi sabitliklə bağlıdır. Eyni zamanda ölkələrin götürdüyü öhdəliklərin 3 ildən sonra yerinə yetirilməsi əsas şərtlərdən biridir. Digər tərəfdən, ölkəmizdə yaradılmış infrastrukturun xüsusi rolu, önəmi olub.

Cənab İlham Əliyev bu uğuru dəyərləndirərkən bildirdi ki, konqresin keçirilməsi üçün 4 şəhər səy göstərirdi. Beynəlxalq astronavtika aləmi bu dörd şəhərdən məhz Bakını seçib: "Yəni həm təcrübə, həm də əhali baxımından Hindistanla Braziliya Azərbaycanla müqayisəedilməz səviyyədədir. Ancaq bu mübarizədə qələbə əldə etməyimiz, əlbəttə ki, bizim nüfuzumuzdan xəbər verir. Bizə inanırlar, bizim siyasətimizə böyük dəstək göstərilir, Azərbaycanda gedən proseslərə dünya miqyasında böyük rəğbət var. Təkcə bu ayın ərzində həm Türk Şurasına, eyni zamanda, dünyanın BMT-dən sonra ən böyük təşkilatına - Qoşulmama Hərəkatına sədrliyimiz bunun əyani sübutudur. Azərbaycanla birlikdə 120 ölkə yekdil qərarla Azərbaycanı Qoşulmama Hərəkatına sədr seçibdir və bu, doğrudan da böyük tarixi nailiyyətdir. Astronavtika Konqresinin 2022-ci ildə Bakıda keçirilməsi növbəti böyük qələbəmizdir. Mən bu hadisəni çox önəmli siyasi qələbə kimi qəbul edirəm".

Bu gün Azərbaycan həqiqətən genişmiqyaslı forum, konfrans və simpoziumlar, mədəniyyətlərarası dialoqlar, eləcə də mötəbər qurumların tədbirlərinin yüksək səviyyədə keçirilməsi ilə beynəlxalq aləmdə müsbət imicə sahibdir. Bakının gündən-günə müasirləşməsi, ultra-modern infrastrukturun qurulması sayəsində Azərbaycan regionda biznes tədbirlərin keçirildiyi unikal mərkəzə çevrilib. Həmçinin regionda cərəyan edən hadisələr fonunda ölkəmizdə bərqərar olan sabitlik beynəlxalq tədbirlərin Azərbaycanda keçirilməsinə mühüm zəmin yaradır. Bu baxımdan yarıməsrlik sükutdan sonra Beynəlxalq Astronavtika Konqresinə MDB məkanında yenə də Bakı şəhərinin evsahibliyi etməsi heç də təsadüfi hal deyil.

Onu da vurğulayaq ki, Bakı şəhərinin namizədliyinin uğur qazanmasında bir sıra qurumların - Xarici İşlər Nazirliyi, Dövlət Turizm Agentliyi və Azərbaycan Konqres Bürosu, Heydər Əliyev Mərkəzi və Bakı Konqres Mərkəzinin məsuliyyətli və gərgin əməyinin xüsusi payı var. Namizədliyinin elan edildiyi ilk gündən etibarən aparılan uğurlu təbliğat işi, şəhərimizin turizm və təşkilatçılıq imkanlarının peşəkar şəkildə təqdimatı yekunda Bakının digər namizəd şəhərlər üzərində qələbəsi ilə nəticələnib.

### Prezident təşkilati işlərin aparılması ilə bağlı tapşırıqlarını verdi

2022-ci ildə paytaxtımızda "Qlobal çağırışlar və imkanlar: kosmosa şans verək" mövzusunda konqresin keçirilməsi bu sahədən olan şirkət və təşkilatlarla daha sıx əlaqələrin qurulması, ölkəmizə kosmik texnologiyaların transferi prosesinin sürətləndirilməsi, eləcə də Azərbaycanın beynəlxalq arenada etibarlı tərəfdaş nüfuzunun daha da möhkəmlənməsinə əhəmiyyətli töhfə verəcək. 6000-dən çox nümayəndəni bir araya toplayan qlobal konqresə evsahibliyi edəcək Azərbaycanın uğurları sırasına daha biri əlavə olunacaq.

Prezident İlham Əliyev konqresin keçirilməsi ilə bağlı tapşırıqlarını verərək dedi ki, növbəti 2-3 il ərzində böyük təşkilati işlər aparılmalıdır: "Biz təqribən 6-7 min xarici qonaq gözləyirik. Bu qonaqlar dünyanın texnoloji gündəliyini müəyyən edən qurumların rəhbərləridir, nümayəndələridir. Ona görə vaxt gələndə konqresin yüksək səviyyədə keçirilməsi üçün Təşkilat Komitəsi yaradılacaq və əlbəttə ki, əsas hazırlıq işlərini "Azərkosmos" öz üzərinə götürəcək. Beləliklə, biz növbəti böyük uğura imza atdıq".

Dövlət başçısı tapşırdı ki, konqresdə iştirak edəcək dünyanın aparıcı biznes strukturlarının rəhbərlərinin bu müddətdə Azərbaycan haqqında geniş məlumata malik olmaları ilə bağlı işlər görülməlidir. Konqresə hazırlıq dövrü elə olmalıdır ki, ölkəmizə gələcək qonaqlar artıq Azərbaycanla müəyyən müxtəlif sahələrdə əməkdaşlıq etməyə hazır olsunlar.

Cənab İlham Əliyev konqresdən sonrakı dövrdə də görüləcək işlərin istiqamətini müəyyənləşdirdi: "Konqresin keçirilməsi çox önəmli hadisədir. Ancaq Konqresdən sonrakı dövr də az əhəmiyyət daşımır. Çünki konqresdən sonrakı dövr Azərbaycanda yeni texnoloji inkişaf dövrü olmalıdır. Əlbəttə ki, genişmiqyaslı beynəlxalq tədbirlərin keçirilməsi istiqamətində son illər ərzində əldə edilmiş təcrübə bizə imkan verəcək ki, konqres ən yüksək səviyyədə keçirilsin".

Dövlət başçısı əminliklə vurğuladı ki, konqres Azərbaycanda ən yüksək səviyyədə keçiriləcək, minlərlə xarici qonaq ölkəmizə səfər edəcək. O qonaqlar ki onlar bu gün dünyanın texnoloji gündəliyini müəyyən edir. Əlbəttə ki, bu həm Azərbaycan üçün böyük şərəfdir, eyni zamanda, böyük məsuliyyət və bununla bərabər böyük fürsətdir. Ölkəmiz bu konqresin Azərbaycanda keçirilməsindən çox böyük dividendlər əldə etməlidir. O mənada ki beynəlxalq əməkdaşlıq daha da geniş vüsət almalıdır.

Bütün bu uğurlar Prezident İlham Əliyevin ölkəmizdə kosmik sənayenin inkişafına göstərdiyi xüsusi diqqət və qayğının əyani göstəricisidir desək, yanılmarıq. 3 il sonra Bakıda keçiriləcək konqres ölkəmizin tarixi-mədəni ənənələrini, multikultural dəyərlərini və turizm potensialını dünyaya nümayiş etdirməklə bərabər, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması baxımından da böyük əhəmiyyət daşıyır.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Prezident kiçik və orta sahibkarlara dəstəyini davam etdirir

Əvvəli 1-ci səh.

Cari ilin 9 ayında qeyri-neft sektorunda 3,5, kənd təsərrüfatında 7 faizdən çox artım qeydə alınıb. Qeyri-neft sənayesində isə bu rəqəm 15 faizdən çoxdur. Ən mühüm faktorlardan biri də iqtisadiyyatın 85 faizinin özəl sektorda formalaşmasıdır.

Dövlət başçısı aparılan islahatlar sayəsində əldə edilən uğurları yüksək qiymətləndirməklə yanaşı, bu sahədə neqativ halların da olduğunu dəfələrlə vurğulamışdır. Prezident İlham Əliyev oktyabrın 23-də Mikayıl Cabbarovu yeni vəzifəyə - İqtisadiyyat naziri təyin olunması ilə bağlı qəbul edərkən bu sahədə olan nöqsanları bir daha qeyd etdi: "Biz çox yaxşı bilirik ki, inkişaf etmiş ölkələrdə ümumi daxili məhsulda əsas rolu kiçik və orta sahibkarlar oynayır. Bizdə isə hələ ki belə deyil. Biz də çalışmalıyıq elə bir şərait yaradaq ki, hər bir istedadlı insan, biznesə meyilli, həvəsi olan hər bir insan bizneslə məşğul ola bilsin, məmur təzyiqindən, müdaxiləsindən azad olsun. Sahibkarlara yönəlmiş o çirkin əllər kəsilsin. Bəzi hallarda dövlət məmurları, yerli icra orqanlarının rəhbərləri, nümayəndələri imkan vermirlər, xüsusilə bölgələrdə... Eyni zamanda, haqsız rəqabət, bu da bizim üçün böyük yaradır. Buna təkan verən dövlət məmurlarıdır, hansıların ki, biznes maraqları var. Onlar öz imkanlarından istifadə edərək rəqibləri sıradan çıxarır, bəzi hallarda şərləyirlər... Biz sahibkarlara nəfəs verməliyik ki, onlar rahat işləsinlər. Vergidən başqa heç bir ödəniş ola bilməz".

Sözsüz ki, ölkə rəhbərinin qəti mövqeyi sayəsində özəl sektora məmur müdaxiləsinə son qoyulacaq, bu sektor daha da inkişaf edəcək.

Qeyd edilən nöqsanlarla yanaşı, dövlət bugünə kimi sahibkarlığın inkişafı üçün hər cür dəstək göstərib. Onlara güzəştli şərtlərlə kredit verilib, aqrar sektorda çalışan sahibkarlar isə torpaq vergisindən savayı, bütün növ vergilərdən azad edilib. Bununla yanaşı, fermerlərə istifadə etdikləri yanacaq, sürtkü yağlarına görə subsidiya verilir, güzəştli şərtlərlə toxum, müxtəlif meyvə tingləri, damazlıq heyvanlar satılır. Bunun sayəsində hazırda kənd təsərrüfatı məhsullarının ixracda çəkisi ildən-ilə artır.

Cari ilin 9 ayında sahibkarlığın inkişafını genişləndirmək məqsədilə İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu tərəfindən müvəkkil kredit təşkilatları vasitəsilə 887 sahibkara geri qaytarılan vəsaitlər hesabına 130 milyon manat, o cümlədən 857 kiçik və orta həcmli layihəyə 24 milyon manat güzəştli kredit verilib. Bu kreditlərin 74 faizi aqrar sektorun, 24 faizi sənaye istehsalı və digər sahələrin, 66 faizi regionların, 34 faizi Bakı qəsəbələrinin payına düşür. Cari ilin 9 ayı ərzində fondun güzəştli kreditlərindən istifadə etməklə yaradılan 19 müəssisə istifadəyə verilib.

Eyni zamanda, Sahibkarlığın İnkişafı Fondu tərəfindən 400 hektardan çox sahədə müasir istixana və 9,6 min hektar ərazidə intensiv bağçılıq təsərrüfatlarının yaradılmasına 313 milyon manat, ümumi tutumu 353 min ton olan logistik mərkəzlərin təşkilinə 180 milyon manat güzəştli kredit verilib.

Ölkənin aqrar sektordakı iqtisadi imkanlarından daha səmərəli istifadə etmək məqsədilə 33 rayonda 262 min hektar ərazidə ümumi dəyəri 2,4 milyard manat olan 51 aqropark və iri fermer təsərrüfatı yaradılır. Ümumi dəyəri 764 milyon manat olan 27 aqropark və iri fermer təsərrüfatlarının yaradılmasına dövlət tərəfindən 192 milyon manat güzəştli kredit ayrılıb. Bundan başqa, 23 aqropark və iri fermer təsərrüfatı üzrə ümumi dəyəri 759 milyon manat olan 45 layihəyə investisiya təşviqi sənədi verilib. İnvestisiya təşviqi sənədi hesabına qənaət olunmuş 25,2 milyon manat vəsait layihələrin icrasına yönəldilib. Aqroparklardan 28-i istifadəyə verilib, ilin sonunadək daha 5-nin istifadəyə verilməsi gözlənilir.

Dövlət başçısının özəl sektora məmur müdaxiləsinə son qoyulması ilə bağlı verdiyi göstərişlərdən sonra bu sektor daha da inkişaf edəcək, məhsul istehsalında sahibkarların payı ildən-ilə artacaq. Xüsusilə iqtisadiyyatın aparıcı sahəsi olan kiçik və orta sahibkarlığın dövlət tərəfindən himayə edilməsi ölkənin inkişafında mühüm rol oynayacaq. Prezidentin qeyd etdiyi kimi, bütün dünyada ümumi daxili məhsulda əsas rolu kiçik və orta sahibkarlar oynayır. Bu sahənin inkişafı ölkənin inkişafı deməkdir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Mühüm diplomatik uğur

## Qoşulmama Hərəkatının Bakı Zirvə Görüşündə Ermənistan işğalçı dövlət kimi tanındı

Qoşulmama Hərəkatına (QH) üzv ölkələrin dövlət və hökumət başçılarının Bakıda keçirilən XVIII Zirvə Görüşü Azərbaycanın olduqca mühüm beynəlxalq siyasi uğuru kimi tarixə düşdü. Bu Zirvə görüşü ölkəmizdə müstəqillik illərində keçirilən ən böyük siyasi tədbir olmaqla yanaşı, həm də Azərbaycanın milli maraqlarının qlobal miqyasda dəstəklənməsi ilə yadda qaldı.

### Hərəkatın sədri Azərbaycan Prezidentidir

Öncə onu qeyd edək ki, Azərbaycan indiyədək onlarla mühüm siyasi tədbirə evsahibliyi edib. Özündə 120 üzv və 17 müşahidəçi dövləti, eyni zamanda 10 müşahidəçi beynəlxalq təşkilatı birləşdirən Qoşulmama Hərəkatının növbəti Zirvə görüşünün Azərbaycanda keçirilməsi ölkəmizə olan beynəlxalq etimadın göstəricisidir. Başqa bir etimad ondan ibarətdir ki, Azərbaycan növbəti 3 il ərzində Qoşulmama Hərəkatına rəhbərliyi həyata keçirəcək. Hərəkatın hazırkı sədri isə Prezident İlham Əliyevdir.

Üzv dövlətlərin sayı göstərir ki, QH BMT Baş Assambleyasından sonra dünya dövlətlərinin təmsil olunduğu ikinci ən böyük siyasi təsisatdır. Bu fakt həm də onu təsdiq edir ki, QH müasir beynəlxalq münasibətlərin tənzimlənməsində iştirak edən mühüm platformadır. Dünyadakı mövcud dövlətlərin üçdəikisini əhatə edən bir təsisatın toplantılarında müzakirə edilən məsələlər BMT Baş Assambleyasının gündəliyinin formalaşmasına böyük təsir göstərir. Bu həm də onu göstərir ki, əsas məqsədi beynəlxalq hüquqa hörmət əsasında dünyada sülh, təhlükəsizlik və inkişafa yardım etmək olan QH konkret tarixi kontekstdə yaranmasına baxmayaraq, müasir dünyada da öz aktuallığını itirməyib və bu qurum beynəlxalq münasibətlərin tənzimlənməsində iştirak edən mühüm çoxtərəfli mexanizmlərdən biridir. Respublikamız isə bu təşkilata ən son qoşulan üzvlərindəndir. Cəmi 8 il əvvəl Azərbaycan bu qlobal Hərəkatın üzvlüyünə qəbul olunub. Lakin bu qısa dövrdə ölkəmiz beynəlxalq hüququn norma və prinsiplərini qətiyyətlə müdafiə etməkdə böyük nüfuz qazanıb.

İki gün əvvəl Ağdaşda rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdə Prezident İlham Əliyev bu barədə deyib: "Təkcə bu ay ərzində Azərbaycan iki önəmli təşkilata sədrliyi öz üzərinə götürüb. Oktyabrın ortasında Azərbaycan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrliyi öz üzərinə götürüb və biz bir il bu təşkilata rəhbərlik edəcəyik. Oktyabrın 25-də isə dünyanın ikinci böyük təşkilatı olan Qoşulmama Hərəkatına sədrlik etməyə başlamışıq. Qoşulmama Hərəkatından daha böyük təşkilat Birləşmiş Millətlər Təşkilatıdır ki, onun da sədri olmur. Orada Təhlükəsizlik Şurasının sədri olur və özü də rotasiya qaydasında. Ona görə biz bu gün işlək vəziyyətdə sədrliyi olan ən böyük beynəlxalq təşkilata sədrlik edirik və bu sədrliyi 119 ölkənin dəstəyi ilə əldə etmişik. Bu, nəyi göstərir? Onu göstərir ki, dünya ictimaiyyəti bizi dəstəkləyir, bizə inanır, bizə rəğbətlə yanaşır və bizim mövqeyimizi müdafiə edir".

### 120 dövlətin mövqeyi: Ermənistan işğalçı dövlətdir

Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşü həm də Azərbaycanın qlobal siyasi-diplomatik uğuru kimi yadda qaldı. Belə ki, Zirvə görüşü Azərbaycanın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli mövqeyini daha da gücləndirdi. Qəbul edilmiş sənədlərdə dövlət və hökumət başçıları münaqişənin BMT Təhlükəsizlik Şurasının qətnamələrinə baxmayaraq, hələ də həll olunmamasından təəssüf hissi keçirdiklərini bildirir və onun Azərbaycanın suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərin toxunulmazlığı əsasında həll olunmasının vacibliyini vurğulayırlar.

Bununla yanaşı, Yekun Sənədə ilk dəfə olaraq olduqca mühüm yeni bənd daxil edilmişdir. Bu bənddə dövlət və hökumət başçıları güc yolu ilə ərazilərin zəbt edilməsinin yolverilməzliyini bildirdilər. "Bu xüsusda dövlət və hökumət başçıları güc yolu ilə ərazilərin zəbt edilməsinin yolverilməzliyini vurğuladılar və təsdiq etdilər ki, heç bir dövlət Azərbaycan Respublikasının ərazilərinin işğal edilməsi nəticəsində yaranmış vəziyyətin qanuniliyini tanımayacaq və bu ərazilərdə iqtisadi fəaliyyətlər də daxil olmaqla, bu cür vəziyyətin saxlanmasına hər hansı kömək göstərməyəcək" deyə həmin bənddə qeyd olunur.

Ən mühüm məqam isə odur ki, sənəddə bilavasitə işğalçı ifadəsindən istifadə olunur. Bu, Ermənistanın növbəti dəfə 120 dünya dövləti tərəfindən işğalçı kimi tanınması deməkdir.

Yekun Sənəddə dövlət və hökumət başçıları nasist hərəkatının, neonasizmin və Vaffen SS təşkilatının keçmiş üzvlərinin, onlara abidə və heykəllərin ucaldılması, nasist keçmişi, nasist hərəkatı və neonasizmin qəhrəmanlaşdırılması naminə ictimai nümayişlərin keçirilməsi, eləcə də anti-Hitler koalisiyasına qarşı döyüşmüş və nasist hərəkatının iştirakçıları ilə işbirliyi etmiş şəxslərin milli azadlıq hərəkatının iştirakçıları kimi qələmə verilməsi daxil olmaqla, hər hansı bir formada qəhrəmanlaşdırılmasını qınayırlar. Bu, Azərbaycan Prezidenti İlham Əliyevin MDB Dövlət Başçıları Şurasının Aşqabadda keçirilmiş sammitində Ermənistanda Qaregin Njdenin qəhrəmanlaşdırılması ilə bağlı səsləndirdiyi fikirlərə beynəlxalq səviyyədə verilən dəstəyin göstəricisidir.

Yekunda qəbul olunmuş Bakı Bəyannaməsində Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi səylərinə ciddi dəstək ifadə olunub: "Biz, dövlət və hökumət başçıları Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünə möhkəm dəstəyimizi ifadə edirik və Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi ilə bağlı səyləri ilə həmrəyliyimizi ifadə edirik".

Ermənistan və onun havadarlarının dəridən-qabıqdan çıxmasına baxmayaraq, Azərbaycan İlham Əliyevin rəhbərliyi altında böyük diplomatik uğura imza atdı, 120 dövlətin təmsil olunduğu Zirvə görüşünün nəticəsində Ermənistanın işğalçı dövlət kimi ifşasına nail oldu. Bu isə "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasından və Aşqabadda MDB Dövlət Başçıları Şurasının iclasından sonra İlham Əliyevin Ermənistan üzərindəki qlobal siyasi-diplomatik zəfəridir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# *Mövlud ÇAVUŞOĞLU:* "Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üçün daha çox səy göstərəcəyik"

Türkiyə Xarici İşlər Nazirliyi və BMT-nin təşkilatçılığı ilə keçirilən 6-cı İstanbul Vasitəçilik Konfransının açılışından sonra jurnalistlərin suallarını cavablandıran Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu bildirib ki, Ankara növbəti ildə Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üçün daha çox səy göstərəcək.

AZƏRTAC timeturk.com saytına istinadla xəbər verir ki, türkiyəli nazir deyib: "Biz Dağlıq Qarabağ və Azərbaycanın işğal olunmuş torpaqları probleminin BMT Təhlükəsizlik Şurasının qətnamələri, Avropa Şurasının qərarları çərçivəsində həllinin tərəfdarıyıq və bu münaqişənin nizama salınması üçün növbəti ildə daha çox səy göstərəcəyik".

"Sülh naminə vasitəçilik: Vəziyyətin qiymətləndirilməsi və gələcəyə baxış" mövzusunda çıxış edən Mövlud Çavuşoğlu bildirib ki, Ankara böyük Atatürkün "Yurdda sülh, cahanda sülh" kəlamı əsasında öz fəaliyyətini dünyanın müxtəlif yerlərində münaqişələrin sülh və dialoq yolu ilə həll olunması istiqamətində davam etdirir. O, Türkiyənin qonşu Suriyada sülhün və sabitliyin bərqərar olması üçün Rusiya ilə birgə mühüm tədbirlər həyata keçirdiyini də xatırladıb.

Konfransda çıxış edən BMT-nin Baş katibi Antonio Quterreş də Suriya, İraq, Fələstin, Afrika ölkələri və dünyanın digər bölgələrində silahlı münaqişələrin həll, terrorizm bəlasının yox edilməsi üçün səylərin birləşdirilməsinin zəruriliyini vurğulayıb. Qeyd edib ki, BMT çərçivəsində fəaliyyət göstərən Vasitəçi Dostlar Qrupu bu məsələdə daha fəal olmalıdır.

# *Sergey LAVROV:* "Azərbaycan və Ermənistan jurnalistlərinin qarşılıqlı səfərləri məsələsinə dair dialoq aparılır"

"ATƏT-in Katibliyinin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan jurnalistlərinin qarşılıqlı səfərləri məsələsinə dair dialoq aparılır".

AZƏRTAC xəbər verir ki, Rusiyanın Xarici İşlər naziri Sergey Lavrov bu fikri Moskvada ATƏT-in Baş katibi Tomas Qreminger ilə görüşünün yekunlarına həsr edilmiş mətbuat konfransında söyləyib.

Rusiyalı nazir xatırladıb ki, aprel ayında Moskvada ATƏT-in Minsk qrupunun üç həmsədrinin iştirakı ilə Ermənistan, Azərbaycan və Rusiyanın Xarici İşlər nazirlərinin görüşü keçirilib. S.Lavrov deyib: "Çox səmimi, qeyri-rəsmi, canlı diskussiyanın yekunlarına əsasən bir sıra humanitar tədbirlərin həyata keçirilməsi perspektivləri müəyyən edildi. Paralel olaraq Dağlıq Qarabağ məsələsinin nizamlanmasına dair siyasi dialoqa yanaşmaların mümkün variantları, etimadın möhkəmləndirilməsi tədbirləri təhlil olundu. O vaxt tutulub saxlanılan şəxslərin dəyişdirilməsi, həlak olanların cəsədlərinin mübadiləsi, vəziyyətin gərginliyini az da olsa zəiflətmək, etimad şəraitini irəlilətmək üçün jurnalistlərin qarşılıqlı səfərləri məsələsi müzakirə edildi. ATƏT-in Katibliyinin vasitəçiliyi ilə jurnalistlərin qarşılıqlı səfərləri məsələsinə dair dialoq aparılır. Buna ümid var. Saxlanılan şəxslərlə bağlı vəziyyət o qədər də nikbin olmağa əsas vermir, lakin hər halda biz bunu əsas götürürük ki, bu istiqamətdə hərəkət etmək lazımdır".

S.Lavrov Ermənistanın müdafiə naziri David Tonoyanın bu günlərdə səsləndirdiyi "Qarabağ məsələsi həll edilib" bəyanatını şərh edərək deyib: "Əlbəttə, hər iki tərəfin səsləndirdiyi emosional bəyanatlar işə kömək etmir. Burada ATƏT-in noyabr ayının ilk ongünlüyünə planlaşdırılan daimi şurasında həmsədrlərin çıxışlarında daha pozitiv şərait yaratmaq üçün bu vəziyyətdən istifadə etməyə çalışmaq lazımdır. İndi əsas məsələ budur. Qarabağ probleminin başqa formada deyil, məhz bu şəkildə həll ediləcəyi barədə bəyanatlar yəqin ki, işə kömək etmirlər. Məhz mövqeləri yaxınlaşdırmaq və kompromisə nail olmaq üçün yəqin ki, həmsədrlərin səyləri davam etdirilməlidir".

# *Səməd SEYİDOV:* "ABŞ Nümayəndələr Palatasının qondarma "erməni soyqırımı"na dair qətnaməsi ikili standartların bariz nümunəsidir"

"ABŞ Konqresinin Nümayəndələr Palatasının qondarma "erməni soyqırımı" ilə bağlı qəbul etdiyi qətnamə qərəzli və əsassızdır. Bu sənədin heç bir tarixi, siyasi və hüquqi əsası yoxdur və qardaş Türkiyəyə göstərilən siyasi təzyiqin bir təzahürüdür. Hiyləgər və məkrli ermənilərin və onların havadarlarının məqsədi beynəlxalq münasibətlərdəki gərginlikdən öz mənafeləri üçün istifadə etməkdir. Bu da onların iç üzünü bir daha açıb göstərir".

Bu sözləri Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, AŞ PA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov oktyabrın 31-də parlamentdə keçirdiyi brifinqdə söyləyib.

"Azərbaycan hər zaman qardaş Türkiyənin yanındadır", - deyən komitə sədri bildirib ki, qətnamənin qəbul edilməsi Suriyanın şimalında "Sülh çeşməsi" əməliyyatına başlamasından sonra Türkiyə hökumətinə təzyiqin gücləndirilməsi məqsədi daşıyır. Erməni lobbisinin qatı tərəfdarlarından olan konqresmen Adam Şiff Konqresdə açıq şəkildə bəyan edib ki, qətnamənin qəbul edilməsi Türkiyə ordusunun Suriyaya girməsi ilə əlaqədardır. ABŞ-da 200 minlik erməni icmasının maraqlarını təmsil edən və Los Ancelesdə yaşayan bu konqresmen on illərdir ki, hökuməti qondarma "soyqırımı"nı tanımağa sövq edirdi, lakin NATO-nun müttəfiqi olan Türkiyə hökumətinin güclü mövqeyi qarşısında aciz qalmışdı. Qanunlardan, haqdan-ədalətdən danışan ermənipərəst konqresmenlər bu qətnaməni qəbul etməklə XX əsrin əvvəllərində iki milyondan çox türkü qətlə yetirmiş, yaxın keçmişdə Qarabağ müharibəsi zamanı dinc əhaliyə divan tutmuş erməni quldur dəstələrini dəstəkləmiş olurlar.

"Qətnamənin qəbul edilməsi ikili standartların bariz nümunəsidir. Bu qətnamənin qəbul edilməsi ölkələr arasında münasibətlərə xələl gətirməklə bərabər ABŞ-ın regionda imicini də zəiflədir və onu ATƏT-n həmsədri kimi nüfuzdan salır. Burada əsas məqsəd ölkələr arasında münasibətləri daha da gərginləşdirmək, hərc-mərclik yaratmaqdır", - deyə Səməd Seyidov vurğulayıb.

Komitə sədri qeyd edib ki, Azərbaycanın beynəlxalq münasibətləri inkişaf edir. Prezident İlham Əliyev iştirak etdiyi yüksək səviyyəli tədbirlərdə Azərbaycan həqiqətlərini dünyaya çatdırır, siyasi tribunalardan ermənilərin nasist simasını ifşa edir. Dövlət başçısının qəti siyasəti bu günlərdə Azərbaycanın evsahibliyi etdiyi Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşünün Yekun Sənədində də öz əksini tapdı. Belə ki, sənədə yeni bənd daxil edildi və bu da Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın ədalətli mövqeyini daha da gücləndirdi.

***AZƏRTAC***

# Bakıda “Karyera imkanlarının artırılması” mövzusunda beynəlxalq konfrans

## “British Council” təşkilatının “Məşğulluq üçün ali təhsil” proqramına start verilib



Oktyabrın 31-də Bakıda “British Council” təşkilatının Azərbaycan nümayəndəliyi tərəfindən “Karyera imkanlarının artırılması” mövzusunda beynəlxalq konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, konfransda iki dövlətin ali təhsil müəssisələri və biznes təşkilatları arasında strateji əməkdaşlıq və təcrübə mübadiləsi imkanları müzakirə olunub. Həmçinin Azərbaycanda “British Council” təşkilatının “Məşğulluq üçün ali təhsil” proqramına start verilib, onun üstünlüklərindən söz açılıb.

Tədbirdə “British Council”ın Azərbaycanda ölkə üzrə direktoru Samr Şah bildirib ki, konfrans məzunların məşğulluğunu artırmaq, işədüzəlmə bacarıqlarını inkişaf etdirmək, yerli və qlobal iş dünyasında rəqabətliliyini təmin etmək və bu istiqamətdə nəticələri izləmək üçün davamlı olaraq məlumat toplamaq mexanizmini yaratmaq yollarını öyrənmək məqsədi daşıyır. Bundan başqa, “British Council” Birləşmiş Krallıq və Azərbaycandan olan tərəfdaşları ilə birlikdə ali məktəb məzunlarının əldə etdiyi nəticələrin monitorinqinin həyata keçirilməsi ilə əlaqədar təcrübə mübadiləsi və problemləri müzakirə etmək üçün platforma yaratmaq niyyətindədir. Beynəlxalq xarakter daşıyan tədbir Birləşmiş Krallıq və Azərbaycan arasında gələcək əməkdaşlığı inkişaf etdirmək və ölkəmizin iqtisadi inkişafına uzunmüddətli töhfə vermək üçün gözəl imkandır. Tədbir yeni təhsil proqramının gələcək nəsil məzunların mənafeyi naminə Azərbaycandakı mövcud ali təhsil mühitində əlverişli mövqe qazanmasına kömək edəcək.

Böyük Britaniyanın Baş Nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson bildirib ki, “British Council” təşkilatı “Məşğulluq üçün ali təhsil” proqramının köməyilə uzunmüddətli tərəfdaşlıq qurmaq, real dəyişikliklərə nail olmaq, məzunların bilik və bacarıqlarının artmasına, qlobal bazara çıxmaq potensiallarının inkişafına kömək etmək istəyir.

O, iki ölkə arasında təhsil sahəsində əməkdaşlığın vacibliyini vurğulayıb konfransın təhsil siyasətinin inkişafına töhfə verəcəyinə və daha güclü təhsil sisteminin qurulmasına kömək edəcəyinə əminliyini bildirib.

Konfransda çıxış edən Təhsil naziri Ceyhun Bayramov deyib ki, məzunların məşğulluq imkanlarının artırılması və insan kapitalının formalaşdırılması Azərbaycan dövlətçiliyinin əsasını təşkil edir. Azərbaycan hökuməti hər zaman təhsilin inkişafına xüsusi diqqət və qayğı ilə yanaşır. Ali məqsəd də məhz neft kapitalını insan kapitalına çevirməklə innovativ biliyə əsaslanan iqtisadiyyatı daha da gücləndirməkdir. Müasir dövrdə Azərbaycanın təhsil sistemi qlobal təhsil sisteminə inteqrasiya etməkdədir. “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” çərçivəsində təhsil alan gənclər hazırda dövlət idarələrində və özəl qurumlarda uğurla fəaliyyət göstərirlər. Azərbaycan və Fransa prezidentlərinin təşəbbüsü ilə yaradılan Azərbaycan-Fransız Universiteti (UFAZ) isə ölkə təhsilinin beynəlxalq səviyyəyə çatdırılmasının bariz nümunəsidir.

Ceyhun Bayramov diqqətə çatdırıb ki, Azərbaycan Respublikasının Təhsil Nazirliyi hər zaman mütərəqqi dünya təcrübəsinin təhsil sahəsində öyrənilməsinə diqqət yetirir, bu istiqamətdə beynəlxalq əməkdaşlığı, xüsusilə Böyük Britaniya ilə əlaqələri genişləndirir, “British Council” ilə müxtəlif layihələr həyata keçirir. Son illərdə təşkilatla birgə ondan artıq layihə, yüzdən çox tədbir həyata keçirilib.

“Müasir dövrdə əmək bazarının tələbləri çox sürətlə dəyişir. Bu cür tədbirlərin keçirilməsi, eləcə də qeyd olunan sahədə beynəlxalq mütəxəssislərin tövsiyəsi, ali təhsil müəssisələrinin rəhbərləri ilə fikir mübadiləsinin aparılması, tələbələrin gələcək əmək bazarına daha yaxşı hazırlığı üçün “dəyirmi masa” və müzakirələrin təşkili olduqca vacibdir. Bugünkü tədbirin də əsas məqsədi tələbələrin gələcək əmək bazarına uyğunlaşdırılması və bu sahədə göstəricilərin yüksəldilməsidir”, - deyə Təhsil naziri vurğulayıb.

Tədbirdə Böyük Britaniyanın Azərbaycandakı səfiri, Birləşmiş Krallıq və Azərbaycan universitetlərinin tərəfdaşlığın qurulmasında maraqlı olan şirkətlərin nümayəndələri iştirak ediblər.

# Azərbaycan-Böyük Britaniya arasında müxtəlif sahələri əhatə edən tərəfdaşlıq əlaqələri inkişaf edir



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Böyük Britaniyanın müvafiq qurumları arasında əməkdaşlıq əlaqələrinin qurularaq inkişaf etdirilməsi, müsbət təcrübələrin qarşılıqlı mübadiləsinin həyata keçirilməsi üçün geniş potensial var və gələcəkdə bu istiqamətdə işlərin aparılması tərəflər üçün faydalı olardı.

Nazirliyin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Böyük Britaniyanın Baş Nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Nikolsonun başçılıq etdiyi nümayəndə heyəti ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST Agentliyində keçirilən görüşdə bununla bağlı yekdil fikir ifadə olunub.

Görüşdə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının fövqəladə və səlahiyyətli səfiri Ceyms Şarp, nümayəndə heyətinin üzvləri Böyük Britaniyanın Enerji və Ticarət məsələləri üzrə departamentin müdiri Stiven Smit və Beynəlxalq Ticarət Departamentinin İxrac Strategiyası Proqramı üzrə meneceri Raşel Pouvel, ticarət məsələləri üzrə əlaqələndirici şəxs Rəna Zeynalova da iştirak ediblər.

Nümayəndə heyəti agentliyin və “DOST” mərkəzinin fəaliyyəti, burada pensiya, sosial müavinət və təqaüdlər, sosial xidmətlər, əlillik, tibbi ekspertiza və reabilitasiya vasitələri ilə təminat, sosial sığorta, əmək münasibətləri, məşğulluq, sosial-hüquqi, övladlığagötürmə, sosial-məişət xidmətləri, sosial-pedaqoji və s. üzrə 132 növdə xidmətin göstərilməsi prosesi ilə tanış olublar. Onlar “DOST” layihəsi barədə müsbət təəssüratlarını bölüşüblər.

Görüşdə Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev Prezident İlham Əliyevin sosial-iqtisadi siyasətinin nailiyyətləri barədə ətraflı məlumat verib. Nazir ölkəmizdə sosial sahədə aparılan genişmiqyaslı islahatları diqqətə çatdırıb. Nazir Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü olan “DOST” layihəsi əsasında ölkəmizdə dövlət sosial xidmətlərinin “bir pəncərə”dən, şəffaf və operativ, vətəndaş rahatlığı və məmnunluğu prinsipi əsasında təqdim olunması mərhələsinə keçildiyini qeyd edib.

Azərbaycan-Böyük Britaniya arasında müxtəlif sahələri əhatə edən tərəfdaşlıq əlaqələrinin inkişafından bəhs edən S.Babayev BP və “British Council” ilə birlikdə “Əlilliyi olan şəxslərin məşğulluq qabiliyyətlərinin artırılması proqramı”nın əhəmiyyətini diqqətə çatdırıb. O bildirib ki, əlilliyi olan şəxslərin əmək bazarına çıxışının dəstəklənməsinə xidmət edən proqram çərçivəsində əlilliyi olan şəxslər ingilis dili, veb və qrafik dizayn və applikasiyaların hazırlanması, sosial bacarıqların inkişaf etdirilməsi istiqamətində təlimlərə cəlb edilir. Onlara psixoloji dəstək və məşğulluq üzrə müvafiq məsləhətlər də verilir. Əhali sakinliyinin inkişafı və demoqrafiya sahəsində tədqiqatların aparılması və kadr potensialının formalaşdırılması sahəsində də BP ilə əməkdaşlıq nəzərdə tutulub.

B.Nikolson ölkələrimiz arasında dostluq və tərəfdaşlıq əlaqələrinin inkişafından məmnunluq ifadə edib. O, gələcəkdə bu əlaqələrin əmək, məşğulluq, sosial müdafiə, tibbi-sosial reabilitasiya sahələrində də davam etməsi üçün imkanların mövcud olduğunu qeyd edib.

# Mərkəzi icra hakimiyyəti orqanlarının, digər qurumların rəhbərlərinin və onların müavinlərinin 2019-cu ilin noyabr ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəli

| Mərkəzi icra hakimiyyəti orqanları, digər qurumlar | Qəbul günü | Qəbulun keçirildiyi və əhatə etdiyi şəhər, rayonlar |
|---|---|---|
| **Əkbər Hacıyev** ARDNŞ-nin “Azəriqaz” İB-nin baş direktoru | 05 | **Zaqatala** |
| **Ramil İsgəndərov** ARDNŞ-nin “Azəriqaz” İB-nin baş direktorunun müavini | 05 | **Şəki** |
| **Ruslan Əliyev** ARDNŞ-nin “Azəriqaz” İB-nin baş direktorunun müavini | 05 | **Balakən** |
| **Fikrət Məmmədov** Ədliyyə naziri | 06 | **Astara,** Lənkəran, Lerik |
| **Vilayət Zahirov** Ədliyyə nazirinin müavini | 08 | **Masallı** |
| **Rüstəm Usubov** Baş prokurorun birinci müavini | 08 | **Ağcabədi,** Laçın |
| **Hikmət Mirzəyev** Ali Məhkəmənin İnzibati-İqtisadi kollegiyasının sədri | 08 | **Şamaxı** |
| **Azad Rəhimov** Gənclər və İdman naziri | 08 | **Göyçay,** Mingəçevir, Ağdaş, Ağsu |
| **İntiqam Babayev** Gənclər və İdman nazirinin müavini | 08 | **Tərtər,** Yevlax, Bərdə |
| **İsmayıl İsmayılov** Gənclər və İdman nazirinin müavini | 08 | **Ucar,** Kürdəmir, Zərdab |
| **Məleykə Abbaszadə** Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri | 08 | **Sabirabad,** Şirvan, Saatlı, Hacıqabul, Salyan, Neftçala |
| **Sahir Məmmədxanov** Vergilər nazirinin birinci müavini | 14 | **Xaçmaz,** Quba, Qusar Şabran |
| **Zakir Qaralov** Baş prokuror | 15 | **Abşeron,** Zəngilan, Şuşa |
| **Muxtar Babayev** Ekologiya və Təbii Sərvətlər naziri | 15 | **Şəmkir,** Tovuz |
| **Firdovsi Əliyev** Ekologiya və Təbii Sərvətlər nazirinin müavini | 15 | **Qazax,** Ağstafa |
| **Əbülfəs Qarayev** Mədəniyyət naziri | 15 | **Kürdəmir** |
| **Vaqif Əliyev** Mədəniyyət nazirinin birinci müavini | 15 | **Ağdam** |
| **Rafiq Bayramov** Mədəniyyət nazirinin müavini | 15 | **Ağcabədi,** Laçın |
| **Ramin Quluzadə** Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri | 15 | **Lənkəran,** Lerik |
| **Əli Abdullayev** Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirinin birinci müavini | 15 | **Astara** |
| **Şahin Yusifov** Ali Məhkəmənin Cinayət kollegiyasının sədri | 15 | **Qəbələ** |
| **Azər Cəfərov** Ədliyyə nazirinin müavini | 15 | **Zaqatala** |
| **Arzu Rəhimov** Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi | 15 | **Masallı,** Yardımlı |
| **Mayıl Şahverdiyev** Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin müavini | 15 | **Cəlilabad,** Biləsuvar |
| **Əhməd Əhmədzadə** Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri | 15 | **Balakən** |
| **Zakir Quliyev** Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədrinin müavini | 15 | **Qax** |
| **Rafiq Aslanov** Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədrinin müavini | 15 | **Zaqatala** |
| **Qorxmaz Hüseynov** “Azərsu” ASC-nin sədri | 15 | **Mingəçevir,** Yevlax |
| **Vüqar Əhmədov** “Azərişıq” ASC-nin sədrinin vəzifəsini icra edən | 15 | **Yardımlı,** Masallı |
| **Mətin Eynullayev** Vergilər nazirinin müavini | 18 | **Ağcabədi,** Beyləqan, İmişli, Füzuli, Laçın, Xocavənd |
| **Teyyub Cabbarov** “Azərsu” ASC-nin sədrinin birinci müavini | 18 | **Zərdab,** Bərdə |
| **Etibar Məmmədov** “Azərsu” ASC-nin sədrinin müavini | 19 | **Kürdəmir,** Ucar |
| **Saleh Məmmədov** Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri | 20 | **Şəmkir,** Gədəbəy |
| **Əvəz Qocayev** Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müavini | 20 | **Daşkəsən** |
| **Pərviz Şahbazov** Energetika naziri | 22 | **Yevlax** |
| **Samir Vəliyev** Energetika nazirinin müavini | 22 | **Mingəçevir** |
| **Elnur Soltanov** Energetika nazirinin müavini | 22 | **Bərdə,** Tərtər |
| **Sahil Babayev** Əmək və Əhalinin Sosial Müdafiəsi naziri | 22 | **Ucar** |
| **Anar Kərimov** Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini | 22 | **Kürdəmir** |
| **Mətin Kərimli** Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini | 22 | **Zərdab** |
| **Mikayıl Cabbarov** İqtisadiyyat naziri | 22 | **Kürdəmir** |
| **Niyazi Səfərov** İqtisadiyyat nazirinin müavini | 22 | **Göyçay** |
| **Sahib Məmmədov** İqtisadiyyat nazirinin müavini | 22 | **Ucar** |
| **Oqtay Şirəliyev** Səhiyyə naziri | 22 | **Cəlilabad,** Biləsuvar |
| **Elsevər Ağayev** Səhiyyə nazirinin müavini | 22 | **Masallı,** Yardımlı |
| **Rahim Əliyev** Səhiyyə nazirinin müavini | 22 | **Lerik** |
| **Namiq Əsgərov** Baş prokurorun müavini | 22 | **Beyləqan,** Xocavənd |
| **Rövşən Rzayev** Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri | 22 | **Beyləqan** |
| **Fuad Hüseynov** Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi sədrinin müavini | 22 | **Cocuq Mərcanlı (Cəbrayıl)** |
| **Sabir Əhmədov** Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi sədrinin müavini | 22 | Füzuli |
| **Bəhram Xəlilov** Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurası sədrinin müavini | 22 | **Oğuz,** Şəki, Qax, Zaqatala, Balakən |
| **Seyfulla Əzimov** Daxili İşlər nazirinin birinci müavini | 23 | **Göyçay,** Yevlax, Mingəçevir, Ağsu, Şamaxı, İsmayıllı, Ucar, Kürdəmir, Ağdaş |
| **Hicran Hüseynova** Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri | 25 | **Ağdam,** Tərtər, Bərdə |
| **Sədaqət Qəhrəmanova** Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini | 25 | **Ağcabədi,** Laçın, Beyləqan, Xocavənd, Füzuli |
| **Mübariz Qurbanlı** Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri | 26 | **Zərdab,** Kürdəmir |
| **Səyyad Aranlı** Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini | 26 | **Göyçay** |
| **Gündüz İsmayılov** Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini | 26 | **Ucar** |
| **Sahib Ələkbərov** Vergilər nazirinin müavini | 27 | **Siyəzən,** Sumqayıt, Abşeron, Xızı, Qubadlı, Zəngilan, Şuşa |
| **Ceyhun Bayramov** Təhsil naziri | 28 | **Yevlax,** Bərdə |
| **Firudin Qurbanov** Təhsil nazirinin müavini | 28 | **Ağdaş,** Mingəçevir |
| **Rafiq Cəlilov** Əmlak Məsələləri Dövlət Komitəsi sədrinin müavini | 28 | **Sabirabad** |
| **Ramil Yusifov** “Azərişıq” ASC-nin sədrinin müavini | 28 | **Cəlilabad,** Biləsuvar |
| **Ramiz Rzayev** Ali Məhkəmənin sədri | 29 | **Bərdə** |
| **Kəmaləddin Heydərov** Fövqəladə Hallar naziri | 29 | **Şəmkir** |
| **Rəfail Mirzəyev** Fövqəladə Hallar nazirinin birinci müavini | 29 | **Göygöl** |
| **Etibar Mirzəyev** Fövqəladə Hallar nazirinin müavini | 29 | **Samux** |
| **İnam Kərimov** Kənd Təsərrüfatı naziri | 29 | **Astara,** Lerik |
| **İlham Quliyev** Kənd Təsərrüfatı nazirinin müavini | 29 | **Masallı,** Lənkəran |
| **Elçin Zeynalov** Kənd Təsərrüfatı nazirinin müavini | 29 | **Yardımlı,** Cəlilabad |
| **Səfər Mehdiyev** Dövlət Gömrük Komitəsinin sədri | 29 | **Abşeron** |
| **İsmayıl Hüseynov** Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini | 29 | **Salyan** |
| **Əsgər Abdullayev** Dövlət Gömrük Komitəsi sədrinin müavini | 29 | **Sabirabad,** Hacıqabul |
| **Vilayət Eyvazov** Daxili İşlər naziri | 30 | **Sumqayıt,** Abşeron, Qobustan, Qubadlı, Zəngilan |
| **Kərəm Həsənov** Əmlak Məsələləri Dövlət Komitəsinin sədri | 30 | **Şirvan** |
| **Rüstəm Şahbazov** Əmlak Məsələləri Dövlət Komitəsi sədrinin müavini | 30 | **Neftçala** |

**Qeyd:** Vətəndaşların qaldırdıqları məsələlər qəbulu keçirən təşkilatların səlahiyyətlərinə aid olmalıdır.

# Müdafiə naziri Avropa İttifaqının xüsusi nümayəndəsi ilə görüşüb



Oktyabrın 31-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, cəbhə xəttində və Ermənistan-Azərbaycan dövlət sərhədindəki hazırkı vəziyyətə dair fikir mübadiləsinin aparıldığı görüşdə general-polkovnik Z.Həsənov beynəlxalq birlik tərəfindən tanınan Azərbaycan ərazilərinin 20 faizinin Ermənistanın işğalı altında olduğunu və danışıqlar prosesinin bu günədək nəticəsiz qaldığını bir daha xatırladıb. Nazir vurğulayıb ki, Ermənistanın qeyri-konstruktiv mövqeyi münaqişənin nizamlanması ilə bağlı danışıqlarda tərəqqinin əldə edilməsinə əsas maneədir.

T.Klaar Cənubi Qafqaz regionunda sabitliyin təmin olunması üçün münaqişənin tez bir zamanda sülh yolu ilə həllinin vacibliyini qeyd edib. O bildirib ki, Avropa İttifaqı bu istiqamətdə danışıqların davam etdirilməsinin tərəfdarıdır.

# Vətəndaşların qəbulu keçirilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov oktyabrın 31-də Gəncə Şəhər Baş Polis İdarəsində daxili işlər orqanlarının fəaliyyətinə və səlahiyyətinə aid məsələlərlə əlaqədar növbəti qəbul keçirib.

Daha sonra nazir Baş Polis İdarəsində Gəncə də daxil olmaqla respublikanın Qərb bölgəsinin 10 şəhər və rayonundan, eyni zamanda, həmin zonada məskunlaşmış qaçqın və məcburi köçkünlərdən qəbul üçün müraciət edən 34 vətəndaş ilə görüşüb.

General-polkovnik V.Eyvazov onların polisin fəaliyyəti ilə bağlı müraciətlərini şəxsən dinləyərək problemlərinin operativ şəkildə, mövcud qanunvericiliyə uyğun həlli üçün nazirliyin aidiyyəti baş idarə və xidmət rəislərinə konkret tapşırıqlar verib. Müraciətlərin böyük əksəriyyəti elə yerindəcə öz həllini tapıb.

* * *

Ali Məhkəmənin mətbuat xidmətindən bildiriblər ki, bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, oktyabrın 31-də Ali Məhkəmənin Cinayət kollegiyasının sədri Şahin Yusifov Şabran Rayon Məhkəməsinin inzibati binasında vətəndaşların qəbulunu keçirib.

Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilib. Müraciətlərdə qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb. Bəzi müraciətlər üzrə isə Ali Məhkəmənin aparatının qəbulda iştirak edən aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib. Müraciətlərin əksəriyyəti məhkəmələrin fəaliyyəti ilə bağlı olub.

*AZƏRTAC*

Bakı Dövlət Universiteti - 100

# Böyük elmin dayaq nöqtəsi

Dünya təcrübəsində ölkənin və xalqın inkişafında, ümummilli dirçəliş və tərəqqidə ümumiyyətlə təhsilin, xüsusən də ali təhsilin müstəsna rolu real gerçəklik kimi qəbul olunur. Azərbaycanda elmin, ali təhsilin, ictimai fikrin, yüksək hazırlıqlı ixtisaslı mütəxəssislərin hazırlanmasında Bakı Dövlət Universitetinin mühüm rolu xüsusi qeyd edilməyə layiqdir. Azərbaycanda 1919-cu ildə universitet səviyyəsində ali məktəbin təsis edilməsi ölkəmizdə maarifçilik hərəkatının inkişafının yeni mərhələsinin formalaşmasında mühüm rol oynamışdır. Bu, XIX əsrin əvvəllərində ölkəmizdə dünyəvi məktəblərin yaradılması hadisəsinin zaman-zaman inkişaf etdirilərək ali məktəb səviyyəsinə çatdırılması prosesinin məntiqi nəticəsidir.



Bakı Dövlət Universitetinin təşkili Azərbaycanda maarifçilik hərəkatının cəmiyyət həyatının ön mövqeyinə çıxmasının real təzahürü idi. Görkəmli ictimai xadim və böyük publisist Məhəmməd ağa Şahtaxtlının Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi mətbuat orqanı olan "Azərbaycan" qəzetinin 28 iyul 1919-cu il tarixli sayında çap etdirdiyi "Azərbaycanda darülfünun adı" məqaləsində deyildiyi kimi, ölkəmizdə ali məktəb "həyatın mənbəyi-sərçeşməsi" (bulaq mənbəyi), hürriyyəti-əfkarın (azadlıq fikirlərinin) göstəricisi kimi meydana çıxmış, milli istiqlalın əsas göstəricilərindən biri olmuşdur: "Biz - Azərbaycan türkləri ictimaiyyətdə hürriyyəti-əfkarı qəbul etmişiz və bu hürriyyəti-əfkara meyil və cazibə bizim qövmi xüsusiyyətimizdir. Böylə olmasaydı ismi Avropada dastanlara keçən Mirzə Şəfi və ya Mirzə Fətəli Axundov kimi mücəssəm hürriyyət əfkarları (azad fikirli insanları) bizim içimizdən nasıl nəşət edə bilərdi?... Və madam ki, böyləyiz, Avropa masştabında mütləq və qeyri-məhdud olan hürriyyəti-əfkar üzərinə müəssis (təsis edilən - İ.H.) bir darülfünun açmalıyız ki, bu darülfünunumuz hürriyyəti-əfkarçı olduğumuzun dəlil-felisi olub, bizim istiqlal siyasətimizə toxunmaq üçün avropalıların əlindən "Siz hürriyyəti-əfkarçı deyilsiniz, sizə istiqlal verməyiz" bəhanəsini alsın".

Beləliklə, Bakı Dövlət Universiteti Azərbaycan milli istiqlalının məşəli kimi qəbul edilmişdir. Azərbaycan maarifçiləri xalqımızın bir əsr ərzində "cəhalət dərdinin dərmanı" kimi baxdıqları məktəb açmaq düşüncəsindən universitet yaratmaq səviyyəsinə qədərki inkişafını ümummilli inkişafın nailiyyəti səviyyəsində qarşılamışlar. XIX əsrin əvvəllərindən etibarən məktəb açmaqla xalqı savadsızlıq bəlasından xilas etməyə, yazıb-oxumaq vərdişləri aşılamağa çalışan Azərbaycanın maarifpərvər ziyalıları universitet yaratmağa nail olmaqla ictimai-mədəni tərəqqinin yeni bir mərhələsinə çatmağa dərin inam bəsləmişlər.

Bu mənada Məhəmməd ağa Şahtaxtlının "Azərbaycanda darülfünun" məqaləsində ifadə edilmiş aşağıdakı mətləblər təkcə onun müəllifinin deyil, bütövlükdə Azərbaycanın maarifçi ziyalılarının universitet açmağa, mənsub olduqları xalqı bütün sahələr üzrə daha irəli mövqelərə çatdırmaq amallarının əks-sədasıdır: "Darülfünun olmazsa, nə olur? ...Ümumi maarifə aid orta məktəblərimizdə şagirdlərimizə dərs verəcək müəllimlərimiz olmaz; naxoşlarımızı müalicə edəcək təbiblər məfrud (zəruri) olur. Hüquqşünas hakimlər bulmayız ki, mal və mülk üçün münazirə (mübahisə) edən vətəndaşlarımızı və ya cinayət ibda edən (törədən) hakimlər mühakimə etsin. Darülfünun olmazsa, maarifimiz maarifçi Avropa və qonşu xristian millətlərinin mühərrirlərinə (qəzetçilərinə) ...məsəl olacaq mühərrirləri haradan ola bilər? Darülfünun olmazsa, ömrünü elm və fününa vəqf edərək mücəssəmi-elm və fənn olan o möhtərəm vücudi-millətlərin mədəniyyət üzrə həyat sürmələri üçün labüd olan professorlar heyəti millətimizin içində nərədən çıxar, nərədən yetişər? Mədəni həyatın şəraitinə və amillərinə imhal (təhlil) nəzəri ilə baxdıqda o dəqiqə görünür ki, bu həyatın mənbəyi-sərçeşməsi darülfünundur. Darülfünundan əl çəkmək mədəni həyatdan rugərdan (üz döndərmək) olmaqdır... Əvvəlinci günündən... Darülfünunumuzu milliləşdirməli, türkləşdirməliyik".

Mükəmməl Avropa təhsili almış, məşhur Sorbon Universitetinin məzunu Məhəmməd ağa Şahtaxtlının "Azərbaycanda darülfünun" məqaləsində irəli sürülmüş fikirlər XX əsrin böyük bir dövrü üçün ölkəmizin və xalqımızın ictimai-mədəni və maarifçilik baxımından inkişaf proqramı idi. Bu mənada Azərbaycan maarifçilərinin böyük səyləri ilə açılmış Bakı Dövlət Universitetinin fəaliyyəti Azərbaycan cəmiyyətinin dəyişdirilməsi, yeniləşdirilməsi və müasirləşdirilməsinin hərəkətverici qüvvəsinə çevrilmişdir. Sözün böyük mənasında Bakı Dövlət Universiteti Azərbaycanda milliləşmə və müasirləşmə qatarının lokomotivi funksiyasını həyata keçirmişdir.

XX əsr ərzində ölkəmizdə baş vermiş əsas dəyişikliklərdə və inkişafda Bakı Dövlət Universitetinin böyük payı və rolu olmuşdur. Bakı Dövlət Universiteti ölkəmizdə geniş ali təhsil şəbəkəsi yaratmaq baxımından əsl elmi-maarifçi baza rolunu yerinə yetirmişdir. Bugünkü Azərbaycan Dövlət Pedaqoji Universiteti, Tibb Universiteti və İqtisad Universiteti Bakı Dövlət Universitetinin elmi-pedaqoji arsenalının tədris-metodiki bazasının zəminində meydana çıxmışdır. Milli ziyalılığın böyük bir nəsli Bakı Dövlət Universitetində yetişib formalaşmışdır. Ölkə üzrə elmlər doktorları və fəlsəfə doktorlarının böyük bir hissəsi Bakı Dövlət Universitetində elmi-pedaqoji fəaliyyətini davam etdirməkdədir. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi və müxbir üzvlərinin sıralarında da Bakı Dövlət Universitetindən olan alimlərin özünəməxsus yeri vardır.

Azərbaycan Milli Elmlər Akademiyasının vaxtilə yaradılmasında və inkişafında da Bakı Dövlət Universitetinin mühüm rolu olduğu qeyd edilməlidir. Belə ki, Bakı Dövlət Universitetinin müəllimləri və yetirmələri 1929-1932-ci illərdə fəaliyyət göstərmiş Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutunun aparıcı qüvvəsini təşkil etmişdir. SSRİ Elmlər Akademiyası Zaqafqaziya filialının Azərbaycan şöbəsinin 29 dekabr 1932-ci il tarixdə Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutunun bazasında yaradılması nəticə etibarilə Bakı Dövlət Universitetinin ölkəmizdə ilk akademik qurumun formalaşmasında iştirak etdiyini nümayiş etdirir. Bundan başqa, sovet hakimiyyəti illərində Azərbaycan Dövlət Universiteti adı ilə fəaliyyət göstərmiş bu ali təhsil ocağının müəllimləri və məzunları SSRİ Elmlər Akademiyası Azərbaycan filialının elmi-tədqiqat bölmələrinin aparıcı elmi heyətini təşkil etmişdir.

Elmlər Akademiyasının təsisçiləri və təşkilatçıları sıralarında da Azərbaycan Dövlət Universitetini təmsil edən alimlər xüsusi çəkiyə malik olmuşlar. Azərbaycan Dövlət Universitetindən fizika-riyaziyyat elmləri doktoru, professor Həbibulla Əmirxanov, Əməkdar elm xadimi, biologiya elmləri doktoru, professor Abdulla Qarayev, Əməkdar elm xadimi, fəlsəfə elmləri doktoru, professor Aleksandr Makalevski və başqaları ölkəmizdə fundamental akademik elmin inkişafına böyük töhfələr vermişlər. Azərbaycan SSR Elmlər Akademiyasının ilk təsisçilərindən biri olmuş SSRİ Tibb Elmləri Akademiyasının həqiqi üzvü, Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor İvan Şirokoqorov Bakı Dövlət Universitetinin Tibb fakültəsinin ilk dekanı vəzifəsində çalışmış görkəmli alim idi.

Azərbaycan Elmlər Akademiyası ilə Bakı Dövlət Universitetinin qarşılıqlı əlaqələri Azərbaycanda elmin və ali təhsilin inkişafında mühüm rol oynamışdır. Müstəqil Elmlər Akademiyasına çevrildikdən sonra ölkəmizin ən böyük akademik qurumu böyük elmi mərkəzə çevrilmiş, digər elmi tədqiqat müəssisələrinin, ali təhsil ocaqlarının inkişafı üçün əsas mərkəz funksiyası daşımışdır. O cümlədən Azərbaycan Dövlət Universitetinin inkişafına da Elmlər Akademiyası öz töhfələrini vermişdir. Elmlər Akademiyasının prezidenti, dünya şöhrətli görkəmli alim, akademik Yusif Məmmədəliyev 1954-1958-ci illərdə Azərbaycan Dövlət Universitetinin rektoru vəzifəsində çalışmışdır.

Milli ali təhsil tarixini araşdıran alimlər akademik Yusif Məmmədəliyevin rektorluğu dövrünün Azərbaycan Dövlət Universitetinin inkişafında xüsusi mərhələ təşkil etdiyini iftixarla qeyd edirlər. Azərbaycan Dövlət Universitetində fundamental tətbiqi elmlərin formalaşdırılması, kimya elmləri üzrə bir çox elmi tədqiqat laboratoriyasının və kafedraların fəaliyyətə başlaması, fizika, ərəb və türk dilləri kafedralarının formalaşdırılması, elm sahələri üzrə bir sıra elmi jurnalların təsis edilməsi, nəşriyyat işinin yenidən qurulması bu ali təhsil ocağına rəhbərlik etmiş akademik Yusif Məmmədəliyevin adı ilə üzvi surətdə bağlıdır. Bakı Dövlət Universitetinin qurucu rektoru, tibb elmləri doktoru, professor Vasili Razumovskidən sonra akademik Yusif Məmmədəliyev bu ali təhsil müəssisəsinin inkişafında yeni mərhələ yaratmışdır. Ayrı-ayrı vaxtlarda Elmlər Akademiyasına və həm də Azərbaycan Dövlət Universitetinə rəhbərlik etmiş akademik Yusif Məmmədəliyev ölkəmizdə elm və təhsilin əfsanəvi şəxsiyyətinə çevrilmişdir. Dünyasını dəyişməsindən 58 il keçməsinə baxmayaraq, akademik Yusif Məmmədəliyevin Azərbaycanda akademik elmin və universitet təhsilinin inkişafındakı xidmətləri yenə də əlçatmaz bir zirvə kimi yad olunmaqdadır.

Azərbaycan Elmlər Akademiyası yarandığı vaxtdan keçən 75 il ərzində həmişə Bakı Dövlət Universitetinin tanınmış alimlərini akademiyanın həqiqi və müxbir üzvləri seçməklə, daim ali məktəb elminin və universitet təhsilinin inkişafına dəstək vermişdir. Azərbaycan Elmlər Akademiyası ilə Bakı Dövlət Universiteti arasındakı qarşılıqlı əlaqələr və birgə əməkdaşlıq nəticə etibarilə ölkə elminin və milli təhsilin inkişafına təkan verən əhəmiyyətli nümunədir.

Bakı Dövlət Universiteti bu gün də ölkə elminin əsas dayaq nöqtələrindən biri olmaq vəzifəsini məsuliyyətlə həyata keçirməkdə davam edir.

Ölkəmizin bütün sahələrində olduğu kimi, Azərbaycan Dövlət Universitetinin inkişafında da xalqımızın Ümummilli Lideri Heydər Əliyevin müstəsna xidmətləri elm və təhsil tariximizə qızıl səhifələr əlavə etmişdir. Uzaqgörən dövlət xadimi kimi Ulu Öndər Heydər Əliyev üçün Azərbaycan Dövlət Universitetinə diqqət və qayğı göstərmək ölkəmizdə milli ziyalılığı, yüksək hazırlıqlı vətənpərvər yeni nəsilləri yetişdirib inkişaf etdirmək, respublikanın taleyini həll edəcək kadrlar formalaşdırmaq kimi dövlət əhəmiyyətli hədəflərə hesablanmış mühüm məsələlər idi. Sovet hakimiyyəti illərində sosialist-beynəlmiləlçi siyasətin ən ciddi şəkildə həyata keçirildiyi bir dövrdə, 1 noyabr 1969-cu ildə cavan dövlət rəhbəri Heydər Əliyevin heç nədən çəkinmədən Azərbaycan Dövlət Universitetinin 50 illik yubileyində ana dilində təbrik nitqi ilə çıxış etməsi SSRİ miqyasında mövcud ideoloji sistemin dayaqlarını silkələyən qeyri-adi dərəcədə mühüm hadisə idi. Bu, Azərbaycan Dövlət Universitetinin nümunəsində geniş mənada ölkəmizdə milli siyasətin həyata keçirilməsinin qüvvətli parolu kimi səslənmişdir.

Görkəmli dövlət xadimi Heydər Əliyevin təntənəli yubiley mərasimində Azərbaycan dilində etdiyi tarixi nitqində səslənən aşağıdakı fikirlər ölkəmizin ilk ali təhsil ocağının xalqımızın taleyindəki roluna verilmiş ən yüksək qiymətin ifadəsidir: "Azərbaycan universitetinin yaranması qabaqcıl qüvvələrin qələbəsi idi, doğma xalqı maarifləndirmək uğrunda, dünya mədəniyyəti və elmi xəzinəsinin qapılarını onun üzünə açmaq uğrunda Azərbaycanın ən yaxşı oğullarının bir çox illər ərzində apardıqları mübarizənin yekunu idi. ...Doğma respublika ilə birlikdə inkişaf edən, inamla qüvvə toplayan universitet qabaqcıl elm və mədəniyyət ocağına, yüksək ixtisaslı kadrlar hazırlayan ali məktəbə çevrilmişdir. Azərbaycan xalqının parlaq və orijinal mədəniyyətinin ən yaxşı ənənələri Azərbaycan Dövlət Universitetində inkişaf etdirilmişdir. Universitetin tarixi xidməti bundan ibarətdir ki, o, Azərbaycan ali məktəbinin bünövrəsini qoymuşdur".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bakı Dövlət Universitetinin 100 illik yubileyinin keçirilməsi haqqında imzaladığı tarixi sərəncam yubilyar universitetin keçdiyi şərəfli yola dövlət səviyyəsində verilmiş qiymətin parlaq ifadəsi olmaqla bərabər, həm də XXI əsrin qarşıdakı illərdəki vəzifələrinə işıq salan əhəmiyyətli siyasi-ideoloji direktivdir. Bakı Dövlət Universitetinin 100 illik yubileyinin UNESKO beynəlxalq təşkilatı səviyyəsində qeyd edilməsinə nail olmaq ölkə rəhbərimizin ali təhsilimizi və elmimizi dünyada tanıtmaq və daha böyük hədəflərə çatdırmaq sahəsində xalqımıza qazandırdığı mühüm tarixi nailiyyətdir. Mühüm dövlət qayğısının işığında Bakı Dövlət Universitetində elm və təhsil sahəsində baş verən mühüm dəyişikliklər və canlanma, nikbinlik və səfərbərlik yubiley əhvali-ruhiyyəsi olmaqdan çox, həm də qarşıya qoyulmuş vəzifələrin şərəfini və məsuliyyətini dərk etməklə irəliyə doğru qətiyyətli addımlarla getməyin əməli ifadəsidir. Akademik elmi və universitet təhsilini daha yaxından və üzvi surətdə əlaqələndirməklə fundamental tədqiqatlar sahəsində olduğu kimi, universitet elmi və təhsili istiqamətində də böyük dəyişikliklər və mühüm nailiyyətlər əldə etmək mümkündür.

Fəaliyyəti dövründə həmişə Azərbaycan elminin inkişafında əsas dayaq nöqtələrindən biri olan Bakı Dövlət Universitetinə uğurlar arzulayıram.

***İsa HƏBİBBƏYLİ,***
***Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Milli Məclisin Elm və Təhsil Komitəsinin sədri, akademik***

# Şərəflə yaşanan alim ömrü

Təbiətin saysız-hesabsız nadir və əsrarəngiz gözəlliklərinin "müəllifi" olan torpağın dili ilə danışmağı bacarmaq, onu insanlara daha yaxın etmək torpaqşünas alimlərin üzərinə düşür. Bu, zamanın və təbiətin tələbidir. AMEA-nın müxbir üzvü, kənd təsərrüfatı elmləri doktoru, Əməkdar elm xadimi, professor Məmmədəmin Salayev belə alimlərdəndir. M.Salayev keçən əsrin 30-cu illərində Azərbaycan Politexnik İnstitutunun Kənd təsərrüfatı fakültəsində təhsil almışdır.

İnstitutu bitirdikdən sonra Gəncə şəhərində Təcrübə-Seleksiya Stansiyasının aqrokimya şöbəsində əmək fəaliyyətinə başlamışdır. Burada elm adamlarının iş təcrübələrindən bəhrələnən gənc mütəxəssis 1933-cü ildə Bakıya qayıtdıqdan sonra Kənd Təsərrüfatı Nazirliyinin nəzdində Kimyalaşdırma stansiyasında fəaliyyətini geniş formada davam etdirmişdir. Onun torpaqşünaslıq elminə olan marağı elm adamlarının diqqətindən yayınmır. Odur ki, iki ildən sonra Lomonosov adına Moskva Dövlət Universitetinin aspiranturasına göndərilir. Burada torpaqşünaslıq elminin korifeylərindən olan professor V.Gemerlinq, D.Vilenski, İ.Şulqa və başqa görkəmli alimlərin təcrübəsini yetərincə mənimsəyir, bu sahənin problemləri ilə məşğul olmaqdan yorulmur. Nəhayət, 1941-ci ildə "Şimali Muğanın şorlaşmış torpaqlarında asan həll olunan duzların hərəkəti" mövzusunda namizədlik dissertasiyası müdafiə edib geologiya-mineralogiya elmləri namizədi alimlik dərəcəsi alır.

Gənc alim bundan sonra elmi fəaliyyətini SSRİ EA Azərbaycan filialının Torpaqşünaslıq bölməsində professor V.Smirnov-Loginovun rəhbərliyi altında davam etdirir. Onun regional elmi araşdırmaları 1939-1940-cı illərdə Samur-Dəvəçi düzənliyinin xam torpaqlarında suvarma kanalının tikintisi ilə əlaqədar olur. Məqsəd ərazi torpaqlarının iri miqyasda xəritələşdirilməsi, kənd təsərrüfatı üçün münbit, perspektivli torpaq sahələrinin müəyyənləşdirilməsi, onların əkinəyararlı olması üçün şoran torpaqların meliorativ proqnozu və s. idi.

Böyük Vətən müharibəsi illərində SSRİ Müdafiə Nazirliyinin bir sıra tapşırıqları (xüsusi xəritələrin tərtib edilməsi, ərzaq proqramı ilə əlaqədar çay bitkisi üçün yararlı torpaqların seçilməsi, kartofçuluğun suvarılan rayonlarda inkişaf etdirilməsi və s.) M.Salayev tərəfindən layiqincə yerinə yetirilmişdir.

M.Salayev Azərbaycan Gəncə-Qazax-Ceyrançöl Dövlət meşə zolaqlarının salınmasının təşkilatçısı və rəhbəri olmuşdur. Burada aparılan tədqiqat işlərinin nəticəsində Azərbaycan qurubozqır zonası torpaqlarının meşəyə yararlılıq dərəcəsini müəyyənləşdirən xəritələr tərtib edilmişdir. Onun Kür-Araz düzənliyinin su təsərrüfatı tikintisi ilə əlaqədar torpaq-meliorativ tədqiqatları da uğurlu olmuşdur. 1950-ci illərdə Dağlıq Qarabağ suvarma kanalının və Mingəçevir su qovşağının tikilməsi, habelə xam torpaqların istifadəyə verilməsi kimi problemlərin öhdəsindən əsl alim bacarığı ilə gəlmişdir. Elmi-əməli təklifləri əsasında Dağlıq Qarabağ kanalının inşası üçün hazırlanmış texniki layihə əsas kimi qəbul edilmişdir.

M.Salayevin Azərbaycanın dağlıq ərazisi hesab olunan Kiçik Qafqaz torpaqlarının tədqiqi və xəritələşdirilməsində də xüsusi əməyi olmuşdur. Alim zonal torpaq tiplərinin müfəssəl diaqnostik səciyyəsini və sistematikasını vermiş, aşınma tiplərinin qanunauyğunluqlarını müəyyən etmiş, habelə vilayətin bütün torpaqlarını rayonlaşdırmışdır. Beləliklə, dağlıq ərazidə torpaqların litogenliyinə diqqət yetirməklə torpaq əmələ gətirən süxurlar ilə torpağın formalaşma səciyyəsi arasındakı sıx əlaqəni tədqiqata cəlb etməklə 1966-cı ildə Moskvada V.V.Dokuçayev adına Torpaqşünaslıq İnstitutunda doktorluq dissertasiyasını uğurla müdafiə etmişdir.

Respublikamızda ilk dəfə olaraq torpağın aşınma tipləri, Kiçik Qafqazın əsas və kövrək torpaq əmələ gətirən süxurlarının fiziki-kimyəvi, mineraloji səciyyəsini M.Salayev vermişdir. 1991-ci ildə Azərbaycan torpaqlarının yeni təsnifat sxemi məhz M.Salayev tərəfindən təklif edilmişdir. Alimin elmi araşdırmalarına əsasən bu cür geniş ekoloji-genetik yanaşma torpaqların istehsal xüsusiyyətlərini daha ətraflı müəyyənləşdirməyə və həmin təsnifatdan genişmiqyaslı torpaq tədqiqatlarında istifadə etməyə imkan vermişdir.

Torpaqşünas alimlə uzun müddət bir yerdə işləmişik, elmi məsləhətçim olmaqla alim-mütəxəssis kimi yetişməyimdə böyük əməyi olub. Namizədlik işimə opponent olarkən tövsiyə və təkliflərinin gələcəkdə elmi fəaliyyətimə işıq saçacağına böyük ümidlər bəsləyirdim. Hər bir aspirant kimi mən də elmi işimi vaxtında başa çatdırmağa çalışırdım. Araşdırmalarımı M.Salayevə təqdim edəndə mütləq nə isə bir nöqsan tapırdı. Belə hallarda o, çox sakit tərzdə: "Get bir az gəz, dolan, sonra gələrsən, danışarıq" deyirdi. Həmin gün, ya bir gün sonra yazdıqlarımı yenidən müzakirə edirdik və rəhbər kimi mənə öz dəyərli məsləhətlərini verirdi. O, sözün əsl mənasında, böyük alim və böyük pedaqoq idi.

M.Salayevin mənə olan münasibətini: elmi işimin müəyyən hissələrini dönə-dönə işlətməyi, yeni mənbələrlə zənginləşdirməyi bəzən bezdirici, açıq desəm, qərəzçilik kimi qəbul edirdim. Heç yadımdan çıxmır. Bir dəfə unudulmaz M.Salayev alimlərlə söhbət zamanı dedi: "Siz Qərib Məmmədovdan, bir də Qurban Əzizovdan muğayat olun, onların gələcəyinə inanın, işlədin, bilin ki, Azərbaycan torpaqşünaslıq elmi üçün çox yaxşı alim olacaqlar". Deməli, M.Salayev barəsində düşündüklərim həqiqətə uyğun deyilmiş. Anladım ki, onun mənə münasibəti qərəzçilik yox, qayğı imiş. O an ataların "ağladan yanında ol, güldürən yanında yox" misalı yadıma düşdü və M.Salayev təkcə torpaqşünas alim kimi deyil, ata, ağsaqqal kimi ürəyimdə əbədiləşdi.

Hərdən yazılarımı nəzərdən keçirəndə torpağın qiymətləndirilməsi ilə bağlı fikirlərimi soruşardı. "Sən buna necə baxırsan?" deyə rəyimi öyrənərdi. Hər dəfə ondan ayrılanda içimdə dünya boyda işıq yanardı. Bir dəfə dedi ki, "oğul, top hansı güclə yerə dəyirsə, eyni güclə yüksəkliyə qalxır. Gənc yaşlarında nə qədər çox işləsən, öyrənsən, gələcəkdə elmin kəhkəşanlı yollarında addımlamaq sənə bir o qədər asan olar".

M.Salayevin hörmətlə xatırlanan alim ömrü təkcə alimlik zirvəsinə ucaltdığı aspirantlarının, tələbələrinin talelərində deyil, yazdığı elmi əsərlərində də yaşayır. Onun çoxillik elmi tədqiqatları "Azərbaycan torpaqlarının təsnifatı və diaqnostikası" (1991) adlı monoqrafiyasında toplanmışdır. Burada təqdim olunan torpaq təsnifatında torpaq tiplərinin bioiqlim şəraiti ilə coğrafi landşaftı arasındakı ekoloji-genetik asılılıq daha ətraflı şərh edilmişdir.

Azərbaycanda torpaqların genetik indeksi ilk dəfə M.Salayev tərəfindən hazırlanmışdır. Alimin "Zaqafqaziya subtropik torpaqlarının genetik tipləri" kitabında



yalnız Zaqafqaziyanın deyil, habelə dünya subtropik rayonlarının torpaqları geniş araşdırılmış, subtropik torpaq-əmələgəlmənin elmi nəzəriyyəsi diqqətə çatdırılmışdır. Alimin dəyərli əsərləri gələcək nəsillərə, gənc tədqiqatçılara əvəzsiz töhfədir. Akademik elmin inkişafına xidmət etməyi bacaran kadrlar yetişdirilməsində çox israrlı idi. Bu istəyin nəticəsidir ki, o, yetişdirdiyi 28 nəfər elmlər namizədi və elmlər doktorunu özünün şah əsəri sayırdı. Böyük torpaqşünas alim rəhbəri olduğu hər bir aspirantın qayğısına qalmaqdan, onlara yaradıcı məsləhətlər verməkdən zövq alırdı. İnsanlıq elminin fövqündə dayananları əsl alim hesab edirdi, ixtisasına incəliklərinə qədər bələd olmayanları yaxşı qəbul etmirdi. M.Salayev həm də uzun illər Bakı Dövlət Universitetinin Geoloji-coğrafiya fakültəsində torpaq coğrafiyası fənnindən dərs demiş, yüksəkixtisaslı kadrların hazırlanmasına böyük əmək sərf etmişdir.

M.Salayevin rəhbərliyi ilə taxıl, otlaq və pambıq bitkiləri torpaqlarının keyfiyyət səviyyəsi və bonitirovkası üzrə tədqiqatlar aparılmışdır. Onun təşəbbüsü ilə Azərbaycan Elmlər Akademiyasının Torpaqşünaslıq və Aqrokimya İnstitutunda "Torpaqların aqroekologiyası və bonitirovkası" laboratoriyası yaradılmışdır. Bu gün mövcud nəzəri və təcrübi tədqiqatlarla yanaşı, respublika dövlət kadastrı üzrə işlər də həmin laboratoriyada yerinə yetirilir. Bundan başqa, görkəmli alimin təklifi əsasında torpaq ehtiyatlarından səmərəli istifadə edilməsi və müasir torpaqların ekoloji şəraitinin dərindən öyrənilməsi məqsədilə 1984-1987-ci illərdə "Torpaq ehtiyatları" və "Torpaqların stasionar tədqiqatları" laboratoriyaları fəaliyyətə başlamışdır. Məhz 1986-1996-cı illərdə onun və torpaqşünas coğrafiyaçılar kollektivinin gərgin əməyi sayəsində 84 planşetdən ibarət ortamiqyaslı (1:100000) "Azərbaycan Respublikasının Dövlət Torpaq Xəritəsi"nin tərtibi başa çatmışdır. M.Salayev 200-dən artıq elmi əsərin, müxtəlif xəritələrin və 6 monoqrafiyanın müəllifidir. Müasir torpaqşünas alimlərin müəllimi olmuş Məmmədəmin Salayevin həyat yolu hamımız üçün nümunədir.

1972-ci ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü seçilən M.Salayev elmi-pedaqoji və ictimai xidmətlərinə görə bir sıra dövlət mükafatlarına, 1979-cu ildə Azərbaycan SSR Ali Sovetinin fəxri fərmanına, 1990-cı ildə Əməkdar elm xadimi adına layiq görülmüşdür. M.Salayev SSRİ Nazirlər Sovetinin Elm və Texnika üzrə Komissiyasının üzvü, Ümumittifaq Torpaqşünaslar Cəmiyyətinin fəxri üzvü, Azərbaycan EA Rəyasət Heyətinin nəzdindəki "Kənd təsərrüfatının elmi əsasları" komissiyasının, Azərbaycan EA Torpaqşünaslıq və kənd təsərrüfatı üzrə terminologiya komissiyasının, Azərbaycan Kənd Təsərrüfatı Nazirliyinin elmi-texniki şurasının, Azərbaycan Nazirlər Soveti yanında Təbiəti müdafiə üzrə elmi-texniki şuranın üzvü və s. ictimai işlərdə fəaliyyətini davam etdirməklə şərəfli alim ömrü yaşamışdır. SSRİ Torpaqşünaslarının II, III, IV, V, VI qurultaylarında müxtəlif mövzularla çıxış və iştirak etməklə Azərbaycanda torpaqşünaslıq elminin inkişafına imza atmışdır.

1993-1998-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ali Attestasiya Komissiyasının Biologiya və kənd təsərrüfatı sahələri üzrə ekspert komissiyasının üzvü, AMEA Biologiya Elmləri Bölməsində büro üzvü, AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutunda doktorluq və namizədlik dissertasiyalarının müdafiəsi üzrə İxtisaslaşdırılmış Şuranın sədri kimi fəaliyyət göstərən M.Salayev "Torpaqşünaslıq və Aqrokimya terminləri lüğəti" (2004) kitabının hazırlanmasında yaxından iştirak etmişdir. Bundan başqa, AMEA-nın müxbir üzvü M.Salayevin tələbələri ilə müştərək hazırladığı "Azərbaycan torpaqlarının morfo-genetik profili" (2004) monoqrafiyası mütəxəssislər və tədqiqatçıların stolüstü kitabına çevrilmişdir.

M.Salayev 1953-1954, 1983-1987-ci illərdə Azərbaycan Elmlər Akademiyası Torpaqşünaslıq və Aqrokimya İnstitutunun direktoru vəzifəsində çalışmışdır. Qürur duyuram ki, Məmmədəmin Salayev kimi görkəmli torpaqşünas alim və pedaqoqla uzun müddət təmasda olmuşam. 2003-cü ildə hazırladığımız "Azərbaycan Dövlət Torpaq Xəritəsinin Legendası", tərtib etdiyim "Torpaqşünaslıq və Torpaq Coğrafiyasının əsasları" (2007) adlı ali məktəblər üçün dərsliyin müxtəlif fəsillərində və "Coğrafi informasiya sistemləri əsasında interaktiv elektron torpaq və torpaqların ekoloji qiymət xəritələrinin tərtibinə dair metodiki göstəriş"in hazırlanmasında M.Salayevin yaradıcılığından istifadə etməyi elmi qanunauyğunluq, böyük alimin adının bugünkü və gələcək coğrafiyaşünas, torpaqşünas mütəxəssislərin yaddaşlarında əbədiləşdirməyi özümə borc bilmişəm.

***Qərib MƏMMƏDOV,***
***Azərbaycan Milli Elmlər Akademiyasının Aqrar məsələlər üzrə müşaviri, akademik***

# Bank kapitalının və onun adekvatlığının hesablanması qaydalarına dəyişiklik olunub

Məlum olduğu kimi, ölkədə iqtisadiyyatın diversifikasiyası, şəffaflığın daha da artırılması, maliyyə vasitəçiliyinin genişləndirilməsi istiqamətində kompleks tədbirlər aparılmaqdadır.

Görülmüş işlər, o cümlədən nağdsız hesablaşmalara dair qanunun qəbul edilməsi, Prezidentin problemli kreditlərin həllinə dair fərmanının icrası, habelə bank sektorunun kapitalizasiyası maliyyə sabitliyinin bərpası və sektorda likvid vəsaitlərin artımını şərtləndirmişdir.

Bundan əlavə, Daşınar Əmlakın Yüklülüyü Dövlət Reyestrinin fəaliyyətə başlaması və aktiv istifadə olunması biznes kreditlərinin təminatlılığı problemini əhəmiyyətli dərəcədə azaltmış, həmçinin ölkəmizdə aparılan vergi və gömrük islahatları, KOS-ların maliyyələşdirilməsi mexanizmlərinin artırılması və bu istiqamətin prioritetləşməsi onların gəlirlərinin artacağı ehtimalını yüksəltmişdir.

Bütün qeyd olunanların fonunda Maliyyə Bazarlarına Nəzarət Palatası (MBNP) tərəfindən "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları"na dəyişikliklər edilmişdir. MBNP-dən verilən məlumatda bildirilir ki, dəyişikliklər Prezident İlham Əliyevin iqtisadiyyatın real sektoruna kreditləşmənin artırılması çağırışını özündə ehtiva edir. Belə ki, qaydalara edilmiş əsas dəyişikliklərdən biri KOS subyektlərinə və qeyri-neft sektoru üzrə ixracın maliyyələşməsinə verilən kreditlərin risk dərəcələrinin azaldılmasıdır. Risk dərəcələrinin azaldılması banklara onların mövcud kapitalları çərçivəsində daha çox biznes krediti vermək imkanı yaratmaqla toplanmış resursların həmin sahələrə yönləndirilməsini daha maraqlı edir. Bu isə makro səviyyədə biznes subyektlərinin maliyyə əlçatanlığının artrırılması və iqtisadiyyatın diversifikasiyasına təkan verəcək.

Dəyişikliklər layihəsində həmçinin məsuliyyətli kreditləşmə və sağlam borclanma ilə bağlı həyata keçirilən prudensial siyasətin daha səmərəli təşkili və spekulyativ halların aradan qaldırılması ilə bağlı məsələlər də mövcuddur. Belə ki, qaydalarda istehlak kreditləri üzrə risk dərəcələrinin müəyyənləşdirilməsi zamanı borcun gəlirə nisbəti, faiz dərəcəsi, müddət və valyutasından asılı olaraq differensial və daha sərt yanaşma tətbiq edilmişdir.

Qaydalarda eyni zamanda requlyativ çərçivənin beynəlxalq standartlara uyğunlaşdırılması ilə bağlı dəyişikliklər də yer almışdır. Misal kimi, kredit riskləri üzrə BASEL II Yeni Standart Yanaşmaya tam keçidin edilməsi, o cümlədən beynəlxalq reytinq agentlikləri tərəfindən verilmiş reytinqlər əsaslı suveren və korporativ qiymətli kağızların risk dərəcələri üzrə təsnifləşdirilməsi göstərilə bilər. Bununla yanaşı, Bazel II və III nəsil prinsiplərinin tətbiqi məqsədilə qaydalara bazar və əməliyyat risklərinə qarşı kapital buferi formalaşdırılması tələbi əlavə edilmişdir. Bu cür tələblərin gətirilməsi prudensial tənzimləmənin beynəlxalq səviyyəyə qaldırılması, bank sektorunun kredit risklərindən əlavə bazar və əməliyyat risklərinə qarşı dayanıqlılığının artmasının göstəricisidir. Həmin tələblərlə yanaşı, prudensial çərçivənin Bazel III nəsil prinsiplərinə uyğunlaşdırılması məqədilə kapital adekvatlığı əmsallarının hesablanması zamanı kontr-tsiklik kapital buferinin nəzərə alınması tələbi əlavə edilmişdir. Kontr-tsiklik kapital buferi makroprudensial alət olaraq bank sektorunun izafi kreditləşməsinin nəticəsi olan sistem risklərinin qarşısının alınması və tsiklik proseslərə həssaslığının azaldılmasını nəzərdə tutur. Bütövlükdə nəzarət orqanlarına kontr-tsiklik kapital buferinin tətbiq edilməsi gücünün verilməsi izafi kreditləşmə dövrlərində kreditləşmənin artım tempinin azaldılması, habelə adekvat kapital buferinin formalaşdırılması imkanı yaradır.




# 9 ayda ölkə üzrə 6,2 milyard manatlıqdan çox kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur



Əvvəli 1-ci səh.

Beləliklə, qarğıdalı dəni də nəzərə alınmaqla ölkə üzrə taxıl istehsalı 3 milyon 385,9 min tona çatmışdır.

DSK-nın hesabatında o da bildirilir ki, 9 ay ərzində sahələrdən həmçinin 1 milyon 443,3 min ton (əvvəlki ilin eyni dövrünə nisbətən 11,2 faiz çox) tərəvəz, 939,7 min ton (10,2 faiz çox) kartof, 445,1 min ton (12,4 faiz çox) bostan məhsulları, 656,8 min ton (11,7 faiz çox) meyvə və giləmeyvə, 165,4 min ton (48,8 faiz çox) üzüm, 647,5 ton (12,1 faiz az) yaşıl çay yarpağı, 33,7 min ton (41,1 faiz çox) günəbaxan, 67,6 min ton (59,7 faiz az) şəkər çuğunduru, 76,8 min ton (75,4 faiz çox) pambıq və 4,3 min ton (10,7 faiz çox) tütün yığılmışdır.

Heyvandarlıq sahəsinə gəldikdə, burada vəziyyət fərqlidir. Belə ki, hesabat dövründə ölkə üzrə 2 milyon 669,4 min baş qaramal, o cümlədən 1 milyon 284 min baş inək və camış, 8 milyon 451,9 min baş isə qoyun və keçi olmuşdur. Keçən ilin eyni dövrünə nisbətən qaramalın sayı 17,1 min (0,6 faiz), o cümlədən inək və camışların sayı 7 min (0,5 faiz), qoyun və keçilərin sayı 97,5 min baş azalmışdır.

Əvəzində ötən ilin müvafiq dövrü ilə müqayisədə ölkə üzrə diri çəkidə ət istehsalı 2,7 faiz artaraq 375,5 min, süd istehsalı 1,5 faiz artaraq 1 milyon 574 min ton olmuşdur. Eyni zamanda, 9 ay ərzində yumurta istehsalı 1 milyon 386,1 min ədədə (7 faiz çox), yun istehsalı 15,8 min tona (1.4 faiz çox) çatmışdır. Bunlardan savayı, ölkədə 643,7 ton (25,3 faiz çox) barama da istehsal edilmişdir.

Ümumilikdə 9 ay ərzində Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalı 7,1, o cümlədən bitkiçilik məhsullarının istehsalı 11, heyvandarlıq məhsullarının istehsalı 3,1 faiz artmışdır. İstehsal edilən bu məhsulların faktiki qiymətlərlə dəyəri isə 6 milyard 273,8 milyon manat olmuşdur ki, onun da 2 milyard 966,5 milyon manatlığı heyvandarlıq, 3 milyard 307,3 milyon manatlığı bitkiçilik məhsullarının payına düşür.

*"Azərbaycan"*

# Beyləqanda intensiv yemçilik layihəsi həyata keçirilir

Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Elm və İnnovasiya Mərkəzi fermerlərin elmi təminatının gücləndirilməsi məqsədi ilə yeni innovativ layihələrin həyata keçirilməsinə başlayıb. Həmin layihələr çərçivəsində mərkəzin tabeliyində fəaliyyət göstərən elmi-tədqiqat institutlarının, regional aqrar elm mərkəzlərinin əkin strukturu təkmilləşdirilməklə, idxalı əvəz edən ərzaq və yem bitkilərinin nümayiş əkinləri təşkil olunmaqla son elmi-texniki nailiyyətlərin fermerlərə çatdırılması təmin ediləcək.

Artıq Kürdəmir Regional Aqrar Elm və İnnovasiya Mərkəzində Almaniyanın "Claas" şirkəti ilə birgə taxıl bitkilərinin yeni üsulla səpini həyata keçirilib, səpin prosesi bölgə fermerlərinə nümayiş etdirilib. Növbəti addım kimi Beyləqan Regional Aqrar Elm və İnnovasiya Mərkəzində məhsuldar yem bitkilərinin əkininə başlanılıb. Mərkəzin əkin sahəsində Türkiyənin "Magnum-V" yonca toxumunun nümayiş səpini həyata keçirilib.

Fermerlərin diqqətinə çatdırılıb ki, ölkədə heyvandarlığın intensiv yolla inkişafı nəzərə alınaraq yem təminatının gücləndirilməsi üçün adıçəkilən yonca sortunun əkin sahəsi yaradılır. Gələcəkdə "Magnum-V" sortunun toxumçuluğu təşkil edilərək yem əkinçiliyi ilə məşğul olan fermerlər arasında yayılacaq. Daha sonra bildirilib ki, indiyə qədər əkin dövriyyəsində tətbiq edilmiş yonca sortlarından fərqli olaraq "Magnum-V" bir sıra bioloji-potensial üstünlüklərə malikdir. Bu sortun yerli torpaq-iqlim şəraitinə adaptasiyası yüksəkdir, xəstəlik və zərərvericilərə qarşı dözümlüdür, hər hektara düşən toxum materialının həcminə (2,5-3 kq) qənaət olunur. Üstəlik, bu sortun hər biçinarası vaxtı qısadır, təsərrüfat dövrü uzundur, protein tərkibi zəngin olduğu üçün (28 faiz) xırda və iribuynuzlu heyvanlar arasında sürətli çəki və süd artımını təmin edir. Boy hündürlüyü yüksək, yəni 75-85 sm olduğu üçün yaşıl kütlə çıxımı daha çoxdur. Vegetasiya dövrünə uyğun olaraq bir ildə 6 dəfə biçmək mümkündür.

# Cari il pambıqçılıqda müstəqillik dövrünün rekorduna imza atılır

## Bu, məhsuldarlığın artırılması hesabınadır

**Bu il Azərbaycanın müstəqillik tarixində rekord həddə pambıq yığımı proqnozlaşdırılır. Kənd Təsərrüfatı Nazirliyinin yaydığı məlumata görə, cari il ölkənin 20 rayonunda 100,111 hektar sahədə pambıq əkilib ki, bu da ötən illə müqayisədə 32401 hektar azdır.**

Buna baxmayaraq, orta məhsuldarlıq göstəricisi yüksəlib. Ötən il pambıq yığımında məhsuldarlıq hektardan 17,6 sentner olmuşsa, cari ilin oktyabrında həmin rəqəm 7,9 sentner artaraq 25,5 sentnerə çatıb. Nəzərə alsaq ki, yığım davam edir, bu rəqəmin də artacağı şübhəsizdir.

Məhsuldarlığın artmasına səbəb aqrotexniki qulluq qaydalarına riayət olunması, gübrə ilə təminatın yüksək səviyyədə həyata keçirilməsi, məhsulun sahələrdən texnika ilə itkiyə yol verilmədən yığılmasıdır. Xatırladaq ki, 2018-ci ildə də pambıq sahələrində yığımın 90 faizdən çoxu pambıqyığan kombaynlar vasitəsilə həyata keçirilmişdi.

Cari il pambığın texnika ilə kütləvi yığımına sentyabrın 24-də start verilib və ötən müddət ərzində qəbul məntəqələrinə son məlumata görə, 257,7 min tondan artıq pambıq təhvil verilib. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 76,4 min, 2018-ci ilin yekun nəticəsi ilə müqayisədə isə 31 min ton çoxdur.



Artıq pambıq yığımı yekun mərhələyə qədəm qoyub. Sahələrdən birinci üz yığım yekunlaşmaq üzrədir, ikinci üz yığımın isə 50 faizi başa çatıb. Bu il ən çox pambıq Saatlı (13741 hektar), Ağcabədi (10452 hektar), Biləsuvar (10257 hektar), Bərdə (10140 hektar) və Beyləqan (9706 hektar) rayonlarında əkilib. Yığılan pambığın yarıdan çoxu bu rayonların payına düşür.

Pambıq yığımı davam edir.

# İşlərimizin qızğın çağıdır

Ağcabədidə kənd əhalisinin faydalı məşğulluğunu təmin etmək, strateji məhsul sayılan, eyni zamanda kifayət qədər gəlirli sahə olan pambıqçılığı inkişaf etdirmək istiqamətində həyata keçirilən təşkilat-təsərrüfat tədbirlərinin nəticəsi fərəhlidir. Rayonumuz ölkənin pambıqçılıq rayonları arasında öncül mövqeyini ildən-ilə daha da möhkəmləndirir.

Bu baxımdan cari il də istisna deyil. Hazırda rayonun təsərrüfatlarında pambıq yığımının qızğın çağıdır. Məqsəd böyük zəhmət bahasına yetişdirilmiş məhsulu tez və itkisiz yığıb təhvil verməkdir. İndiyədək 30 min tondan çox "ağ qızıl" tədarük olunmuşdur. Hələlik hər hektarın orta məhsuldarlığı 25,5 sentnerdir. Hələ yığılmamış xeyli sahə var. Əminliklə deyə bilərik ki, mövsümün sonunda orta məhsuldarlıq 30 sentnerdən az olmayacaq.

Torpağı münbit, suyu bol, sakinləri bacarıqlı və işgüzar olan Ağcabədidə taxılçılığın inkişafına da böyük önəm verilir. Ağcabədi kəndlisi pambıqçılıqda olduğu kimi, taxılçılıqda da böyük nailiyyətlərə imza atır. Bu ilin məhsulu üçün rayonumuzda 29175 hektar sahədə taxıl əkib becərilmiş, 105322 ton taxıl istehsal olunmuşdur.

"Qarabağ Taxıl" və "Kroun Ko" MMC-lər yüksək nəticələr qazanmışlar. Haramı düzündə suvarılmayan ərazilərə əkilmiş taxıl zəmilərindən dəmyə şəraitində məhsuldarlıq 24 sentner olmuşdur. Rayonun ərazi vahidləri üzrə buğda zəmilərinin orta məhsuldarlığı ilk dəfə 49,2 sentnerə yüksəlmişdir. Dövlətin taxılçılığın inkişafına verdiyi güclü dəstək, rayon rəhbərliyinin məqsədyönlü təşkilatçılığı qazanılan nailiyyətlərin əsas şərtidir. Dövlət dəstəyindən danışarkən bir faktı minnətdarlıqla qeyd etmək istəyirəm. Bu il rayonumuzda taxılçılığın inkişafına 2 milyon 132,4 min manat subsidiya verilmişdir.

Artıq gələn ilin məhsulu üçün taxıl səpininə başlamışıq. Keyfiyyətli toxum fondu yaradılmışdır. İbrahim Ağamirovun, Əfqan Quliyevin, İzzət Paşayevin rəhbərlik etdikləri toxumçuluq təsərrüfatları üzərlərinə düşən vəzifənin öhdəsindən bacarıqla gəlirlər. Onların istehsal etdikləri toxum yüksək keyfiyyəti ilə torpaq istifadəçilərini razı salır. Yenə də "Qızılgül", "Murov-2", "Əzəmətli-95" buğda, "Qarabağ-22" və "Qarabağ-33" arpa sortlarına üstünlük verilir.

Gələn ilin məhsulu üçün 29 min hektarda taxıl əkməyi nəzərdə tuturuq. Artıq 10 min hektardan çox sahədə səpin aparılmışdır. Səpində aqrotexniki tələblərə ciddi əməl olunmasına xüsusi fikir verilir. Bir sözlə, işlərimizin qızğın çağıdır. Pambıq yığımı, taxıl səpini fasiləsiz davam edir.

***Abbas SÜLEYMANOV,***
***Ağcabədi Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru***

# Xanəgahlılar arzularına qovuşdular

## Kəndi ikiyə bölən çayın üzərində yeni körpü salınıb

Azərbaycanın inkişaf dinamikasının əsas prioritetlərindən biri də region və paytaxtdan kənarda yerləşən yaşayış massivlərinin simasının dəyişməsidir.



Ölkənin şimal qapısı sayılan Qubanın da təkcə siması dəyişməmiş, iqtisadiyyatı da inkişaf etmişdir. Rayonun infrastrukturu yenidən qurulmuş, o cümlədən yollar abadlaşdırılmış, təzə körpülər salınmışdır.

Xanəgah kəndi uzun illər yolla bağlı problemlərlə üzüzə qalmışdı. Qeyd edək ki, kənddə 700 nəfərə yaxın əhali yaşayır. Kəndin məktəbi çayın sol sahilində yerləşir. Əhalinin 20 faizdən çoxu isə çayın sağ sahilində məskən salıb. Bu səbəbdən xüsusilə məktəblilər dərsə gedib-gələrkən çayı keçməkdə böyük çətinliklərlə üzləşirdilər.Yeni körpünün istifadəyə verilməsi ilə artıq bu çətinliklər arxada qalıb.

İnşaat işlərini 11 nömrəli Xüsusi Təyinatlı Yol İstismarı MMC aparıb. Çayın vadisi 3 metr dərinlikdə qazılaraq körpünün özülü qoyulub, dəmir konstruksiyalar qaynaqlanıb, su nizamlayıcı bənd tikilib. 20 metr uzunluqda olan dəmir konstruksiyalı körpünün hərəkət zolağı 6, hündürlüyü 4 metrdir. Piyadaların rahat hərəkətini tənzimləmək məqsədilə kənarlarda səki qoyulub. Yeni inşa olunmuş bu körpüdən, habelə yüksək tonnajlı yük maşınları da keçə biləcək. Bunlardan əlavə, körpünün ətrafı asfaltlanıb, kəndin baş yolu təmir edilib.

Məlumat üçün bildirək ki, ölkə rəhbərinin sərəncamlarına uyğun olaraq ötən il 12 yaşayış məntəqəsini birləşdirən Rustov-Şuduq-Növdün, Rustov-Xanəgah yolu tam asfaltlanıb. Hazırda 5000 nəfər əhalinin yaşadığı 5 yaşayış məntəqəsini birləşdirən Quba-Qusar-Alpan-Kürkün-Susay avtomobil yolunda qızğın iş gedir. Bu yolların tikintisi və yenidən qurulması üçün 13,4 milyon manat vəsait ayrılıb. Quba-Qonaqkənd yolunda isə tikinti işləri artıq başa çatıb. Ümumilikdə son 2 ildə Quba rayonunda 2 milyon kvadratmetrə yaxın yol asfaltlanıb.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# İlk dəfə olaraq yaş meyvə-tərəvəzlərdə və istixanalarda fumiqasiya tədbirləri görülüb

Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin Fumiqasiya (zərərsizləşdirmə) Mərkəzi tərəfindən ilk dəfə olaraq yaş meyvə-tərəvəzlərdə və istixanalarda fumiqasiya tədbirləri həyata keçirilib. Tədbirdə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) və Bitki Mühafizəsi və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutunun əməkdaşları iştirak ediblər.

Nazirliyin yaydığı məlumatda bildirilir ki, tədbir çərçivəsində ölkədə ilk dəfə yaş meyvə-tərəvəzin fumiqasiyasında istifadə olunan "ECO2FUME" fumiqantının sınağı keçirilib. Fumiqasiya tədbirləri eyni zamanda istixana şəraitində pomidor güvəsinə qarşı da aparılıb. İlkin məlumata görə, qeyd olunan preparatın tətbiqi zamanı pomidor güvəsinin (tuta absoluta) və başqa zərərvericilərin bütün bioloji inkişaf mərhələlərində məhv edildiyi aşkarlanıb.

Qeyd edək ki, zərərsizləşdirmə tədbirləri həyata keçirilən zaman şəxsi və ictimai təhlükəsizlik qaydaları ciddi gözlənilir, fərdi mühafizə vasitələrindən (əleyhqaz, xüsusi geyim forması-kombinezon, xüsusi ayaqqabı, əlcəklər və ilkin tibbi yardım çantalarından) istifadə olunur, eləcə də fermerlərə və sahibkarlara zərərsizləşdirmə tədbirlərinin həyata keçirilməsinin zəruriliyi və bu tədbirlər zamanı təhlükəsizlik qaydalarına əməl olunması izah edilir. Bildirilir ki, zərərsizləşdirmə tədbirlərinin yerinə yetirilməsi karantin nəzarətində olan məhsulların becərilməsi, tədarükü, saxlanması, daşınması, emalı, satışı, habelə onların idxalı, tranziti və ixracı ilə məşğul olan hüquqi və fiziki şəxslər üçün məcburidir. Onlar həmçinin fitosanitar tədbirlərin pozulmasına görə qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

# Üzüm-şərab istehsalında innovativ texnologiyalara meydan verilir

**Ölkənin qərb bölgəsində üzümçülük-şərabçılıq sahəsində fəaliyyət göstərən kiçik və orta fermer təsərrüfatları üçün Şəmkir Dövlət Aqrar İnkişaf Mərkəzində "Üzüm-şərab istehsalında beynəlxalq standartların və innovativ texnologiyaların tətbiqi" mövzusunda təlim keçirilib.**

Kənd Təsərrüfatı Nazirliyinin yaydığı məlumata görə, Almaniya Federal İqtisadi Əməkdaşlıq və İnkişaf Nazirliyi (BMZ) tərəfindən maliyyələşdirilən və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ) tərəfindən icra edilən "Cənubi Qafqazda Özəl Sektorun İnkişafı və Texniki Peşə Təhsili və Təlimi" regional proqramı çərçivəsində keçirilən və Aqrar Elm və İnnovasiya Mərkəzinin Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutu ilə birgə təşkil olunan təlimin əsas məqsədi Azərbaycanda özəl sektorun inkişafına dəstək olmaq, peşə təhsili və təlimi sahəsinə xüsusi diqqət yetirərək iqtisadi inkişaf proseslərinin planlaşdırılması və icrasının yaxşılaşdırılmasıdır.

Təlimdə institutun direktoru, aqrar elmlər üzrə elmlər doktoru Vüqar Səlimov "Üzümçülükdə innovativ becərmə texnologiyaları, risklər və onlara qarşı tədbirlər" mövzusunda çıxış edərək aqrotexniki, aqrokimyəvi, inteqrir mübarizə tədbirləri, üzümçülükdə risk amilləri və qarşıya çıxan risklərin mənfi təsirlərindən sığortalanmaq məqsədilə preventiv tədbirlər, o cümlədən Gəncə-Qazax bölgəsində, xüsusən də Şəmkir, Göygöl, Tovuz rayonlarında üzümçülük və şərabçılığın inkişaf tarixi, bölgənin aqropotensialı, üzümçülüyün inkişaf perspektivliyi ilə bağlı məlumat verib. Qeyd olunub ki, Şəmkir, Göygöl və Tovuz rayonları üzümçülüyün qədim vətənlərindən olmaqla yanaşı, Azərbaycanda sənaye üzümçülüyünün ilk inkişaf etdiyi ərazilərdəndir. Vaxtilə bu rayonlarda məskunlaşmış alman koloniyaçıları şərabçılığın sənaye üsulu ilə inkişafını həyata keçirmişlər. 80-ci illərdə bu üç rayon üzrə üzümlüklərin sahəsi 30 min hektardan çox idi. Həmçinin bu bölgədə yaşayan əhali üzümçülüklə məqsədyönlü şəkildə məşğul olaraq Azərbaycanda əhəmiyyətli yer tutan onlarla qiymətli yerli üzüm sortlarını təbiətə bəxş etmişdir. Vaxtilə bölgənin düzən ərazilərində bitən texniki üzümlərdən yüksək keyfiyyətli desert şərablar - Qaraçanaq, Azərbaycan; markalı portveynlər - Ağstafa, Alabaşlı; ordinar Portveyn "777", Qarayeri, Qızıl şərbət, Dəllər; turş süfrə şərabları Alşərab № 25, Sadıllı; kəmşirin Tovuz şərabı və s. istehsal olunurdu. "Azərbaycanın ən məhsuldar texniki üzüm sortu olan Bayanşirə və qiymətli süfrə istiqamətli üzüm sortu olan Təbrizi bölgənin ən qədim aborigen üzüm sortlarındandır. Həmçinin bu bölgədə aborigen üzüm sortlarından Gəncə qızıl üzümü, Gəncə qara keçiməməsi, Tatlı, Qaraşirə və Şal üzümü də geniş əkilib-becərilir. Bu bölgə süfrə üzümü, süfrə, desert və tünd şərablar, şampan, konyak və konyak materialı, üzüm şirəsi istehsalı üçün perspektivlidir" deyə V.Səlimov bildirib.

Tədbirin ikinci hissəsində institutun "Üzümün emalı və şərabın texnologiyası" şöbəsinin müdiri, texnika üzrə fəlsəfə doktoru, dosent Teymur Musayev "Beynəlxalq standartlara əsaslanan şərab istehsalı" mövzusundakı çıxışında şərabların təsnifatı, ağ və qırmızı şərabların istehsal texnologiyası, şərabların keyfiyyətinin qiymətləndirilməsi ilə bağlı məlumat verib.

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

## Mərkəzi Seçki Komissiyasının iclası keçirilib

Oktyabrın 31-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib.

MSK Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, əvvəlcə komissiyanın 23 oktyabr və 28 oktyabr tarixlərində keçirilmiş iclaslarının protokolları təsdiq edilib.

Sonra 2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində Yeni Azərbaycan Partiyası, Vətəndaş Birliyi Partiyası, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası, Milli Dirçəliş Hərəkatı Partiyası, Azərbaycan Demokratik Maarifçilik Partiyası, Azərbaycan Sosial Demokrat Partiyası, Azərbaycan Ümid Partiyası və Ana Vətən Partiyasının səlahiyyətli nümayəndələrinin qeydə alınması məsələsinə baxılıb və sözügedən partiyalar tərəfindən təqdim olunmuş şəxslər səlahiyyətli nümayəndələr kimi qeydə alınıb.

Kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirak etdiyi iclasda, həmçinin bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişikliklər olunub və cari məsələlərə baxılıb.

**Qərar № 10/35**

### Mərkəzi Seçki Komissiyasının 23 oktyabr və 28 oktyabr 2019-cu il tarixli iclas protokollarının təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 23 oktyabr və 28 oktyabr 2019-cu il tarixli iclaslarının protokolları təsdiq edilsin.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*31.10.2019-cu il*

**Qərar № 10/36**

### 2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində Yeni Azərbaycan Partiyasının səlahiyyətli nümayəndələrinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində Yeni Azərbaycan Partiyası İdarə Heyətinin 2019-cu il 25 oktyabr tarixli iclasının qərarı ilə səlahiyyətli nümayəndələr təyin olunmuş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Mərkəzi Seçki Komissiyasına təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün hüquqi əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində aşağıdakı şəxslər Yeni Azərbaycan Partiyasının səlahiyyətli nümayəndələri kimi qeydə alınsınlar:

Vüsal Fəxrəddin oğlu Əliyev
Salman Yaşar oğlu Salmanov

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*31.10.2019-cu il*

**Qərar № 10/37**

### 2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində Vətəndaş Birliyi Partiyasının səlahiyyətli və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində Vətəndaş Birliyi Partiyası Rəyasət Heyətinin 2019-cu il 25 oktyabr tarixli iclasının qərarı ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin olunmuş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Mərkəzi Seçki Komissiyasına təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün hüquqi əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində aşağıdakı şəxslər Vətəndaş Birliyi Partiyasının səlahiyyətli və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri kimi qeydə alınsınlar:

1.1. Səlahiyyətli nümayəndələr:

Azər Garay oğlu Paşayev
Ağarəhim Gülağa oğlu Şiriyev

1.2. Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə:
Almaz Əziz qızı Əzizova

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*31.10.2019-cu il*

**Qərar № 10/38**

### 2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının səlahiyyətli və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası Ali Məclisinin 2019-cu il 26 oktyabr tarixli iclasının 3 və 4 saylı qərarları ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin olunmuş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Mərkəzi Seçki Komissiyasına təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün hüquqi əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində aşağıdakı şəxslər Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının səlahiyyətli və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri kimi qeydə alınsınlar:

1.1. Səlahiyyətli nümayəndələr:
Yaşar Rəşid oğlu Kələntərov
Əli Səvindik oğlu Həzquluyev
Nəsimi Vələd oğlu İsayev
Vaqif Şirin oğlu Abışov
Nəzakət Kamran qızı Məmmədova
Yeganə Kazım qızı Mehdiyeva
Yaşar Qəzənfər oğlu Məmişov
Faiq İslam oğlu İsmayılov
Bünyamin Nağdəli oğlu Qəmbərli
Mahir Həmzə oğlu Zeynalov

1.2. Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə:
İlqar Əlixan oğlu Məmmədxanov

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*31.10.2019-cu il*

**Qərar № 10/39**

### 2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində Milli Dirçəliş Hərəkatı Partiyasının səlahiyyətli və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində Milli Dirçəliş Hərəkatı Partiyası Ali Məclisinin 2019-cu il 20 oktyabr tarixli iclasının qərarı ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin olunmuş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Mərkəzi Seçki Komissiyasına təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün hüquqi əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində aşağıdakı şəxslər Milli Dirçəliş Hərəkatı Partiyasının səlahiyyətli və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri kimi qeydə alınsınlar:

1.1. Səlahiyyətli nümayəndələr:
Şakir Pünhan oğlu Ağayev
Tahir Tofiq oğlu Seyidov
Həsrət Əhməd oğlu Fərzəliyev

1.2. Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə:
Çingiz Yusif oğlu Əhədli

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*31.10.2019-cu il*

**Qərar № 10/40**

### 2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində Azərbaycan Demokratik Maarifçilik Partiyasının səlahiyyətli və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində Azərbaycan Demokratik Maarifçilik Partiyası Ali Məclisinin 2019-cu il 20 oktyabr tarixli iclasının qərarı ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin olunmuş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Mərkəzi Seçki Komissiyasına təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün hüquqi əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində aşağıdakı şəxslər Azərbaycan Demokratik Maarifçilik Partiyasının səlahiyyətli və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri kimi qeydə alınsınlar:

1.1. Səlahiyyətli nümayəndələr:
Pənah Abbas oğlu Həmzəyev
Kənan Qulu oğlu Əsədov

1.2. Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə:
Vüsal Saleh oğlu İsmayılov

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*31.10.2019-cu il*

**Qərar № 10/41**

### 2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində Azərbaycan Sosial Demokrat Partiyasının səlahiyyətli və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində Azərbaycan Sosial Demokrat Partiyası Plenumunun 2019-cu il 19 oktyabr tarixli iclasının qərarı ilə səlahiyyətli nümayəndə və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin olunmuş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Mərkəzi Seçki Komissiyasına təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün hüquqi əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində aşağıdakı şəxslər Azərbaycan Sosial Demokrat Partiyasının səlahiyyətli və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri kimi qeydə alınsınlar:

1.1. Səlahiyyətli nümayəndə:
Sevda Xanhüseyn qızı Əliyeva

1.2. Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə:
Rauf Rafiq oğlu Babayev

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*31.10.2019-cu il*

**Qərar № 10/42**

### 2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində Azərbaycan Ümid Partiyasının səlahiyyətli və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində Azərbaycan Ümid Partiyası Ali Məclisinin 2019-cu il 26 oktyabr tarixli sessiyasının qərarları ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələr təyin olunmuş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Mərkəzi Seçki Komissiyasına təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün hüquqi əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində aşağıdakı şəxslər Azərbaycan Ümid Partiyasının səlahiyyətli və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri kimi qeydə alınsınlar:

1.1. Səlahiyyətli nümayəndələr:
İqbal Fehruz oğlu Ağa-zadə
Ənvər Sərdar oğlu Ağazadə
Rəfail Alı oğlu Tağızadə
Taleh Məhəmməd oğlu Əliyev
Qasım Rəhim oğlu Həsənov
Səməd Əbdüləli oğlu Hətəmov
Rüfət Habil oğlu Muradlı
Anar Rafiq oğlu İsayev
Faiq Həsən oğlu Əliyev
Tamilla Famil qızı Qulami
Günel Mahmud qızı İbadova
Mehriban İbrahim qızı Sadıqova
Vidadi Vaqif oğlu Səfərov
Elşən Nadir oğlu Quliyev
Əhlula Beydulla oğlu Məmmədov
Kəbir Cəlil oğlu Rzayev
Əli Ağadədə oğlu Əliyev
Ramiz Adil oğlu Əlizadə
Nurməmməd Əlövsət oğlu Mahmudov
Əlibala Sahib oğlu Əliyev
Ərşad Fərhad oğlu Əhmədov
Süleyman Salman oğlu Kərimov
Məhəmməd İslam oğlu Tağıyev
Beyrəy Baris oğlu Hüseyinov
İldırım Məhyəddin oğlu Qocayev
Camaləddin Əli oğlu İlyasov
Faiq Mehdi oğlu Heydərov
Əhməd Yusif oğlu Yusifov
Elman Musa oğlu Musayev
Saleh Sarı oğlu Məmmədov
İlqar Həmid oğlu Məhərrəmli
Natiq Musa oğlu Səfərov
Malik Məhərrəm oğlu Fərzəliyev
Salman Məhəmməd oğlu İmanlı
Səfa İslam qızı Orucova
Vəzir Ataxan oğlu Gülalıyev
Cavid Vəlid oğlu Siyahov
Emin Şahvələd oğlu Nağıyev
Şəmsəddin Davud oğlu Ağayev
Elsevər Sədi oğlu Şükürov
Şamil Cəlil oğlu Asafov
Firəddin Süleyman oğlu Qəhrəmanov
Seyfi İnqilab oğlu Həsənov
Adil Miriş oğlu Qulami
Aslan İsmayıl oğlu Əzimov
Əslan Seyran oğlu Əliyev
Möhübbət Nəriman oğlu Cabbarov
Artur Müşviq oğlu Sadıqov
Bəybala Əşrəf oğlu Əliyev

1.2. Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələr:

İlahə Artur qızı Sadıqova
Elman Abdulla oğlu Abbasov

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*31.10.2019-cu il*

**Qərar № 10/43**

### 2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində Ana Vətən Partiyasının səlahiyyətli və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində Ana Vətən Partiyası Ali Məclisinin 2019-cu il 26 oktyabr tarixli iclasının qərarı ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin olunmuş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Mərkəzi Seçki Komissiyasına təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün hüquqi əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində aşağıdakı şəxslər Ana Vətən Partiyasının səlahiyyətli və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri kimi qeydə alınsınlar:

1.1. Səlahiyyətli nümayəndələr:
Həcərxanım Əsədağa qızı Məlikova
Seymur Şirvan oğlu Əliyev
Əlibala Məmmədyar oğlu Əsədov
Orxan Vahid oğlu Əhmədov
Nurəddin Əli oğlu Əmirov
Niyaməddin Həsən oğlu Səlimi
Röyal Etibar oğlu Heydərov
İdris Bulac oğlu Bədirov
Sultan Teyfur oğlu Mühbəliyev
Elnur Hacıməmməd oğlu Məmmədov
Valeh Abuturab oğlu Əzizov
Taleə Fikrət qızı Nəsibova
Nuray Rəhim qızı Əliyeva
İsmayılqurban Səlim oğlu Pənahlı

1.2. Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə:
Tünzalə Sədrəddin qızı İsmayılova

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*31.10.2019-cu il*

**Qərar № 10/44**

### Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 30-cu maddələrinə uyğun olaraq **qərara alır:**

Cavid İlqar oğlu Əhmədov 122 saylı Xankəndi seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsin.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*31.10.2019-cu il*

## MSK-nın Şəkidə təşkil etdiyi regional seminarda seçkilərlə bağlı müraciətlərə baxılması məsələləri müzakirə olunub

Bu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkiləri ilə əlaqədar Mərkəzi Seçki Komissiyasının (MSK) təşkilatçılığı ilə seçkilərlə bağlı müraciətlərə baxılmasına həsr olunan növbəti regional seminar oktyabrın 31-də Şəki şəhərində keçirilib.

"Şəki-Palas" hotelində keçirilən seminarda MSK-nın üzvləri Validə Kazımova, İlkin Şahbazov, respublikanın şimal-qərb bölgəsində, ətraf şəhər və rayonlarda fəaliyyət göstərən 17 seçki dairəsi dairə seçki komissiyalarının hər birindən 3 ekspert olmaqla, ümumilikdə, aşağı seçki komissiyalarının 51 təmsilçisi iştirak edib.

AZƏRTAC xəbər verir ki, seminarı MSK üzvü Validə Kazımova açaraq bələdiyyə seçkilərinə hazırlıqla əlaqədar MSK tərəfindən həyata keçirilən tədbirlər barədə geniş məlumat verib. Bildirilib ki, regional seminarların keçirilməsində əsas məqsəd dairə seçki komissiyalarının ekspert qrupu üzvlərinin seçki prosedurları ilə bağlı məlumatlarının artırılması və praktiki vərdişlərinin gücləndirilməsindən ibarətdir.

Sonra MSK-nın digər üzvü İlkin Şahbazov "Seçki hüququnun pozulması ilə əlaqədar müraciət və şikayətlərə baxılması üzrə qanunvericiliyin tələbləri və şikayətlərin araşdırılması prinsipləri" mövzusunda təqdimatla çıxış edib. Seminar iştirakçılarına seçki hüquqlarının pozulması ilə bağlı şikayətlərin verilməsi, vətəndaşlar tərəfindən təqdim edilən şikayətlərin forması və məzmunu, seçki hüquqlarının pozulmasına dair şikayətin verilmə müddəti, şikayətə dair qərar qəbul olunması müddəti, şikayətin qəbul edilməsindən sonra növbəti prosedurlar və digər məsələlər barədə ətraflı izahat verilib.

Seminarda MSK üzvü Validə Kazımova "Seçkilərlə bağlı müraciətlərə dairə seçki komissiyaları tərəfindən baxılması. Ekspert qruplarının fəaliyyətinin əsasları" mövzusunda təqdimatla çıxış edib.

Qeyd olunub ki, seçkilərlə əlaqədar müraciətlərə dairə seçki komissiyaları tərəfindən baxılması çox vacib məsələdir və vətəndaşların seçki hüququnun daha səmərəli təmin olunmasında mühüm əhəmiyyət daşıyır. Buna görə də dairə seçki komissiyalarının ekspert qrupunun üzvləri mövzu ilə bağlı qanunvericiliyin tələblərini dərindən mənimsəməli və öz vəzifələrinin öhdəsindən layiqincə gəlməlidirlər.

Tədbirin praktiki hissəsində kazuslar üzrə müxtəlif şikayət nümunələri nəzərdən keçirilib, seçki komissiyaları tərəfindən həmin şikayətlərə dair müvafiq qərarların qəbul edilməsi məsələlərinə baxılıb.

Sonda seminar iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.



# Mədəniyyət



● Teatr xadimləri

**Azərbaycan teatrı tarixinin qədimliyi, formalaşma dövrünün müxtəlif mərhələlərdən keçməsi, repertuarının zənginliyi diqqəti cəlb etməkdədir. Əlbəttə, bu keşməkeşli yollarda daha çox yük teatrın yaradıcılarının, xüsusən də aktyor və rejissorların üzərinə düşüb. Akademik teatradək formalaşma yolu keçən səhnə minlərlə peşəkar aktyor, rejissor nəslini də yetişdirib. Onlardan biri də müasirliyi və modernliyi ilə seçilən, gənc sayılan (yaradılmasından 30 il keçdiyi üçün) "Yuğ" teatrıdır ki, yaradıcısı yaşasaydı, 70 illik yubileyində şəninə layiq olduğu isti ürək sözlərini eşidəcəkdi. Təəssüf ki, teatr cəmiyyəti, sənət dostları, həmkarları, yetirmələri bu gün həmin yubileyləri Vaqif İbrahimoğlusuz keçirməyə məcburdur…**

**Bu il oktyabr ayında səhnə sənətinə özünəməxsus qeyri-adilikləri gətirən rejissor Vaqif İbrahimoğlunun 70, yaratdığı Dövlət "Yuğ" Teatrının 30 illik yubileyidir. Bununla bağlı keçirilən konfransda teatrın direktoru, Əməkdar mədəniyyət işçisi İslam Həsənov, baş rejissor, Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə çıxışlarında ölməz sənətkarın - Vaqif İbrahimoğlunun səhnə sənətinə gətirdiyi yeniliklərin hansı çətinliklərdən keçdiyinə bir daha işıq salıblar.**



# Yeri görünən insan

## Sənət yanğısı, səhnə fədaisi və tamaşaçı sevgisi

### Vaqifin "Vahimə"sinin "Vəsvəsə"si

Teatrın baş rejissoru Mehriban Ələkbərzadə bildirib ki, bu il "Yuğ" Teatrı üçün yetərincə uğurlu və məhsuldar olub. Mövsüm ərzində iki yeni tamaşa hazırlanıb. Bunlardan biri Nobel mükafatçısı Orxan Pamukun "Mənim adım qırmızı" romanının motivləri əsasında Əbdülqəni Əliyevin quruluşunda hazırlanan "Mən ağacam" tamaşasıdır. "Yuğ"un sevimli və tələbkar tamaşaçılarına təqdim edilən ikinci tamaşa isə H.İbsenin "Vahimə" əsəri əsasında Gümrah Ömərin quruluş verdiyi "Vəsvəsə"dir.

*Haşiyə:* 18 oktyabr 1949-cu ildə Bakı şəhərinin Mərdəkan qəsəbəsində anadan olmuş Vaqif İbrahimoğlu Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət İnstitutunun Dram və kino aktyorluğu fakültəsini bitirdikdən sonra Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında, Azərbaycan Teatr Cəmiyyətinin nəzdindəki Eksperimental Teatr Studiyasında çalışıb, Tədris Teatrında bədii rəhbər, Azərbaycan Dövlət Musiqili Komediya Teatrında isə baş rejissor vəzifələrində fəaliyyət göstərib.

Azərbaycan Milli Akademik Dram Teatrında, Türkiyənin Ankara və Bursa, eləcə də Estoniyanın Uqala teatrlarında tamaşalar hazırlayan Vaqif İbrahimoğlu 1989-cu ildən həyatının sonuna qədər "Yuğ" teatrının bədii rəhbəri olub və 90-a yaxın tamaşaya quruluş verib.

Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, "Qızıl Dərviş" mükafatı laureatı, ADMİU-nun dosenti Vaqif İbrahimoğlu 2006-cı ildən Prezident təqaüdçüsü idi...

Ölməz rejissorun filmlərdə də öz izi qalıb: "Dantenin yubileyi", "Bağlı qapı", "Əlavə iz", "Qəm pəncərəsi", "Qurama", "Otel otağı", "Dağın nəvəsi", "Pəriqala", "Sahə"də Vaqif İbrahimoğlunun rejissor sənətinin incəlikləri tamaşaçı diqqətindən yayınmayıb.

Xatırladaq ki, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti görkəmli rejissor Vaqif İbrahimoğlunun anadan olmasının 70 illik yubileyi münasibətilə Beynəlxalq Elmi Konfrans keçirməyi planlaşdırıb.



Türkdilli xalqların ənənəvi teatr mədəniyyətinin tədqiqatçıları, öz ideyalarını ənənələr zəminində gerçəkləşdirməyə çalışan rejissorlar, habelə humanitar sahədə fəaliyyət göstərən elmi-tədqiqat institutlarının əməkdaşları, ali və orta təhsil müəssisələrinin professor-müəllim heyəti, doktorant, dissertant və magistrantlar konfransa dəvət edilib.

Vaqif İbrahimoğlu Azərbaycan teatrına yaratdığı sənət ocağını - "Yuğ"u bugünkü və gələcək nəsillərə yadigar qoyub getdi. Teatr sənətinin parlaq simalarından biri, tanınmış rejissor, "Yuğ" teatrının bədii rəhbəri, Əməkdar incəsənət xadimi Vaqif İbrahimoğlu nə teatrda sıradan biri olan aktyorlardan idi, nə də ənənəviliyi qoruyub saxlamağı sənətkarlıq kimi təlqin edən rejissorlardan. Vaqif İbrahimoğlu, peşəkarların vurğuladıqları kimi, teatr sənətində bir özgə - orijinal, çətin gedilən yeni yol açdı.

### "Yuğ" Vaqif İbrahimoğlu üçün bir teatr studiyası deyildi

Teatr İnstitutunda görkəmli rejissor Tofiq Kazımovun sinfini uğurla başa vuran Vaqif İbrahimoğlu sənətdə ilk addımlarını Gənc Tamaşaçılar Teatrında atdı. Lakin az keçmədi ki, ideyaları bu teatrın səhnəsinə sığmadı. Teatr Xadimləri İttifaqının nəzdində ilk dəfə olaraq Eksperimental studiya yaratdı. O illərdə nəinki Azərbaycanda, keçmiş Sovetlər məkanında da bu cür studiyalar, demək olar ki, barmaqla sayılırdı.

Sənətşünaslıq doktoru, professor Məryəm Əlizadə fikirlərini bir qədər də dəqiqləşdirərək deyir: "Yuğ" teatrı dünyada çox nadir rast gəlinən bir ruh məkanıdır. Ötən əsrin 70-80-ci illərində Azərbaycanda teatr avanqardı yarandı. Teatr avanqardının ən görkəmli nümayəndələrindən biri Vaqif İbrahimoğlu idi. 1990-cı illərin əvvəlində Azərbaycan xalqı müstəqillik uğrunda mübarizəyə atıldı. Vaqifin qurduğu tamaşalar Azərbaycan vətəndaşında ictimai şüuru, milli özünüdərki oyatdı. Vaqif İbrahimoğlu bunların hamısını çox yüksək səviyyədə etdi.

O, teatr pedaqogikasında böyük müəllim adını qazandı. Bu gün Vaqif İbrahimoğlunun bir ordu qədər tələbələri var. Onlar artıq yetişmiş rejissorlar, aktyorlardır. "Yuğ" estetikası, "yuğ" ənənələri barədə danışanda hələ o teatr yox idi. Vaqif deyirdi ki, müxtəlif türkdilli xalqlar içərisində yuğ mərasimlərini keçirmək çox dəbdə olub. Hər hansı bir insan dünyasını dəyişəndə, qəbilə adamları toplaşıb o qəhrəmanın taleyini, həyatını, gördüyü əməlləri teatral şəkildə canlandırırdılar. Bu gün bir yuğ mərasimi yaratmağa bizim gücümüz yoxdur, ancaq Vaqif bunu bacarırdı..."

Bir müddət sonra M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun nəzdində fəaliyyət göstərən Tədris Teatrına bədii rəhbər təyin olundu. Məhz elə burada o, institutun istedadlı tələbələri ilə respublikaya səs salan bir neçə tamaşa ilə sənət bioqrafiyasını zənginləşdirdi. Bununla Vaqif İbrahimoğlu həm də Azərbaycan teatr salnaməsinə yeni adlar yazdı: neçə-neçə gənc aktyor həmin teatrda ilk addımlarını atdı.

Vaqif İbrahimoğlunun Musiqili Komediya Teatrında baş rejissor fəaliyyəti də diqqətçəkən oldu. Təkcə bir fakta diqqət yetirək: qardaş Türkiyədə ilk dəfə olaraq azərbaycanlı rejissor kimi bir-birinin ardınca səhnə əsərlərinə quruluş verən məhz Vaqif İbrahimoğlu idi.

1989-cu ildə Milli Akademik Dram Teatrının direktoru, Xalq artisti Həsənağa Turabovun xeyir-duası, razılığı, yaxından köməyi ilə bu teatrın nəzdində Vaqif İbrahimoğlu özünün teatr studiyasını yaratdı. Bu gün artıq "Yuğ" kimi formalaşmış, 30 ildir fəaliyyətdə olan teatrın əsası Milli Akademik Dram Teatrının kiçik səhnəsində qoyuldu.

### "Balaca "Yuğ"a böyük dünya sığırdı"

Dünyada avanqard teatrlar, studiyalar, cürbəcür teatr laboratoriyaları çoxdur, bunlar zaman-zaman yaranır, birləşir, dağılır, məhv olur. Amma Vaqif İbrahimoğlu "Yuğ"la özünü büruzə verən, ağlayaraq, gülərək təmizlənən böyük nəzəriyyəyə söykənən yeni bir teatr yaratmış oldı. Bu teatr birmənalı qarşılanmadı. Öncə başa düşülmədi, tənqid də olundu, amma teatr axsamadı, çökmədi. Öz yolundan sapmadan irəlilədi. Azərbaycanın çox istedadlı insanları - dramaturqlar, qələm sahibləri bu teatrla ünsiyyət qurdular. "Yuğ"a çoxlu sayda xarici qonaqlar, rejissorlar gəldi.

Məhz buna görə də 62 il ömür yaşasa da, neçə belə illər Vaqifi onun qurduğu, yaratdığı, həyata keçirdiyi tamaşalarla yaşadacaq.

"Yuğ" Dövlət Teatrının direktoru, teatr mütəxəssisi Tərlan Rəsulov deyir: "Yuğ" və Vaqif İbrahimoğlu Azərbaycan teatr mədəniyyətində bir fenomen sayılmalıdırlar. Vaqif müəllim "Yuğ"dan əvvəl də öz yaradıcılığı, publisistikası, çıxışları, gördüyü işlərlə Azərbaycan mədəniyyətində böyük yer tuturdu. "Yuğ" da onun teatra münasibətinin, sənətə olan baxışlarının bir nəticəsi kimi ortaya çıxdı..."

12 may 2011-ci ildə Bakıda dünyasını dəyişən Vaqif İbrahimoğlunun əziz xatirəsi daim əziz tutulur. 2019-cu ilin martında Bakıda Vaqif İbrahimoğlunun xatirəsinə həsr olunmuş "Boş məkanın dolğunluğu" adlı eksperimental tamaşalar festivalı keçirildi.

Bu gün Azərbaycanda hər teatrın özünəməxsus üslubu var. Hərəsi bir məktəbin, bir ənənənin davamçısıdır. İstər mövzu qoyuluşunda, istər aktyor oyununda, tamaşaçılarla iş birliyində hərəsinin öz yolu var. "Yuğ"un birinci nəsli, onun özəyini qoyan insanlar Fərhad İsrafilov, Məmmədsəfa Qasımov, Vidadi Həsənov, Sonaxanım Mikayılova və bu kimi dəyərli aktyorlar da məhz səhnə sənətində fədakarlıqları ilə seçilən aktyor-rejissor nəslidir. Onların hər biri özünə görə "Yuğ"un konsepsiyasını anlayır. Amma teatrın formalaşmasında, onun konsepsiyasının yayılmasında birinci nəsil aktyorların rolu danılmazdır.

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

● El sənəti

# Xalçaçılığın inkişafı diqqət mərkəzindədir



**Azərbaycan xalçaları qədim dövrlərdən orijinallığı ilə diqqəti cəlb edib. Bunu dünyanın məşhur muzeylərinin ekspozisiyasını bəzəyən Azərbaycan xalçalarının toxunma tarixindən, hansı ölkələrdə "yaşaması"ndan, habelə mötəbər şəhərlərdə düzənlənən sərgilərdən də bilmək mümkündür.**

Öz çeşnisi, toxunuş texnologiyası, orijinallığı və keyfiyyəti ilə seçilən xalçalarımız hər zaman qiymətli və baxımlı olub. Hazırda bəzi xarici ölkələrin muzeylərində nümayiş etdirilən xalçalarımız vaxtilə vətənimizə gələn səyyahlar, tacirlər və alimlər tərəfindən müxtəlif ölkələrə aparılıb. Azərbaycan xalçaları Avropanın İntibah dövrünün görkəmli rəssamlarının tablolarında da təsvir olunub.

Ümummilli Lider Heydər Əliyev respublikamıza rəhbərlik etdiyi dövrlərdə mədəni irsimizin bu sahəsinin inkişafına və qorunmasına xüsusi diqqət və qayğı göstərmişdir: "Hər bir xalqın mədəni irsi onun milli sərvəti, tarixi və bugünüdür" deyən Ulu Öndər xalqımızın milli sərvətləri sırasında xalçaçılığa böyük dəyər vermişdir. Dünya şöhrətli siyasətçinin siyasi hakimiyyətdə olduğu illərdə ölkəmizdə xalçaçılığın inkişafı üçün geniş zəmin yaranmışdır. 1972-ci ildə respublikamızda Xalça muzeyinin açılması, 1983-cü ildə Heydər Əliyevin Moskvada SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olduğu zaman Bakıda UNESKO-nun Şərq Xalçaları üzrə Beynəlxalq Konfransının xətti ilə Azərbaycan xalçasının tanıdılması məqsədilə simpoziumun keçirilməsi bunlara bariz nümunədir. İndi deyə bilərik ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan xalçaçılıq sənətinin inkişafı sahəsində aparılan iş öz bəhrəsini verməkdədir. Bu günlərdə İtaliyanın Bolzano şəhərinin "Museo Mercantile" muzeyində Azərbaycan xalçaları sərgisinə gələn ziyarətçilərin çoxluğu hər bir azərbaycanlını sevindirdi. Bolzano Ticarət Palatasının prezidenti Miçl Ebnerin, Şərq Xalçaları üzrə Beynəlxalq Konfransın (ICOC) Elm Komitəsinin prezidenti Alberto Boralevin və ICOC-un prezidenti Peter Biçlerin ziyarətçilər arasında Azərbaycan xalçalarının əvəzolunmazlığı barədə fikirləri seyrçilərdə xoş ovqat yaratmışdır. Oktyabrın 19-dək davam edəcək sərgidə "WINCOR" kolleksiyasında Azərbaycanın Qarabağ, Bakı, Qazax, Şirvan və Quba xalçaçılıq məktəblərinə aid 25 xalça nümayiş olunur.

Azərbaycan xalçaçılıq sənətinin dünyada təbliğində Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın əməyi böyükdür. Hazırda xalçaçılıq sənətinin inkişafına dövlət səviyyəsində xüsusi diqqət və qayğı göstərilir. Xalqın genetik yaddaşının, tarixi varislik ənənələrinin davamı olan bu sənətin gələcək nəsillərə ötürülməsi və bədii dəyərlərinin unudulmamasına yönəlmiş tədbirlər nəticəsində xalçaçılıq UNESKO-nun qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısına daxil edilmişdir.

Azərbaycan xalçalarının dünya ictimaiyyətinə tanıdılması ilə bağlı Bakıda UNESKO-nun Parisdəki mənzil-qərargahında xalça simpoziumları keçirilmişdir. Prezident İlham Əliyev çox haqlı olaraq demişdir: "Xalça bizim milli sənətimizdir. Biz hesab edirik ki, Azərbaycan xalça sənətinin vətənidir, xalça muğam, memarlıq abidələri kimi bizim milli dəyərimizdir, sərvətimizdir". Bu qədim el sənətinin varlığına yüksək dəyər verən Azərbaycan Prezidentinin sərəncam və tövsiyələrinə əsasən, ölkəmizdə xalçaçılığın inkişafı üçün hər bir şərait yaradılmışdır. "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin (ASC) respublikamızın Quba, Xaçmaz, İsmayıllı, Qəbələ, Şəmkir, Tovuz, Ağstafa, Qazax, Ağdam, Füzuli və digər bölgələrində fəaliyyətdə olan filialları lazımi avadanlıqlarla təmin olunmuşdur. Bu filialların sayı ildən-ilə artmaqdadır. Ötən il Lənkəranda, Horadizdə və Şəmkir rayonunda da yeni xalça istehsalı emalatxanaları istifadəyə verilmişdir. Hazırda bu sahədə 3 min 500 nəfərdən çox işçi çalışır. Ötən ilin martında Azərbaycan Prezidentinin sərəncamı ilə Kürdəmirdə xalça istehsalı emalatxanasının tikintisi, avadanlıq və dəzgahlarla təchizatı, habelə infrastrukturun yaradılması məqsədilə 2 milyon manat vəsait ayrılmışdır.

Xalçaçılığın inkişafında xammal bazasının yaradılmasına da xüsusi diqqət yetirilir. Dövlət başçısının tapşırığına əsasən "Azərxalça" ASC-nin filiallarının və özəl xalçaçılıq müəssisələrinin yun ipliklə təmin olunması üçün Sumqayıt Kimya Sənaye Parkında "Azərxalça" ASC-nin nəzdində yunəyirici-boyaq fabriki inşa olunur. Bu fabrikin xammalla təminatı məqsədilə Naxçıvan şəhərində, Bərdə, Qobustan, Şabran və Sabirabad rayonlarında regional yun və boyaq bitkilərinin tədarükü məntəqələri yaradılıb. Qobustanda yaradılan regional tədarük məntəqəsi respublikanın 14 rayonunu əhatə edəcək. Yeni yaradılan yun tədarükü məntəqələrindən biri Sabirabad Sənaye Məhəlləsində, digəri isə Bərdədə yerləşir.

Bütün bunlar Azərbaycanda xalçaçılığın inkişafına yönəldilmiş tədbirlərin bir qismidir. Gələcəkdə bu sahədə daha mötəbər layihələrin icrası nəzərdə tutulur. Görünən odur ki, ölkəmizin təcrübəli və səriştəli xalça ustaları dünyanın müxtəlif muzeylərində, şəxsi kolleksiyalarda saxlanılan qədim xalçalarımızı aşkara çıxararaq onların çeşniləri əsasında yeni xalçaların toxunmasına üstünlük verirlər. Odur ki, xalı və xalçalarımız dünyanın bir çox muzeylərinin ən nadir eksponatlarından sayılır. Xanımlarımızın Azərbaycanın bütün klassik xalçaçılıq məktəblərinə aid böyük zəhmət və keyfiyyətlə ərsəyə gətirdikləri xalçalar ABŞ, Almaniya, Avstriya, İngiltərə, İtaliya, Yaponiya, Rusiyada keçirilən sərgilərdə xüsusi mükafat və sertifikatlara layiq görülmüşdür.

Artıq Azərbaycan xalçaları dünya brendinə çevrilməkdədir. Xalçaçılarımızın qabiliyyət və bacarığını, tükənməz sənət imkanlarını göstərən xalçaçılıq həm də xalqımızın tarixini, mədəniyyətini, incəsənətini və məişət tərzini özündə ehtiva edən qiymətli el sənətidir.

***Rəhman SALMANLI, "Azərbaycan"***

● Afişa

# 109 yaşlı Məşədi İbad Gəncə Dövlət Filarmoniyasının səhnəsində

**Üzeyir Hacıbəyli XI Beynəlxalq Musiqi Festivalı çərçivəsində Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasında Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" operettası nümayış etdirilib. Musiqili komediya tamaşaçılara Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı truppasının iştirakı və Sevil Hacıyevanın dirijorluğu ilə təqdim edilib.**



Qeyd edək ki, "O olmasın, bu olsun" 4 pərdəli musiqili komediya Üzeyir Hacıbəylinin qələmə aldığı ikinci operettadır. Dahi bəstəkar 1910-cu ildə yazdığı bu əsərlə ovaxtkı Azərbaycan reallığını əks etdirib və illər keçməsinə baxmayaraq, "O olmasın, bu olsun"da qaldırılan məsələlərin bəziləri hələ də öz aktuallığını qoruyub saxlamışdır.

Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasının səhnəsində ilk dəfə oynanılan "O olmasın, bu olsun" operettası böyük maraqla qarşılanmışdır. Əməkdar incəsənət xadmi Hafiz Quliyevin quruluş verdiyi səhnə əsərində Xalq artistləri Azər Zeynalov (Məşədi İbad), Əkrəm Poladov (Rüstəm bəy), Əməkdar artistlər Gülüstan Əliyeva (Sənəm), İlahə Əfəndiyeva (Gülnaz), Fərid Əliyev (Sərvər) və başqaları rol alıblar. Əsərin əsas qəhrəmanlarından olan Məşədi İbad həyatın mənasını ticarətdə görür. Onun üçün insanın varlığını təyin edən əsas amil puldur. Qoca vaxtında evlənmək eşqinə düşən bu tacir Rüstəm bəylə sövdələşir və onun qızı, özündən 32 yaş kiçik olan Gülnazı alır. Bu və bundan sonra cərəyan edən hadisələr tamaşaçıları həm gülməyə, həm də düşünməyə vadar edir.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

● Xoş ovqat

# Mingəçevirdə mədəni xidmətin səviyyəsi yüksəkdir

**Dövlətin qayğısından, yurdsevər sakinlərinin qurub-yaratmaq həvəsindən güc alan Mingəçevir sürətlə dəyişib yeniləşir, hər gələn qonağı heyran qoyan gözəl, füsunkar bir diyara çevrilir. Zümrüd libaslı park və xiyabanlar, abad küçə və prospektlər, yaraşıqlı binalar göz oxşayır. Ölkənin iri sənaye şəhərlərindən olan Mingəçevirdə əhaliyə göstərilən mədəni xidmətin səviyyəsinin yüksəldilməsi şəhərin sosial-iqtisadi inkişafının mühüm tərkib hissəsi kimi diqqət çəkir.**







Bərdə Regional Mədəniyyət İdarəsinin Mingəçevir şəhər nümayəndəliyi son illərdəki səmərəli fəaliyyəti ilə şəhər ictimaiyyətinin böyük rəğbətini qazanmışdır. Əlamətdar tarixi günlərdə, bayramlarda nümayəndəliyin təşəbbüsü və təşkilatçılığı ilə hazırlanıb həyata keçirilən mədəni-kütləvi tədbirlər öz ədəbi-bədii səviyyəsi, dəyərli ideya yükü ilə təqdir olunur. Yüksək peşəkarlıqla hazırlanıb yaradıcılıqla təqdim olunan tədbirlərin mayasında dövlətçilik ənənələrinə sədaqət, milli-mənəvi dəyərlərə verilən böyük önəm dayanır. Xalqa, vətənə sonsuz məhəbbət hissinin, hərbi-vətənpərvərlik tərbiyəsinin təbliği Mingəçevir şəhər Mədəniyyət nümayəndəliyinin əsas fəaliyyət istiqamətidir.

Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə keçirilən yubiley tədbirləri, görkəmli elm xadimlərinə, sənət adamlarına həsr olunmuş seminar-müşavirələr, kitab müzakirələri, "dəyirmi masa"lar, sərgilər şəhər sakinlərində xoş ovqat yaradır, fəal vətəndaş mövqeyinin formalaşmasına əhəmiyyətli təsir göstərir. Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 2019-cu il "İmadəddin Nəsimi ili" elan olunmuşdur. Bununla əlaqədar Mingəçevir şəhər Mədəniyyət nümayəndəliyinin bütün müəssisələrində "İmadəddin Nəsimi 650", "Böyük ideallar şairi", "Haqq mənəm, haqq məndədir", "Məndə sığar iki cahan", "Mən bir gizli xəzinəyəm", "2019-cu il İmadəddin Nəsimi ilidir" və s. mövzularda maraqlı və rəngarəng tədbirlər keçirilmişdir.

Nur şəhərinin mədəniyyət nümayəndəliyi öz fəaliyyətində hərbi hissələrlə əlaqəyə, Milli Ordunun əsgərləri ilə səmimi ünsiyyətə böyük önəm verir. El bayramlarında, əlamətdar tarixi günlərdə maraqlı konsert proqramları ilə əsgər və zabitlərə qonaq olmaq artıq pozulmaz ənənəyə çevrilmişdir. Şəhərin kitabxanalarında təşkil olunan vətənpərvərlik mövzusunda kitab sərgilərini, klub və mədəniyyət evlərində keçirilən "Əgər vətən çağırsa", "Azərbaycan Respublikasının Milli Qəhrəmanları", "Milli Qəhrəmanlarımızı unutmayaq", "Qəlbimizdə yaşayanlar", "Gənclərdə vətənpərvərlik hissinin və fəal vətəndaş mövqeyinin yüksəldilməsi" mövzularında mühazirələri, foto sərgiləri, ədəbi-bədii gecələri, "dəyirmi masa"ları şəhər sakinləri məmnunluqla qarşılayırlar.

"100 illik tariximiz" devizi altında "Bölgələrdən-bölgələrə" festivalının Mingəçevir təqdimatı öz zəngin təəssüratları ilə mədəniyyətsevərlərin yaddaşında şirin xatirəyə çevrilmişdir. Festivalda Mədəniyyət Nazirliyinin bütün regional mədəniyyət idarələrinin hər birinin ekspozisiya çadırları qurulmuş, regionlar üzrə şəhər və rayonların mədəni irsini özündə əks etdirən sənətkarlıq nümunələri, rəsmlər, suvenirlər və digər əl işləri nümayiş etdirilmiş, maraqlı konsert proqramı təqdim olunmuşdur.

Bərdə Regional Mədəniyyət İdarəsi Mingəçevir şəhər nümayəndəliyinin uğurları kifayət qədər çox və qürurvericidir. Respublikanın mədəni həyatında elə bir müsabiqə, festival, yarış olmur ki, mingəçevirli mədəniyyət işçiləri öz nümunəvi iştirakları ilə orada fərqlənməsinlər, təltif olunmasınlar. Azərbaycan Rəqs Assosiasiyasının respublika Gənclər İttifaqı ilə birlikdə Bərdə şəhərində təşkil etdiyi "1-ci Qarabağ rəqs kuboku" müsabiqə-festivalında Mingəçevir şəhəri şəhid F.Qasımov adına Uşaq İncəsənət Məktəbinin xoreoqrafiya şöbəsinin "Fidanlar" rəqs kollektivi iki nominasiya üzrə birinci yerə layiq görülmüş, "Qarabağ" kuboku ilə təltif olunmuşdur.

Qəbələ rayonunda keçirilən Qəbələ beynəlxalq mürəbbə festivalında Bərdə Regional Mədəniyyət İdarəsinin Mingəçevir şəhər nümayəndəliyi hamını arxada qoyaraq birinci yerə layiq görülmüş, qızıl medal, kubok və diplomla təltif olunmuşdur.

Bu ilin yayında Bakı şəhərində keçirilən Uşaq və gənclər arasında xalq çalğı alətləri ifaçılarının IV Respublika müsabiqəsinin qalibləri arasında Mingəçevirin yetirmələri də vardır. Soltan Hacıbəyovun 100, İsmayıl Hacıbəyovun 70 illiyi ilə əlaqədar Bakı şəhərində keçirilən Gənc musiqiçilərin respublika festivalında mingəçevirli istedadlar uğurla çıxış etmişlər. Keçən il qardaş Türkiyənin Çanaqqala şəhərində I Beynəlxalq Troya Uşaq Xalq Rəqsləri festivalında çıxış edən Mingəçevir şəhər Uşaq incəsənət məktəbinin "Banu" rəqs kollektivinin təqdimatı tamaşaçıları heyran etmişdir. Festivalın təşkilat komitəsi "Banu"nu diplom və qiymətli hədiyyələrlə mükafatlandırmışdır.

Mingəçevir şəhər Mədəniyyət nümayəndəliyinin rəhbəri Şəlalə Sadəddinova bizimlə söhbətində dedi:

- Mingəçevirdə yaşamaq və işləmək sözün həqiqi mənasında xoşbəxtlikdir. Təbiət özünün şah əsəri olan həyat tablosunu yaradarkən bu yerlərə fırçasını səxavətlə çəkib. Ana Kürün ikiyə böldüyü şəhər öz füsunkarlığı ilə əcnəbi qonaqların gözünü qamaşdırır. Şəhərimizdə abadlıq, quruculuq işləri yüksək zövqlə davam etdirilir. Biz çalışırıq ki, səmərəli fəaliyyətimizlə, nümunəvi xidmətimizlə nur şəhərinin gözəlliyinə yeni naxışlar vuraq. Şəhər sakinləri ilə xoş ovqat doğuran hər görüşümüz bu məqsədin reallaşdığının canlı təsdiqinə çevrilir. Mingəçevirin 70 illiyi münasibətilə şəhər Dövlət Dram Teatrında təşkil etdiyimiz ədəbi-bədii gecə qonaqlara da, şəhər sakinlərinə də nəğmə ilə yoğrulmuş bir ərməğan oldu.

***Lazım QULİYEV, "Azərbaycan"***

# Azad RƏHİMOV: "Azərbaycan on ölkəyə antidopinq sahəsində ekspert yardımı göstərməyə hazırdır"

"Azərbaycan idman sahəsində qazandığı zəngin təcrübəni daim bölüşür. Ölkəmizlə beynəlxalq strukturlar arasında idman əlaqələrinin genişləndirilməsinə dair imkanlar müzakirə edilib. Azərbaycan antidopinq proqramları beynəlxalq standartlara uyğun olmayan 10 ölkəyə ekspert yardımı göstərməyə hazırdır".



Bu fikirləri Azərbaycanın Gənclər və İdman naziri Azad Rəhimov UNESKO-nun Parisdəki mənzil-qərargahında keçirilən "İdmanda dopinqə qarşı mübarizə haqqında" Beynəlxalq Tərəflər Konvensiyasının yeddinci sessiyasında (COP7) aparılan müzakirələr zamanı deyib.

Sessiyada aparılan müzakirələrdə 10 ölkənin antidopinq proqramının beynəlxalq standartlara uyğun gəlmədiyi bildirilib. Azərbaycanın bu dövlətlərə yardım etməyə hazır olması ilə bağlı təklifi müxtəlif ölkələr tərəfindən müsbət qarşılanaraq yüksək dəyərləndirilib. A.Rəhimov tədbirin açılışında, habelə idmanda dopinqlə mübarizə və beynəlxalq əməkdaşlıq mövzusuna dair panel müzakirələrdə çıxış edib.

Beynəlxalq Tərəflər Konvensiyasının yeddinci sessiyasında (COP7) müxtəlif ölkələrin idman strukturlarının rəhbərləri, beynəlxalq idman təşkilatlarının və digər qurumların nümayəndələri iştirak edirlər.

Sessiya çərçivəsində A.Rəhimov UNESKO baş direktorunun humanitar və sosial elmlər üzrə müavini Nada Al-Naşif, Ümumdünya Antidopinq Agentliyinin (WADA) yeni seçilmiş prezidenti, Polşanın İdman və Turizm naziri Virold Banka, Avropa Şurasının İdman Konvensiyalarının direktoru Sergey Xriçikov, Rusiya Federasiyasının İdman naziri Pavel Kolobkov, Səudiyyə Ərəbistanı Şahzadəsi Fahad bin Calavi əl Səud ilə ikitərəfli görüşlər keçirib.

# Azərbaycan Şahmat Federasiyasının vitse-prezidentinin rəhbərliyi ilə şahmatçılarımız Dünya Şahmat Olimpiadasında fəal iştirak edirlər

Oktyabrın 29-da Türkiyənin Çorum şəhərində start verilən 16 yaşa qədər şahmatçıların Dünya Şahmat Olimpiadasında şahmatçılarımız Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti, Naxçıvan Şahmat Federasiyasının sədri Seymur Talıbovun rəhbərliyi ilə fəal iştirak edirlər. AZƏRTAC xəbər verir ki, ölkəmiz bu nüfuzlu yarışda iki komanda - "Azərbaycan" və "Azərbaycan-Naxçıvan" ilə təmsil olunur.

Azərbaycanın birinci komandasında Məhəmməd Muradlı, Aydın Süleymanlı, Əhməd Əhmədzadə, Vüqar Manafov və Gövhər Beydullayeva iştirak edirlər. "Azərbaycan-Naxçıvan" komandasında isə Xəzər Babazadə, Sadiq Məmmədov, Sadiq Qarayev, Ərturan İsmayılov və Nəsrin Babayeva mübarizə aparırlar.

Olimpiadanın açılışından əvvəl Türkiyənin Cümhuriyyət bayramı ilə əlaqədar tədbir keçirilib. Tədbirdə Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti, Naxçıvan Şahmat Federasiyasının sədri Seymur Talıbov iştirak edib, Çorum valisi Mustafa Çifçi ilə görüşüb. Vali Seymur Talıbova xatirə hədiyyəsi təqdim edib.

Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti daha sonra 16 yaşa qədər şahmatçıların Dünya Şahmat Olimpiadasının açılış mərasimində iştirak edib. Açılış mərasimində ilk gedişin edilməsindən sonra 38 ölkənin 48 komandası mübarizəyə başlayıb. Olimpiada 9 turdan ibarət olacaq, komanda qalib gəldiyi təqdirdə 2 xal, heç-heçə olduqda isə 1 xal qazanacaq.

Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti, Naxçıvan Şahmat Federasiyasının sədri Seymur Talıbov milli komandamızda mübarizə aparan şahmatçılarla görüşüb, onlara uğurlar arzulayıb, hədiyyələr təqdim edib.

Qeyd edək ki, olimpiada noyabr ayının 6-da başa çatacaq.

# Qəhrəmanların xatirəsi yad edilib

Cəmşid Naxçıvanski adına Hərbi Liseydə Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin və liseyin birgə təşkilatçılığı ilə 1995-ci ildə Bakı metrosunda baş vermiş faciədə liseyin şəhid olmuş zabiti, Azərbaycan Respublikasının Milli Qəhrəmanı Çingiz Babayevin, eləcə də "İgidliyə görə" medalı ilə təltif edilmiş kursantlar Ruslan İsayev, Samir Məmmədov və Nicat Səfərovun anım mərasimi keçirilib.



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ümummilli Lider Heydər Əliyevin və Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni səsləndirilib.

Mərasimdə 1995-ci il oktyabrın 28-də "Ulduz" stansiyasından "Nəriman Nərimanov" stansiyasına gedən 21 nömrəli qatarın dördüncü vaqonundakı partlayış və yanğında yaralananlara kömək edən şəhidlərin keçdiyi xidmət yolu və qəhrəmanlıqları haqqında danışılıb.

Sonda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin üzvləri tərəfindən qəhrəmanlığı və vətənpərvərliyi tərənnüm edən mahnılar ifa olunub.

# Beynəlxalq aləm

## Türkiyədə 100 İŞİD-çi yaxalandı



Türkiyənin 21 vilayətində İŞİD terrorçu təşkilatına qarşı keçirilmiş 26 əməliyyat nəticəsində 100 nəfər tutulmuşdur. Bu barədə Türkiyə Polis İdarəsinin rəisi Məhmət Aktaş məlumat vermişdir.

Aktaş qeyd etmişdir ki, Türkiyə bütün terrorçu təşkilatlarla, o cümlədən FETÖ, İŞİD və PKK ilə qətiyyətli mübarizəni davam etdirir. O bildirmişdir ki, ölkənin 21 vilayətində Respublika Gününə həsr olunmuş tədbirlər zamanı terror aktları törətməyi planlaşdırmış İŞİD silahlılarına qarşı 26 əməliyyat keçirilmişdir. Əməliyyatlar zamanı 100 silahlı saxlanmışdır. Sosial şəbəkələrdə 1297 akkaunt müəyyənləşmişdir. Həmin səhifələrdən "Sülh bulağı" əməliyyatı haqqında dezinformasiya yaydığına görə 452 nəfər saxlanmış, 78 nəfər həbs edilmişdir.

## Pakistanda qatar yandı: azı 65 nəfər həlak oldu



Dünən Pakistanın cənub-qərbində dəmiryolu qəzası nəticəsində azı 65 nəfər həlak olmuş, onlarca sərnişin yaralanmışdır. Bu barədə "Alman dalğası" radiostansiyası xəbər verir.

Zərərçəkənlərin bir çoxu ağır vəziyyətdə olduğuna görə ölənlərin sayı arta bilər. Faciə sərnişinlər qaz plitəsində özlərinə səhər yeməyi hazırlayarkən qaz balonunun partlaması nəticəsində baş vermişdir. Azı üç vaqonda yanğın başlamış və 40 nəfərə yaxın adam diri-diri yanmışdır. Digərləri alovdan xilas olmaq üçün böyük sürətlə hərəkət edən qatardan tullanarkən həlak olmuşlar.

Faciə Rəhim-Yar-Xan şəhərində Kəraçidən Lahora gedən qatarda baş vermişdir.

## "Twitter" siyasi reklam yerləşdirməyi dayandıracaq



"Twitter" sosial şəbəkəsi bundan sonra siyasi reklam dərc etməyəcək. Şirkətin başçısı Cek Dorsi öz mikrobloqunda bildirmişdir ki, noyabrın 22-dən başlayaraq platformada seçkilərdə namizədlərin ödənişli reklamını və siyasi mövzularda elanları dərc etmək mümkün olmayacaq.

Sahibkarın dediyinə görə, onun şirkəti siyasi məqsədlər üçün istifadə olunan ödənişli elanların demokratik cəmiyyətlərdə rəylərin formalaşması prosesinə "çox böyük risklər" yaratdığını nəzərə alaraq belə bir qərar qəbul etmişdir. Dorsi nümunə kimi yoxlanılmamış, çaşdırıcı informasiyanı və süni intellekt vasitəsilə audio və videomateriallarla realistik manipulyasiyanı göstərmişdir.

Bu arada ABŞ Prezidenti Donald Trampın seçki qərargahı "Twitter" sosial şəbəkəsinin siyasi reklamdan imtina etməsini "çox axmaq qərar" kimi qiymətləndirmişdir.

"Twitter" şirkətindən fərqli olaraq, dünyanın ən böyük sosial şəbəkəsi - "Facebook" siyasi reklamın dərcindən imtina etmək niyyətində deyil.

## Polis Keyptaunda nümayişçiləri gözyaşardıcı qaz və təzyiqli su ilə dağıtdı



Cənubi Afrika Respublikasının Keyptaun şəhərində Afrika ölkələrindən olan qeyri-leqal miqrantlarla polis arasında böyükmiqyaslı toqquşmalar baş vermişdir. Asayiş keşikçiləri nümayiş iştirakçılarına qarşı gözyaşardıcı qazdan və təzyiqli sudan istifadə etmişlər. 100 nəfərdən çox adam saxlanmışdır. Bu barədə yerli eNCA telekanalı xəbər verir.

İğtişaşlar polis BMT-nin Qaçqınların İşləri üzrə Ali Komissarının İdarəsinin regional nümayəndəliyi qarşısında qurulmuş qaçqın düşərgəsini sökmək istəyərkən başlamışdır. Buna cavab olaraq polis əməkdaşlarına butulka, daş və taxta parçaları atılmışdır. Qarşıdurma tezliklə miqrantlarla asayiş keşikçiləri arasında küçə davasına keçmişdir.

Polis vəziyyəti nəzarət altına almaq üçün gözyaşardıcı qaz və digər xüsusi vasitələrdən istifadə etmişdir. Nəticədə düşərgə sökülmüş, ən fəal qanun pozucuları isə saxlanmışdır.

Artıq bir neçə aydır 300-dək qeyri-leqal miqrant qanunsuz düşərgədə yaşayırdı. Onlar Avropa ölkələrinə, habelə ABŞ və Avstraliyaya göndərilməyi tələb edirdilər. Miqrantlar CAR cəmiyyətində hökm sürən ksenofobiya ab-havası ucbatından burada qalmaq istəmirdilər.

# "AzerGold" QSC-nin nümayəndələri Tacikistanda səfərdə olublar

**27-30 oktyabr tarixlərində "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) nümayəndə heyəti Tacikistan Respublikasının Soqd vilayətində səfərdə olub.**

Cəmiyyətin İdarə Heyətinin sədr müavini Oqtay Məmmədov, Geoloji kəşfiyyat şöbəsinin müdiri Şahbəddin Musayev vilayətin sədri Racabboy Axmadzoda ilə görüş keçiriblər.



Xucand şəhərində təşkil olunan görüşdə vilayətin aparıcı dağ-mədən şirkət rəhbərləri də iştirak ediblər.

Qeyd edək ki, Tacikistanın Soqd vilayətində dünyanın ən iri gümüş yatağı olan Böyük Kanimansur, eləcə də Altın Topkan, Ciloy, Aprelevka kimi nəcib metal filizi yataqları mövcuddur. Vilayət rəhbərliyi bu və digər mədənlərin işlənilməsində "AzerGold" QSC ilə təcrübə mübadiləsinin aparılmasının vacibliyini vurğulayıb.

Nümayəndə heyəti "Aprelevka" birgə müəssisəsinin baş direktoru Baxtiyor Macidovla da görüşərək şirkətin dağ-mədən sahəsində mövcud maddi-texniki baza, fabrik və laboratoriyada yaradılan şəraitlə tanış olub, "Kuş Mulla" və "Berquda" yataqlarına baxış keçiriblər.

Daha sonra tərəflər əməkdaşlıq məsələləri ətrafında danışıb, nəcib və qiymətli metal filizi sahələrində geoloji kəşfiyyat və hasilat proseslərinin həyata keçirilməsində, eləcə də müasir texnologiyaların tətbiqi istiqamətində birgə fəaliyyətə dair fikir mübadiləsi aparıblar.

***"Azərbaycan"***

# "Azercell"in dəstəyi ilə V Uşaq Paralimpiya Oyunları keçiriləcək

"Azercell Telekom" MMC və UNİCEF-in Azərbaycan nümayəndəliyinin dəstəyi, Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin təşkilatçılığı ilə 14 noyabr tarixində Abşeron Olimpiya İdman kompleksində V Uşaq Paralimpiya Oyunları keçiriləcək.



Oyunlarda ölkəmizin müxtəlif bölgələrindən olan iştirakçılar 7 idman növündə yarışacaq. Yerli idmançılarla yanaşı, Gürcüstan Respublikasından olan iştirakçılar da qalib gəlmək uğrunda mübarizə aparacaq. Ümumilikdə oyunlara 163 paralimpiyaçının qatılacağı gözlənilir.

Hər zaman sosial layihələrin təşəbbüskarı kimi tanınan "Azercell Telekom" MMC 2014-cü ildən etibarən Uşaq Paralimpiya Komitəsinin fəaliyyətini dəstəkləyir. Bununla da şirkət sağlamlıq imkanları məhdud uşaqların və yeniyetmələrin cəmiyyətə inteqrasiyasına öz töhfəsini verir.

Qeyd edək ki, 2013-cü ildə beynəlxalq təcrübədə ilk dəfə olaraq Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin nəzdində Uşaq Paralimpiya Komitəsi yaradılıb. Komitənin fəaliyyətinin əsas məqsədi sağlamlıq imkanları məhdud uşaqların idmana cəlb olunması yolu ilə ehtiyat idmançıların hazırlanması, onların abilitasiya və reabilitasiya yolu ilə cəmiyyətə inteqrasiyasının təmin edilməsidir.

***"Azərbaycan"***

## BİLDİRİŞ

Energetika Nazirliyinin 26.09.2019-cu il tarixdə "Bakı İstilik Elektrik Mərkəzindən qidalanan magistral istilik xətlərinin istismarının dayandırılması ilə əlaqədar mövcud istilik paylayıcı məntəqənin və yüksəldici nasos stansiyasının yenidən qurulmaqla müasir tipli məhəlli qazanxanaya çevrilməsi məqsədilə layihə-smeta sənədlərinin hazırlanması"na dair iş və xidmətlərin satın alınmasına dair elan etdiyi açıq tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun 50-4.2-ci maddəsinə əsasən ləğv edilmişdir.

***Tender komissiyası***

# Ermənistanda siyasi terror güclənir

*Əvvəli 1-ci səh.*

İttihama əsasən, Babayan 2018-ci ildə parlament aparatı rəhbərinin müavininin səlahiyyətlərini müvəqqəti icra edərkən bir qrup vəzifəli şəxsə Ermənistanın Konstitusiya Məhkəməsinin səlahiyyətlərini mənimsəməkdə kömək göstərib.

Ermənistanda hökumətin siyasi motivli həbslərinə qarşı ictimai etirazlar artır. İşğalçı ölkənin söz azadlığının qorunması komitəsinin sədri Aşot Melkonyan mətbuata verdiyi açıqlamasında bildirib ki, Paşinyan hökuməti üçün "münasib olmayan şəxslərdən biri - parlament aparatının sabiq sədri Arsen Babayanın həbs olunması siyasi motivlidir. Hüquqşünaslar, hüquq müdafiəçiləri də bunu təsdiq edirlər. Melkonyanın sözlərinə görə, "məxməri inqilab"dan sonra göstərişlə həyata keçirilən həbslər ölkədə söz və ifadə azadlığının pozulmasıdır, çünki hökumət yadfikirli insanlara qarşı hədsiz dözümsüzlük nümayiş etdirir.

Hüquq mühafizə orqanlarının "Yerevan today" qəzetinin redaksiyasında axtarış aparmalarına və oradakı texnikanı müsadirə etmələrinə şərh verən Melkonyan bildirib ki, son on ildə ölkə tarixində mətbuat azadlığının bu cür kobud pozulması halı baş verməyib: "Ermənistanın hüquq müdafiəçiləri bu faktla bağlı İstintaq Komitəsinə sorğu göndəriblər və biz hakimiyyətdən məsələyə münasibət bildirməsini tələb edirik. Bundan əvvəl hüquq mühafizə orqanlarından verilən cavabda heç bir konkret fakt göstərilmir və bu, KİV-ə təzyiq kimi qiymətləndirilməlidir".

Paşinyan hökuməti Konstitusiya Məhkəməsinin sədri Hrayr Tovmasyan və onun ailə üzvlərinə qarşı təqibi də davam etdirir. Jurnalist Anjela Tovmasyanın ofisinə basqından sonra hüquq mühafizə orqanları məhkəmə sədrinin müavinlərinə qarşı saxtakarlıq maddəsi ilə ittiham irəli sürüblər. Digər tərəfdən, hökumət sabiq prezident Robert Koçaryana qarşı ifadə verməkdən imtina edən Dövlət Mühafizə Xidmətinin rəisi Qriqori Ayrapetovu da işdən çıxarıb. Onun barəsində də cinayət işinin açılacağı istisna olunmur.

Ermənistanda bütün sahələrdə xüsusilə, orduda tüğyan edən özbaşınalıq da işğalçı ölkədə ciddi narazılıqla qarşılanır. 20 yaşlı əsgər Yurik Broyanı xidmət etdiyi hərbi hissənin 3 zabiti döyüb, qanunsuz olaraq azadlıqdan məhrum edərək qapalı yerdə saxlayıb. Nəhayət 1 illik mübarizədən sonra hərbi tibbi həkim komissiyası xəstəliklərdən əziyyət çəkən yezidi əsgəri hərbi xidmətdən tərxis etmək barədə qərar qəbul edib. Üstəlik Yuri Broyanla bağlı baş verən hadisə bundan sonra əqli çatışmazlığı olan erməni gənclərin orduya çağırılmasını qadağan edən qanun layihəsinin qəbul olunmasını gündəmə gətirib. "İnsan haqları naminə jurnalistlər" ictimai birliyi Yurik Broyanla bağlı hadisələrin inkişaf prosesini diqqət mərkəzində saxlayıb. Vəkil Hayarpi Sarkisyan isə hələ də Yurik Broyana qarşı məhkəmə prosesi başa çatmadığına görə onun hüquqlarını müdafiə etməyə davam edir.

Məsələ burasındadır ki, hərbi prokurorluğun 3-cü qarnizon müstəntiqləri hərbi xidmətdə olarkən Yurik Broyanın döyülməsi ilə bağlı cinayət işinin istintaqına səthi yanaşıblar. Xatırladaq ki, hərbi xidmətə başladığı ilk günlərdən "Bad" (ördək) ləqəbli tabor komandiri Armen Harutyunyan erməni ordusunun yezidi mənşəli əsgəri Yurik Broyanı zorakılığa məruz qoyaraq döyüb.

Ermənistanın 2020-ci il hərbi büdcəsi ilə bağlı hökumətin verdiyi açıqlamalar da narazılıqla qarşılanıb. Ermənistanın "Milli Gündəm" partiyasının siyasi şurası Ermənistanın 2020-ci il dövlət büdcəsi lahiyəsinin müdafiə xərcləri haqqında bəyanat yayıb. Bəyanatda deyilir ki, 2019-cu ilin 30 sentyabrında Ermənistan hökuməti 2020-ci ilin dövlət büdcəsi lahiyəsini qəbul edib: "Dövlət büdcəsində hərbi müdafiə xərclərinin payının 2019-cu il üçün 18,2 faizdən 2020-ci il üçün 16,1 faizə qədər azaldılması planlaşdırılır. Bunun əvəzinə isə digər çoxsaylı xərclər artırılır.

Oktyabrın 18-də Azərbaycan Maliyyə Nazirliyi Azərbaycanın 2020-ci il üçün dövlət büdcəsi lahiyəsini açıqlayarkən ümumi büdcə xərclərindən artımın 1,7 faiz olmasına baxmayaraq, müdafiə xərclərinin 20,9 faiz artırılaraq illik 2,267 milyard ABŞ dollarına çatdırılması nəzərdə tutulur.

Ermənistan hökuməti tərəfindən müdafiə xərclərinin dondurulması ən azı çaşqınlıq yaradır və bu, erməni tərəfi üçün əlverişsiz hərbi-texniki balansın daha da pisləşməsinə səbəb ola bilər".

Bütün bunlar Ermənistanı qarşıdakı dövrdə daha çətin günlər gözlədiyindən xəbər verir.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

## Azərbaycan Respublikası Mərkəzi Bankı üçün “Ev təsərrüfatlarının maliyyə davranışı və niyyətləri” sorğusunun keçirilməsi üzrə xidmətin satın alınması ilə bağlı

## *tender elanı*

Azərbaycan Respublikası Mərkəzi Bankı “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq “Ev təsərrüfatlarının maliyyə davranışı və niyyətləri” sorğusunun keçirilməsi üzrə xidmətin satın alınması məqsədilə açıq tender üsulu ilə **elektron satınalma** keçirir.

Tender proseduru 03 dekabr 2019-cu il saat 12:00-da Dövlət satınalmalarının vahid internet Portalında (https://etender.gov.az/) keçiriləcəkdir.

Maraqlanan şəxslər iştirak etmək üçün Portal vasitəsilə elektron elanla tanış ola və 150 (bir yüz əlli) manat məbləğində iştirak haqqı ödəməklə iddiaçı qismində qeydiyyatdan keçərək tenderin əsas şərtlər toplusunu əldə edə bilərlər.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində təkliflər sorğusu metodu ilə 2 “DOST” (Bakı şəhəri Nizami və Xəzər rayonları) Mərkəzi üçün kompüter və periferik sistemlərin satın alınması ilə əlaqədar satınalma müsabiqəsinin qalibi “Halal-P” MMC olmuşdur.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## “Azərsu” ASC daxili vəsaiti hesabına Ceyranbatan Su Təchizatı İdarəsinin Ultrasüzgəcli Su Təmizləyici Qurğular sahəsində istifadə olunan kipkəclərin satın alınması məqsədilə

## *kotirovka sorğusu elan edir*

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı ünvana - Bakı şəhəri, Moskva prospekti, 67, “Azərsu” ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinin Satınalmaların təşkili şöbəsinə (əlaqələndirici şəxs: Məmmədyar Musayev, telefon: 431-47-67/2288) müraciət edə bilərlər.

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər imzalanmış və möhürlənmiş kotirovka təkliflərini 06 noyabr 2019-cu il saat 15:00-dan gec olmamaq şərtilə təqdim etməlidirlər. Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır.

Kotirovka təklifləri “Azərsu” ASC-nin Bakı şəhəri, Moskva prospekti, 67 ünvanında 07 noyabr 2019-cu il saat 15:00-da açılacaqdır. İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası akademiyada “Mühafizə xidməti” işlərinin yerinə yetirilməsi üzrə büdcədənkənar vəsait hesabına keçiriləcək açıq elektron tenderdə iştirak etmək üçün

## *açıq tenderə dəvət edir*

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı - 500 (beş yüz) manat**

**Təşkilat: Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası**
**Bankın adı: Kapital Bankın Gənclik filialı**
**KOD: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**SWIFT BIK: AIIBAZ2X**
**H/HESABI: AZ20AIIB38090019440138430118**
**VÖEN: 1500374911**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 21.11.2019-cu il saat 17:00-a qədər, tender təklifi və bank təminatını isə 29.11.2019-cu il saat 15:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri 02.12.2019-cu il saat 11:00-da açılacaqdır.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılacaqdır.*

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## BİLDİRİŞ

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 24 iyun 2019-cu il tarixdə elan edilmiş “2500 km KSVPPtr-5e - 1x2x0,52 naqilinin satın alınması” üzrə elektron satınalma vasitəsilə keçirilmiş açıq tender prosedurunun qalibi “Touchess” MMC müəyyən edilmişdir.

“Aztelekom” MMC ilə “Touchess” MMC arasında “2500 km KSVPPtr-5e - 1x2x0,52 naqilinin satın alınması” üzrə 03 oktyabr 2019-cu il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 16 may 2019-cu il tarixdə elan edilmiş “1000 ədəd “Huawei” JPX202-FA8-72 - 100x2 reqleti (qoruyucuları ilə birlikdə), 10 000 ədəd LSA-PROFIL 2/10 - 10x2 cütlük reqlet (100 ədəd montaj aləti ilə birlikdə), 1000 ədəd 10 reqletlik montaj darağı, 95 000 ədəd RJ-45 və 5 000 ədəd RJ-11 başlıqlarının satın alınması” üzrə keçirilmiş açıq tender prosedurunun qalibi “TMM Telekom makinamadençilik san.tic.LTD” şirkəti müəyyən edilmişdir.

“Aztelekom” MMC ilə “TMM Telekom makinamadençilik san.tic.LTD” şirkəti arasında 01 sentyabr 2019-cu il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

“Azərişıq” ASC tərəfindən 18 iyul 2019-cu il tarixdə Müxtəlif muftaların satın alınması məqsədilə keçirilmiş açıq tender üzrə təqdim olunmuş iddiaçıların təklifləri Tender komissiyası tərəfindən qiymətləndirilmişdir. Tender komissiyasının qərarına əsasən müvafiq LOT üzrə “Electro Service” QSC qalib elan olunmuş və satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

“Azərişıq” ASC tərəfindən 26 iyul 2019-cu il tarixdə Müxtəlif mal-materialların satın alınması məqsədilə keçirilmiş açıq tender üzrə təqdim olunmuş iddiaçıların təklifləri Tender komissiyası tərəfindən qiymətləndirilmişdir. Tender komissiyasının qərarına əsasən müvafiq LOT-lar üzrə “QLOBAL-ELEKTRO” MMC və “Electro Service” QSC qalib elan olunmuş və satınalma müqavilələri bağlanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

“Azərişıq” ASC tərəfindən 23 iyul 2019-cu il tarixdə Müxtəlif mal-materialların satın alınması məqsədilə keçirilmiş açıq tender üzrə təqdim olunmuş iddiaçıların təklifləri Tender komissiyası tərəfindən qiymətləndirilmişdir. Tender komissiyasının qərarına əsasən müvafiq LOT-lar üzrə “QLOBAL-ELEKTRO” MMC və “Electro Service” QSC qalib elan olunmuş və satınalma müqavilələri bağlanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

## Azərbaycan Dövlət Pedaqoji Universiteti İnventarın kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar (012) 493-00-32 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 07.11.2019-cu il saat 16:30-dək qəbul olunur.

Ünvan: Üzeyir Hacıbəyov, 68.

***Tender komissiyası***

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin rəhbərliyi Azərbaycan Respublikasının Özbəkistan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Hüseyn Quliyevə bacısı

**AİDƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı Hüseynbala Mirələmov Hüseyn və Zərifə Quliyevlərə əzizləri

**AİDƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin Sosial qanunvericilik şöbəsinin müdiri Adilə Abasova və Komitə və komissiyalarla iş şöbəsinin əməkdaşı Elza Fərhadova “Modern inkişaf və ailə” İctimai Birliyinin sədri Zərifə Quliyevaya bacısı

**AİDƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Salyan Rayon Məhkəməsinin sədri Əlövsət Paşayev Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarənin rəisi İlqar Cəfərova anası

**SUSANNA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin kollektivi Şamaxı Rayon Məhkəməsinin sədri Etibar Hümbətova atası

**ZÜLFÜQAR HÜMBƏTOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Şəhər Səbail Rayon Məhkəməsinin sədri Ağamalı Qafarov və məhkəmənin kollektivi məhkəmənin hakimi Mədinə Bağırovaya qardaşı

**ABDUL BAĞIROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Şəhər Səbail Rayon Məhkəməsinin sədri Ağamalı Qafarov və məhkəmənin kollektivi Şamaxı Rayon Məhkəməsinin sədri Etibar Hümbətova atası

**ZÜLFÜQAR HÜMBƏTOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Kürdəmir Rayon Məhkəməsinin kollektivi Şamaxı Rayon Məhkəməsinin sədri Etibar Hümbətova atası

**ZÜLFÜQAR ABBASƏLİ OĞLU HÜMBƏTOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8939
Sifariş 3618
Qiyməti 40 qəpik